Xalqın qəzeti!

# Xalq qəzeti

№ 237 (30931) 6 noyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Ərəb Koordinasiya Qrupu Qarabağın dirçəlişinə dəstək verəcək

*Prezident İlham Əliyev Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Əbu-Dabi İnkişaf Fondunun Baş direktoru, Əbu-Dabi İxracat Ofisinin (ADEX) İcraiyyə Komitəsinin sədri Məhəmməd Saif Əl-Süveydi, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad və Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun Baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar daxildir.

Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların xüsusilə indiki dövrdə – Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-tikinti işləri apardığı zaman ölkəmizdə sosial infrastrukturun inkişafı ilə bağlı layihələrə dəstək vermək niyyətini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar qonaqların təmsil etdikləri maliyyə institutları və ölkələrin xalqları ilə qardaşlıq, dostluq münasibətlərimizi genişləndirir.

Azərbaycanda əsas infrastruktur layihələrinin artıq tamamlandığını deyən dövlətimizin başçısı su, nəqliyyat və digər sahələr üzrə dövlət proqramlarının icra edildiyini və gələcəkdə də müxtəlif istiqamətlər üzrə dövlət proqramlarının qəbul olunacağını vurğuladı.

Görüşə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına təşəkkür edən İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir işğaldan azad edilmiş Qarabağda, Şuşada olmaqdan məmnunluğunu bildirdi, orada aparılan işlərin dərin təəssürat hissi doğurduğunu dedi.



Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı, ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühitinə toxunuldu, əməkdaşlığın perspektivləri müzakirə edildi. Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Milli teleradio ölkə həyatının canlı güzgüsüdür



**1926-cı il noyabrın 6-da Azərbaycan Radiosunun "Diqqət, danışır Bakı" sözləri ilə yayıma başlaması ilə ölkəmiz növbəti dəfə regionda "ilk"ə imza atdı. Həmin gün Azərbaycanla yanaşı, Yaxın Şərqin də mədəni yeniliklər salnaməsinə ilk radio yayımı kimi yazıldı.**

**Sovet Azərbaycanı paytaxtının küçə və meydanlarında quraşdırılan reproduktorlardan yayılan həmin səs yalnız ingilis fiziki Uilyam Kruksun 53 il əvvəl elektromaqnit dalğalarından istifadə edərək yaratdığı simsiz teleqraf rabitəsinin praktik təcrübələrinin neft Bakısında tətbiqi deyil, eyni zamanda, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin əsasını qoyduğu anadilli jurnalistikada audiovizual formatın da yer almasının başlanğıcı idi.**

*(ardı 14-cü səhifədə)*

## Bakı Metropoliteni – paytaxtın yeraltı polad magistralı




Səhifə ⇨ 7



## Yazıçı xalqın danışan dili, sənətdə vəkilidir

Səhifə ⇨ 11

## MDB: təhlükəsizlik və Cənubi Qafqazda sülh




Səhifə ⇨ 3

## Azərbaycan–Əlcəzair tərəfdaşlığı genişlənir



Səhifə ⇨ 3

## Mərkəzi Asiya geosiyasi yenilənmə yolunda



Səhifə ⇨ 4

## "İki həftəyə atom bombası hazırlaya bilərik" hədə-qorxusu



Səhifə ⇨ 5

## Siyasi deformasiya



Səhifə ⇨ 5

## Sosial layihələr rifahı yüksəldir, məmnunluğu artırır



Səhifə ⇨ 12

## Yeni mərhələli vergi güzəşti necə tətbiq olunacaq?



Səhifə ⇨ 13

# Azərbaycan elminin inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə **qərara alıram:**

**1**. Azərbaycan elminin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Əfəndiyev Qalib Məmməd oğlu
Əliyev Adil Abas Əli oğlu
Kərimov Raqub Şahmar oğlu
Məmmədbəyli Eldar Hüseynqulu oğlu
Məmmədzadə İlham Ramiz oğlu

**"Şöhrət" ordeni ilə**

Əlquliyev Rasim Məhəmməd oğlu
Feyzullayev Əkpər Əkpər oğlu
Hüseynova İradə Məmməd qızı
Şükürov Kərim Kərəm oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Abasov Səfa İslam oğlu
Ayda Zadə Kamil Rəcəb oğlu
Əliyev Əlövsət Qaraca oğlu
Əliyev İmir İlyas oğlu
Əsədov Mirsəlim Mirələm oğlu
Əzizova Fəridə Əhəd qızı
Qasımov Oktay Kazım oğlu
Mehdiyev Arif-Ala Əli-Ovsəd oğlu
Mədətov Rəhim Səlim oğlu
Mustafayev İslam İsrafil oğlu
Mustafayev Tehran Əlişan oğlu
Rəsulov Mahir Əbdüləli oğlu
Sərdarlı Rauf Mədət oğlu
Şahmuradov İlham Əyyub oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Eldar Mehdi oğlu
Abdullabəyova Gülər Həsən qızı
Bağırov Əkrəm Daxil oğlu
Bəhramov Cəbi Əmirvar oğlu
Bunyatzadə Könül Yusif qızı
Əliyev Təvəkkül Rəsul oğlu
Əliyeva Nuray Yadigar qızı
Xavəri Sərxan Abbas oğlu
İbadullayeva Səyyarə Cəmşid qızı
Qafarov Ramazan Oruc oğlu
Quliyeva Xatirə Nəcəfqulu qızı
Qurbanov Füzuli Məhəmməd oğlu
Mahmudov Məsud Əhməd oğlu
Məmmədli Əliağa Əyyub oğlu
Məmmədli Tahir Yadigar oğlu
Rzayev Seyfəddin Gülverdi oğlu
Seydəliyev Nəriman Fərman oğlu
Şükürlü Yusif Hacıbala oğlu
Şükürov Ağahüseyn Məmmədhüseyn oğlu.

**2**. Azərbaycan elminin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Həmidov İmamverdi Yavər oğlu
Mustafazadə Tofiq Teyyub oğlu
Şərifov Kamandar Kazım oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 noyabr 2025-ci il**

# Bakı Metropoliteni əməkdaşlarının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Metropoliteninin inkişafında əldə etdikləri yüksək nailiyyətlərə və hərəkətin təhlükəsizliyinin təmin edilməsi sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

İsmayılov Elçin Əlpaşa oğlu

**"Tərəqqi" medalı ilə**

Aslanov Aslan Məmmədəli oğlu
Bayramov Rizvan Fərmayıl oğlu
Heydərov Mehman Səfiyar oğlu
İbrahimov Əliqismət Sərdər oğlu
Kazımov Sənan Məsim oğlu
Məmmədov Bəxtiyar Miryusif oğlu
Məmmədov Tural Cavanşir oğlu
Yusubov Namiq Nəsrullah oğlu
Zamanov Anar Arif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 noyabr 2025-ci il**

# Sahibə Qafarova Braziliyada keçirilən COP30 konfransında

**Milli Məclisin sədri Sahibə Qafarova BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasında (COP30) iştirak etmək üçün Braziliya Federativ Respublikasının Belem şəhərinə işgüzar səfər edib.**

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti COP30 tədbirlərində iştirak edəcək, sessiyada müzakirə olunan məsələlərə münasibət bildirəcək.

***XQ***



# Hikmət Hacıyevin Böyük Britaniya dövlət naziri ilə görüşü



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti ilə görüşüb.**

Hikmət Hacıyev bu barədə özünün "X" sosial media hesabında paylaşım edib.

Prezidentin köməkçisi strateji tərəfdaşlıq ruhunda keçən görüşdə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi məqsədilə nəqliyyat əlaqələri, süni intellekt, kibertəhlükəsizlik, rəqəmsallaşma, təhsil, həmçinin müdafiə və hərbi əməkdaşlıq kimi yeni istiqamətlər üzrə müzakirələrin aparıldığını qeyd edib.

***XQ***

# Aİ-nin xüsusi nümayəndəsi XİN-də

**Noyabrın 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.**

Görüş zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, Azərbaycan–Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, nəqliyyat, enerji təhlükəsizliyi və s. istiqamətlər üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq platformaları və alətləri üzrə danışıqların əhəmiyyəti diqqətə çatdırılıb. İki tərəf arasında yüksək səviyyədə təmasların və son aylarda keçirilmiş dialoqların məmnunluq doğurduğu, bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyi vurğulanıb.



Xüsusi nümayəndə Vaşinqton Zirvə Görüşü çərçivəsində əldə edilmiş nailiyyətlərə dəstək verilməsi istiqamətində Avropa İttifaqının hazırlığını ifadə edib.

Nazir Ceyhun Bayramov öz növbəsində Azərbaycan-Ermənistan normallaşma, sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə qarşı tərəfə məlumat verib, ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Qırx dörd günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsinin beşinci ildönümü münasibətilə Pakistan xalqı və Hökuməti adından, eləcə də şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Bu tarixi gün Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün göstərdiyi cəsarətin, birliyin və sarsılmaz qətiyyətin parlaq təcəssümüdür. Bu qətiyyətli Qələbə nəticəsində sevimli Şuşa şəhəri də daxil olmaqla Azərbaycanın əzəli torpaqları azad edilib.

Bu əlamətdar hadisə, həmçinin Ermənistanla tarixi razılaşmanın əldə edilməsini, bununla da Qafqaz regionunun davamlı sülh və yeni iqtisadi imkanlar dövrünə qədəm qoymasında Zati-alinizin dövlət xadimi kimi müstəsna xidmətlərini və uzaqgörən liderliyini yüksək qiymətləndirmək üçün yaxşı fürsətdir.

Zati-aliləri, 2025-ci il noyabrın 8-də Bakıda Zəfər Günü ilə bağlı tədbirlərdə Sizinlə birlikdə iştirak etməyi səbirsizliklə gözləyirəm. Əminəm ki, səfərim xüsusilə də 2025-ci il iyulun 4-də Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XVII Zirvə görüşü zamanı əldə olunan mühüm razılıq çərçivəsində qarşılıqlı faydalı gündəliyimizi inkişaf etdirmək üçün gözəl fürsət yaradacaqdır.

Ən qısa zamanda Zati-alinizə münasib vaxtda Pakistana səfərinizi səbirsizliklə gözləyirik. Bu baxımdan, məmnunluqla bildirirəm ki, heyətlərimiz həmin səfər zamanı bir sıra qarşılıqlı faydalı təşəbbüslərin rəsmi şəkildə başladılması üçün bəzi məsələləri yekunlaşdırmaq istiqamətində səylə çalışırlar.

Bu xoş fürsətdən istifadə edərək, Pakistanın qardaş xalqlarımızın rifahı naminə əlaqələrimizi çoxşaxəli, qarşılıqlı faydalı strateji və iqtisadi tərəfdaşlıq səviyyəsinə yüksəltmək əzmində olduğunu bir daha vurğulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO adından və şəxsən öz adımdan səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Bu tarixi hadisə təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə deyil, həm də ədalətin təntənəsi və Cənubi Qafqazda sülh, inkişaf və yenidənqurma sahələrində yeni bir dövrün başlanması ilə əlamətdardır. Ərazilərin azad edilməsi xüsusən də Azərbaycan xalqının və bütün İslam dünyasının kimliyini, mənəvi dəyərlərini təmsil edən mədəni irs sahəsində mühüm bərpa prosesinə yol açmışdır.

Bu baxımdan, ICESCO-nun azad edilmiş ərazilərə son illərdə iki beynəlxalq texniki missiya göndərdiyini və onların vəziyyəti yerində qiymətləndirdiyini, işğal zamanı zərər dəymiş mədəni irsin qorunması və bərpası üçün tövsiyələr verdiyini məmnuniyyətlə xatırlayıram. Biz bu səyləri təkcə Azərbaycanın deyil, bütün dünyanın münaqişədən sonrakı bölgələrində mədəni irsin qorunması üçün bir model kimi son dərəcə əhəmiyyətli hesab edirik.

Qarabağa hər səfərim zamanı oradakı sürətli dəyişiklikləri böyük heyranlıqla izləmişəm. Şəhər və kəndlərin yenidən qurulması, mədəni və dini abidələrin, təhsil müəssisələrinin bərpası və ictimai həyatın dirçəlişi bunun bariz sübutudur.

Bu mühüm nailiyyətlər Sizin uzaqgörən liderliyinizin və Azərbaycanın daha firavan, daha sabit gələcəyi ilə bağlı əzminizin göstəricisidir.

Zati-aliləri, bu şanlı Zəfər bayramı münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, müdrik rəhbərliyinizlə Azərbaycan Respublikasına davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Səlim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun Baş direktoru***

# Milli Məclisin xarici parlamentlərə və beynəlxalq qurumlara bəyanatı

**Milli Məclisin oktyabrın 31-də keçirilmiş plenar iclasında qəbul edilən 8 Noyabr Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Bəyanat xarici ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına göndərilib.**

Bəyanatda 2020-ci ilin sentyabr–noyabr aylarında 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin milli tariximizin ən şərəfli və taleyüklü hadisələrindən biri olduğu, döyüş meydanında qazanılan Qələbənin siyasi-diplomatik müstəvidə də təsdiqləndiyi vurğulanır. Qeyd edilir ki, bu ilin avqustunda Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Birgə Bəyannamə imzalamaları, iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoyub, regionumuzda uzunmüddətli sülh və sabitlik yolunu açıb.

Sənəddə, həmçinin qeyd olunur ki, Milli Məclis İkinci Qarabağ müharibəsində Qələbənin tarixi əhəmiyyətini vurğulayaraq, dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin möhkəmləndirilməsi işinə sadiqliyini bir daha ifadə edir, Azərbaycan Prezidentinin bölgədə sülh və əməkdaşlıq mühiti yaradılmasına yönələn səylərini dəstəkləyir.

***XQ***

# Moldova–Azərbaycan əməkdaşlığı davam edəcək



**Azərbaycan Moldova üçün həm ikitərəfli, həm də beynəlxalq əməkdaşlıqda mühüm tərəfdaşdır.**

Bu fikri Moldova parlamentinin sədri İqor Qrosu Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramovun rəhbərliyi ilə bir qrup diaspor fəalımızla görüşündə söyləyib. "Moldovanın yeni parlamenti və hökuməti Azərbaycanla enerji, iqtisadiyyat, kənd təsərrüfatı və mədəniyyət kimi sahələrdə səmərəli əməkdaşlığını davam etdirəcək, çünki bu əlaqələrin genişləndirilməsi üçün potensial böyükdür. İkitərəfli əməkdaşlığımızı, xüsusilə enerji sahəsində intensivləşdirmək istəyirik", - deyə Moldova parlamentinin sədri vurğulayıb.

İqor Qrosu, həmçinin bildirib ki, Moldovada Azərbaycan diasporunun töhfəsi çox böyükdür. Azərbaycan diasporu Moldovanın ictimai-siyasi həyatında, mədəniyyətində, idman sahəsində aktivdir.

Yenidən Moldova parlamentinin sədri seçilməsi münasibətilə təbrik edən Elçin Bayramov bildirib ki, etnik azərbaycanlılar Moldovanın inkişafı üçün öz töhfələrini verməkdə davam edəcək.

***XQ***

# MDB: təhlükəsizlik və Cənubi Qafqazda sülh

## Rusiyanın regiona baxış mücərrədliyi, yoxsa...




**Dünən Moskvada MDB-yə üzv dövlətlərin Təhlükəsizlik Şuraları katiblərinin XIII görüşü keçirildi. Tədbir 31 oktyabr – 5 noyabr tarixlərində Rusiya paytaxtında reallaşdırılan "Rusiya və MDB xalqları" adlı beynəlxalq festivalın yekun toplantısına çevrildi.**

Görüşlə bağlı əvvəlcədən yayılmış məlumatda bildirilmişdi ki, orada əsas müzakirə mövzusu MDB üçün yaranan təhdidlər, təhlükəsizlik çağırışları, onlara qarşı birgə reaksiya tədbirləri, Qərbin ideoloji ekspansiyası ilə mübarizə məsələləri olacaq. O da bildirilmişdi ki, toplantıya sədrlik edəcək Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Azərbaycan və Ermənistan nümayəndələri ilə ayrıca ikitərəfli təması da nəzərdə tutulur. Gözlənildiyi kimi də oldu. Amma bu barədə bir qədər sonra.

* * *

Hələlik onu deyək ki, Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Aleksey Şevtsov daha əvvəl TASS-a açıqlamasında MDB təhlükəsizlik şuraları katiblərinin görüşünün etimada əsaslanan unikal format olduğunu, bu formatın təhlükəsizlik sahəsində gündəlikdə duran ən mürəkkəb məsələlərin açıq və konstruktiv şəkildə müzakirəyə çıxarılmasına, həmçinin ortaq ənənəvi dəyərlər əsasında ölkələrin və xalqların xarici və daxili təhdidlərdən müdafiəsi üçün birgə qərarların hazırlanmasına imkan verdiyini vurğulamışdı. O zaman reallığa diqqət yetirək.

Əlbəttə, MDB vacib platformadır. Bu vacibliyi Azərbaycanın maraq və mənafeləri baxımından da əsaslandırmaq mümkündür. Məsələ ondadır ki, qurum 1991-ci ildə SSRİ-nin süqutundan sonra keçmiş sovet respublikaları arasında əməkdaşlığı qorumaq məqsədilə yaradılmışdı. Onun əsas hədəflərindən biri yalnız iqtisadi və siyasi əlaqələri deyil, həm də regional təhlükəsizliyi təmin etmək idi. Lakin illər ərzində MDB-nin təhlükəsizlik sahəsindəki real təsir gücünə malik təşkilat olmadığı üzə çıxdı.

* * *

Ümumən, MDB təhlükəsizlik sahəsində institusional bazasını bir neçə mexanizm təşkil edir. Bunlardan birincisi Antiterror Mərkəzidir. Bu mərkəz 2000-ci ildə Moskvada yaradılıb və məqsədi terrorçuluq, separatçılıq və ekstremizmlə mübarizədə üzv dövlətlər arasında koordinasiyanı həyata keçirməkdir. Qurumun başlıca fəaliyyəti məlumat mübadiləsi və hüquq-mühafizə orqanlarının əməkdaşlığı ilə məhdudlaşır. Yəni, burada faktiki əməliyyat potensialı və səlahiyyət yoxdur.

İkinci baza MDB Müdafiə Nazirləri Şurası və Sərhəd Qoşunları Komitəsidir. Bu alt qurum isə müdafiə nazirləri səviyyəsində əlaqələndirmə platforması kimi fərqlənir, müştərək təlimlər və sərhəd təhlükəsizliyi üzrə protokollar hazırlayır, amma nəzərdə tutulmuş işin icrası çox vaxt siyasi iradədən asılı olur.

Üçüncü bazaya gəldikdə, burada narkotik və transsərhəd cinayətkarlığına qarşı əməkdaşlıq vurğulanmalıdır. Bu özəyin Əfqanıstandan gələn təhlükələrə qarşı məlumat və təcrübə mübadiləsi reallaşdırdığı bildirilir. Onun fəaliyyətinin əsasən deklarativ xarakter daşıdığı da həmçinin.

* * *

Onu da bildirək ki, MDB-də mühüm söz sahibi olan Rusiya qurumun təhlükəsizlik sahəsində bir o qədər mütəşəkkil fəaliyyət göstərmədiyini hiss etdiyindən, 1992-ci ildə Kollektiv Təhlükəsizlik Müqaviləsinin imzalanmasına nail oldu. 2002-ci ildə bu saziş əsasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı yarandı və qurum bu kimi prioritetləri açıqladı: Üzv ölkələrin birinə hücum olarsa, digər üzvlərin hərbi yardımı, müştərək hərbi təlimlər, sülhməramlı əməliyyatlar, müdafiə siyasətinin koordinasiyası.

Yeri gəlmişkən, 1993-cü ildə MDB-yə üzv olan Azərbaycan KTMT-yə qoşulmayıb. Ermənistana gəldikdə isə ölkə Rusiyanın hakim rol oynadığı hərbi blokda yer alsa da, rəsmi İrəvanın son dövrlər təşkilatla münasibətlərdə soyuqluq göstərdiyi məlumdur. Baş nazir Nikol Paşinyan administrasiyası KTMT-nin Ermənistanın maraqlarını qoruya bilməməkdə, ölkənin təhlükəsizlik çağırışlarına qeyri-adekvat yanaşmada ittiham edir.

Əlqərəz, KTMT kimi MDB də təhlükəsizlik məsələlərində mərkəzi rol oynamır. Onun real fəaliyyəti daha çox kibertəhlükəsizlik və informasiya müharibəsinə qarşı əməkdaşlıq, miqrasiya və transmilli cinayətkarlıqla mübarizə, ictimai-siyasi sabitlik və seçki müşahidə missiyaları, yəni demokratik təhlükəsizlik aspekti üzərində cəmləşib. Ümumən, Ukrayna böhranı, Ermənistanın KTMT ilə soyuqluğu, Gürcüstan və Moldovanın təşkilatdan çıxması MDB-nin birlik kimi dayaqlarını zəiflədib.

Digər tərəfdən, sırf Rusiya faktoru üzərində dayanmalıyıq. Məlumdur ki, MDB-nin təhlükəsizlik mexanizmlərinin əsas dayağı bu ölkədir. Geniş yayılmış fikirlər isə Rusiyanın MDB-ni özünün geosiyasi təsir aləti kimi saxlamaq məntiqinə söykənir və bu, üzv dövlətlərin maraqları ilə üst-üstə düşməyən məqamdır.

Nəhayət, belə nəticəyə gəlmək mümkündür ki, MDB təhlükəsizlik məsələlərində strateji təşkilat olmasa da, diplomatik əlaqələndirmə və informasiya təhlükəsizliyi baxımından müəyyən əhəmiyyətini saxlayır.

* * *

Beləliklə, Azərbaycan Təhlükəsizlik Şurasının katibi Ramil Usubovun da qatıldığı MDB ölkələri Təhlükəsizlik şuraları katiblərinin XIII görüşündə çıxış edən Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu bildirib ki, Cənubi Qafqaz regionunda vəziyyət yaxşılaşma tendensiyasına malikdir. AZƏRTAC-ın xəbərinə görə, Şoyqu sülh prosesinin daha da irəliləməsi üçün "3+3" regional məşvərət formatının işini bərpa etməyin vacibliyindən də söz açıb. "Bununla bağlı mövqeyimiz ondan ibarətdir ki, ilk növbədə, sülh prosesi regional meyarlara əsaslanmalıdır. Bu kontekstdə "3+3" regional məşvərət formatının işini bərpa etmək vacibdir", - deyən Rusiya rəsmisi əlavə edib ki, regionda nəqliyyat kommunikasiyalarının açılması böyük əhəmiyyətə malikdir və məsələ barədə üçtərəfli işçi qrupu çərçivəsində razılıq əldə olunub.

Qeyd edək ki, S.Şoyqunun Azərbaycan Təhlükəsizlik Şurasının katibi Ramil Usubovla təkbətək təmasının olub-olmadığına dair hansısa məlumat verilməsə də, birincinin Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşü gerçəkləşib. Daha doğrusu, Şoyqu deyib, Qriqoryan eşidib. Məsələn, Şoyqu bildirib ki, Qafqazdakı vəziyyət daimi diqqət tələb edir. Daha doğrusu, Rusiya rəsmisinin "təqvimlərimizi uyğunlaşdırmaq bizim üçün vacibdir. Regionda, bütövlükdə Qafqazda, o cümlədən Cənubi Qafqazda baş verən son hadisələrin hamısı bizim daimi diqqətimizi və məsləhətləşmələrimizi tələb edir" fikri qarşılığında, A.Qriqoryanın "regiondakı vəziyyətlə bağlı təfərrüatları paylaşmağa hazıram" deməsi və görüş imkanı üçün təşəkkür bildirməsinə dair qısa xəbər var.

* * *

Sonda istər MDB ölkələri Təhlükəsizlik şuraları katiblərinin XIII görüşü ilə əlaqədar yayılmış məlumatlardan, istər Şoyqunun toplantıdakı çıxışında vurğuladığı məqamlardan, istərsə də onun A.Qriqoryanla təmas zamanı bildirdiklərindən belə qənaətə gəlmək mümkündür ki, Rusiya Cənubi Qafqaz müstəvisinə baxışını məhz qeyd etdiyimiz "3+3" üzərindən ortaya qoyur. Baxışa gəldikdə, onun hazırda populyarlıq qazanmış regional sülh gündəmindən fərqləndiyini demək mümkündür.

Bəli, Şoyqu Moskvanın bu gündəmə "3+3" regional məşvərət formatı çərçivəsində yanaşdığını bir daha bəyan edir. Başqa sözlə desək, Rusiya üçün ayrıca gündəm var və ölkə həmin gündəmin detallarının müzakirəsini yalnız "3+3" müstəvisində görür. Maraqlıdır ki, Azərbaycan və Ermənistan rəsmilərinin bu yanaşmanı dəstəkləndiyinə dair hansısa məlumat nə indi var, nə də əvvəl olub.

Azərbaycan və Ermənistan regional sülhün bu il avqustun 8-də Vaşinqtonda açıqlanmış parametrlərini rəhbər tutur və məsələ barədə dəfələrlə müxtəlif səviyyələrdə bəyanatlar olub. Bilavasitə Şoyqunun timsalında Rusiyanın regional təhlükəsizlik mövzusunu bağladığı "3+3" regional məşvərət formatına gəlincə, mövcud düzən Azərbaycan və Türkiyə tərəfindən iki il əvvəl irəli sürülmüş təşəbbüsdür. Üstəlik, təşəbbüsə regiona maraqlı tərəflərdən İranın da qoşulduğunu bilirik.

Bir məqamı da vurğulayaq ki, "3+3" vaxtilə meydana çıxanda Rusiya ona sülhü yaradacaq platforma kimi yanaşmır, çalışırdı ki, Azərbaycan və Ermənistan arasındakı münaqişə birbaşa özünün egidası altında olsun. Həmin vaxt Qarabağda separatçı rejim, bütövlükdə Bakı və İrəvan arasında münaqişə məntiqi saxlanılırdı. İndi münaqişə yoxdur, ölkəmiz özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Habelə, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi paraflanıb. Barış mühitinin başlıca prinsipləri də aydındır. Deməli, sual yaranır ki, Rusiyada, belə demək mümkünsə, sülh yaradıcılığına baxış nədən ibarətdir? Məsələ mücərrədliyini qoruyur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–Əlcəzair tərəfdaşlığı genişlənir

**Vətən müharibəsindən həm döyüş meydanında, həm də diplomatik masada qalib ayrılan Azərbaycanın beynəlxalq arenadakı mövqeyi getdikcə güclənir. Son dövrlər dünyanın aparıcı dövlətləri ilə münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldən rəsmi Bakı öz diplomatiya imkanları ilə ən zəngin qitə hesab edilən Afrikaya nüfuz etməkdədir. Bu istiqamətdə xüsusilə Əlcəzair Xalq Demokratik Respublikası ilə əlaqələrin dərinləşməsi diqqət mərkəzindədir.**





Xarici işlər naziri Ceyhun Bayramov Əlcəzairə rəsmi səfəri çərçivəsində Prezident Əbdülməcid Təbbun tərəfindən qəbul olunub. Görüşdə Azərbaycan–Əlcəzair münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Prezident Təbbun Prezident İlham Əliyevin 2022-ci ildə Əlcəzairə səfərinin əlaqələrin möhkəmlənməsinə töhfə verdiyini vurğulayıb. Tərəflər siyasi dialoqun dərinləşdirilməsi və iqtisadi, enerji, təhsil, humanitar, nəqliyyat, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəliblər. Bu çərçivədə iki ölkə arasında Ticarət, İqtisadi, Elmi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında saziş mühüm addım kimi dəyərləndirilib. Həmçinin BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti qeyd edilib. Qarşı tərəf Azərbaycana qarşı təcavüzün nəticələri və post-münaqişə dövründə sülh və bərpa fəaliyyətləri barədə məlumatlandırılıb.

Qeyd edək ki, nazir Ceyhun Bayramovun Əlcəzairə səfəri zamanı bu ölkənin XİN rəhbəri ilə Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında Ticarət, İqtisadiyyat, Elmi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılmasına dair Sazişi imzalayıblar. Saziş iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələni əhatə edir. Sənəd ticarət, investisiya, elm və texnologiya kimi əsas sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün strukturlaşdırılmış və institusionallaşdırılmış mexanizm yaradır. Birgə Komissiya qarşılıqlı maraq doğuran yeni sahələrin müəyyənləşdirilməsi, təşəbbüslərin əlaqələndirilməsi, eləcə də təcrübə və qabaqcıl təcrübələrin mübadiləsi üçün platforma rolunu oynayacaq.

Məlumat üçün bildirək ki, Azərbaycan ilə Əlcəzair arasında diplomatik münasibətlər 1994-cü ildə qurulub. Bu, Azərbaycanın müstəqillik əldə etməsindən qısa müddət sonra iki ölkənin beynəlxalq arenada bir-birinə qarşılıqlı maraq göstərdiyini sübut edir. O vaxtdan bəri əlaqələr tədricən genişlənib, xüsusilə energetika, humanitar, parlamentlərarası əməkdaşlıq və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək formalaşıb. Əlcəzair Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib və Qoşulmama Hərəkatında ölkəmizin təşəbbüslərinə hər zaman müsbət münasibət göstərib.

Ötən illər ərzində iki ölkə arasında siyasi dialoq və yüksək səviyyəli təmaslar öz yerini alıb, dövlət başçılarının qarşılıqlı səfərləri baş tutub. 2019-cu il oktyabrın 24-26-da Əlcəzairin Prezidenti Abdelkader Bensalah Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana səfər edib. 2022-ci il noyabrın 1-də Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Ərəb Dövlətləri Liqasının Əlcəzair şəhərində keçirilən 31-ci Sammitində fəxri qonaq qismində iştirak etmək məqsədilə bu ölkədə səfərdə olub. Toplantıda çıxış edən dövlət başçısı ölkəmizin Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərinin olduğunu qeyd edib. Ölkə rəhbəri əminliklə bildirib ki, yaxın gələcəkdə təşkilata üzv ölkələrlə əməkdaşlıq genişlənəcək, yeni xarakter və yeni dinamika alacaq.

* * *

Azərbaycan və Əlcəzair arasında parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir, iqtisadi əməkdaşlığın gücləndirilməsi istiqamətində danışıqlar aparılır. Enerji sahəsində əməkdaşlıq potensialı yüksəkdir. Afrikanın ən böyük ölkəsi olan Əlcəzairin iqtisadiyyatı əsasən enerji resurslarına – neft və təbii qaza əsaslanır. Təxminən 12 milyard barrel səviyyəsində sübut olunmuş neft ehtiyatı var. Bu göstərici Əlcəzairi Afrikada 3-cü, dünyada isə ilk 20 ölkə sırasına çıxarır. Ölkənin təbii qaz ehtiyatı təxminən 4,5 trilyon kubmetr təşkil edir. Bu, onu dünyada 10 ən iri qaz ölkəsindən biri edir. Bu baxımdan SOCAR və Əlcəzairin "Sonatrach" şirkətləri arasında əlaqələrin inkişafı perspektivlidir.

Rəsmi məlumatlara görə, iki ölkə arasında ticarət dövriyyəsi elə də yüksək deyil. Amma son illər ixrac və idxal həcmi artmaqdadır. İqtisadi mübadilə 2021-ci ildə 1,37 milyon ABŞ dolları, 2022-ci ildə 1,84 milyon ABŞ dolları, 2023-cü ilin yanvar-oktyabr dövründə 2,15 milyon ABŞ dolları olub. 2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycan-Əlcəzair ticarət dövriyyəsinin ümumi həcmi təxminən 3,1 milyon ABŞ dolları olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 46,9 faiz artım deməkdir. Həmin ilin göstəricilərinə əsasən, Azərbaycandan Əlcəzairə ixracın həcmi 1,8 milyon ABŞ dolları təşkil edib. Əlcəzairdən Azərbaycana idxal isə 1,3 milyon ABŞ dolları olub.

Azərbaycan və Əlcəzair arasında münasibətlərin mühüm istiqamətlərindən biri mədəni əməkdaşlıqdır. Hər iki xalqın tarixində azadlıq, müstəqillik və milli ləyaqət uğrunda mübarizə aparmaq kimi oxşar səhifələr mövcuddur. Əlcəzair XIX əsrdə Fransa tərəfindən işğal edilmiş, 1830–1962-ci illər ərzində 1,5 milyondan çox əlcəzairli müstəmləkəçiliyin qurbanı olmuşdur. Buna görə ölkə "1,5 milyon şəhid ölkəsi" adlanır. Azərbaycan da XX əsrdə işğal və təcavüzlə üzləşmiş, minlərlə insanını itirmiş və bir milyondan artıq vətəndaşı məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu oxşar tarixi talelər hər iki xalqı azadlıq və ədalət ideallarına daha da yaxınlaşdırır. Məhz bu mənəvi yaxınlıq Azərbaycan və Əlcəzair arasında mədəni əlaqələrin əsasını təşkil edir.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*

**Azər ALLAHVERDİYEV,**
**Milli Məclisin deputatı**



Azərbaycan və Əlcəzair arasında əlaqələrin dərinləşdirilməsi üçün geniş imkanlar mövcuddur. Şübhəsiz ki, burada dini bağlılıq vacib amillərdən biridir. Çünki bu gün İslam dünyasında müşahidə edilən inteqrasiya prosesləri üç əsas məfhum üzərində inkişaf edir. Bunlar dil, din və mədəniyyətdir. Məhz bu prizmadan yanaşdıqda, Əlcəzairlə münasibətlərimizin dini və mədəni bağlar üzərində qurulması, həmin istiqamətdə əlaqələrin genişləndirilməsi üçün böyük potensial yaradır.

Digər mühüm istiqamətlərdən biri isə iqtisadi müstəvidə qarşılıqlı əməkdaşlıqdır. Buraya ticarət, turizm və qarşılıqlı fayda verə biləcək digər sahələr daxildir. Məsələn, turizm sektorunun inkişafı baxımından Azərbaycanla Əlcəzair arasında geniş əməkdaşlıq imkanları var. Əlcəzair azərbaycanlı turistlər üçün maraqlı istiqamətlərdən biri hesab oluna bilər. Eyni zamanda, əlcəzairli turistlər üçün də Azərbaycan cəlbedici məkan kimi diqqət çəkir.

Tarixə nəzər salsaq görərik ki, Əlcəzairdə neft yataqlarının kəşfiyyatı prosesində Azərbaycan neftçiləri yaxından iştirak ediblər. Azərbaycan alim və mütəxəssisləri Əlcəzairdə bir çox yataqların kəşfində mühüm rol oynayıblar. Hətta Azərbaycanda neft kəşfiyyatı sahəsində tətbiq olunan üsullar sonradan Əlcəzairdə də uğurla sınaqdan keçirilib.

Eyni zamanda, iki xalq arasında mədəni müstəvidə oxşarlıqlar var. Hər iki xalq tarix boyu işğal və soyqırımı faciələri yaşayıb. Əlcəzair uzun illər Fransa müstəmləkəsi olan, bu dövrdə yerli xalqa qarşı kütləvi soyqırımlar törədilib. Oxşar taleyi Azərbaycan xalqı müxtəlif tarixi mərhələlərdə yaşayıb. Maraqlıdır ki, vaxtilə Azərbaycanda törədilən soyqırımlarda iştirak edən bəzi şəxslər Fransanın müstəmləkələrində fəaliyyət göstərən hərbi və terror düşərgələrində təlim keçmişdilər.

Bütün bu amillər göstərir ki, Azərbaycanla Əlcəzair arasında dərin və güclü bağlar mövcuddur. Məhz bu bağlar üzərində iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar var. Bu kontekstdə xarici işlər naziri Ceyhun Bayramovun Əlcəzairə səfərini xüsusi qeyd etmək lazımdır. Bu səfər, qeyd etdiyim kimi, mövcud tarixi və mədəni bağlar üzərində qurulan siyasi, iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır və gələcək əməkdaşlıq üçün mühüm hazırlıq mərhələsi kimi dəyərləndirilə bilər.

# Fransanın diplomatik dönüşü

## *Paris Bakı ilə əməkdaşlığın önəmini anlayır*

**Noyabrın 4-də Bakıda Fransa və Azərbaycan diplomatları arasında uğurlu danışıqlar aparılıb. Bu barədə Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sofi Laqut "X" platformasında etdiyi paylaşımda məlumat verib. Diplomat bildirib ki, müzakirələr Azərbaycan və Fransa prezidentləri arasında son görüşlərin davamı olub.**



O qeyd edib ki, Fransa Prezidentinin Avropa üzrə diplomatik müşaviri Bertrand Buxvalter və Xarici İşlər Nazirliyinin Avropa üzrə direktoru Bris Rokfeyl Azərbaycana səfər ediblər. "Bertrand Buxvalter və Bris Rokfeyl Azərbaycan Prezidentinin köməkçisi – Prezidentin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla Azərbaycan–Fransa münasibətlərini və regional məsələləri müzakirə etmək üçün Bakıya gəliblər", – deyə səfir bildirib.

Əlbəttə, fransız diplomat "müzakirələr Azərbaycan və Fransa prezidentləri arasında son görüşlərin davamı olub" deyərkən 2025-ci ildə keçirilən 3 görüşü nəzərdə tutur. Həmin görüşlərdən biri may ayının 16-da Albaniyanın paytaxtı Tiranada Avropa Siyasi Birliyinin VI Zirvə toplantısında, ikinci müzakirə oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagendə ASB-nin VII Zirvə görüşündə, üçüncü təmas isə oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitində iştirak çərçivəsində baş tutub.

İki dövlət başçısının geniş fikir mübadiləsinin aparıldığı görüş Kopenhagendə keçirilib. Bu görüş zamanı Fransa Prezidenti Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələr münasibətilə dövlətimizin başçısını təbrik edib. Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında ABŞ Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Dövlətimizin başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd edib. Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Əslində, Kopenhagendə iki lider arasında baş tutan görüş son dövrlərin ən diqqətçəkən diplomatik hadisələrindən biri kimi dəyərləndirilməlidir. Uzun müddət gərginliyin hökm sürdüyü Bakı–Paris münasibətləri üçün bu görüş, əslində, normallaşma prosesinin başlanğıcının anonsu idi. Əgər bir neçə ay öncə Fransa tərəfi regiondakı hadisələrə açıq şəkildə qərəzli münasibət sərgiləyirdisə, indi Makronun Azərbaycan Prezidentini sülh gündəliyi istiqamətində əldə olunan nəticələrə görə təbrik etməsi siyasi tonun dəyişdiyini göstərir.

Prezident İlham Əliyevin "Vaşinqtonda əldə edilmiş nəticələr regional sülh üçün tarixi əhəmiyyət daşıyır" deməsi isə həm Qərbə, həm də Fransaya ünvanlanmış aydın mesaj idi ki, Bakı konstruktiv dialoqa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərin bərpasına açıqdır. Görünür, bu mesaj Parisdə düzgün oxunub. Çünki Kopenhagen görüşü qarşılıqlı etimadın bərpa olunması istiqamətində ilk real addım kimi qiymətləndirilir.

Həmçinin, görüş zamanı tərəflərin əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparması onu göstərir ki, Fransa artıq bölgədə yeni reallıqları qəbul etmək zərurətini anlayır. Paris üçün Azərbaycanla münasibətlərin sabit məcraya yönəlməsi təkcə regional təhlükəsizlik baxımından deyil, enerji və iqtisadi əməkdaşlıq kontekstində də əhəmiyyət daşıyır. Beləliklə, Kopenhagendəki dialoq nəinki iki dövlət başçısının görüşü idi, həm də uzun fasilədən sonra Fransa–Azərbaycan münasibətlərində yumşalma mərhələsinin başlanğıcı kimi çıxış etdi. Bu görüş diplomatik dildə sükunətin deyil, yeni mərhələnin, normallaşmanın carçısı idi.

Bundan cəmi iki həftə sonra – oktyabrın 16-da Prezident İlham Əliyev Fransanın ölkəmizdə yeni təyin olunmuş səfiri Sofi Laqutun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdikdən sonra aparılan fikir mübadiləsi zamanı İlham Əliyev Kopenhagendə E.Makronla görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını deyib. Səfir də öz növbəsində Azərbaycanla Fransa arasında münasibətlərdə yeni səhifənin açıldığını deyərək, əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib. Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən yüksək texnologiyalar və aerokosmik sahələrdə uğurlu inkişafına toxunulub. Hökumətlərarası Komissiyanın fəaliyyətinin bərpasının əhəmiyyəti vurğulanıb, qardaşlaşmış şəhərlər arasında əlaqələr qeyd edilib, biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili və müxtəlif layihələrdə Fransa şirkətlərinin iştirakı məsələləri müzakirə olunub. Azərbaycanla Fransanın enerji sahəsində uğurlu tərəfdaşlığı və bu xüsusda ölkəmizlə "Total" şirkəti arasında əməkdaşlığın önəmi qeyd edilib. Söhbət zamanı bir çox sahədə münasibətlərimizin perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulandı.

* * *

İndi isə Fransanı təmsil edən yüksək vəzifəli məmurların Azərbaycana səfər etmələri onu göstərir ki, Paris artıq Bakı ilə münasibətlərin normallaşması prosesini yalnız diplomatik jestlərlə deyil, konkret addımlarla davam etdirmək niyyətindədir. Bu səfərlər təkcə protokol xarakteri daşımır, həm də Fransa rəhbərliyinin Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqları qəbul etdiyini, Azərbaycanın regiondakı aparıcı mövqeyini nəzərə almağa məcbur qaldığını nümayiş etdirir.

Buxvalter və Rokfeylin Bakıya gəlişi həm də Fransa diplomatiyasının praqmatik xəttə qayıdışının əlamətidir. Azərbaycanla münasibətləri sırf siyasi deyil, iqtisadi, enerji və texnoloji müstəvidə genişləndirmək istəyi Parisin yeni strategiyasının əsasını təşkil edir. Xüsusilə "Total Energies" şirkətinin Azərbaycanla uğurlu əməkdaşlığı, Avropa üçün enerji təhlükəsizliyinin təminində ölkəmizin mühüm tərəfdaş kimi rolu Fransa üçün bu əlaqələrin dəyərini daha da artırır. Beləliklə, bu səfərlər Parisin Azərbaycanla münasibətləri strateji çərçivəyə salmaq niyyətini təsdiqləyir.

Azərbaycan üçün "Beşinci Respublika"nın mövqeyində baş verən dəyişiklik və bu səfərlər diplomatik uğur kimi dəyərləndirilə bilər. Çünki uzun müddət gərgin münasibətlərdən sonra Fransa kimi böyük dövlətin yüksək səviyyəli rəsmilərinin Bakıya gəlməsi, dialoqa açıq olduqlarını göstərməsi Prezident İlham Əliyevin həyata keçirdiyi balanslı və prinsipial xarici siyasətin nəticəsidir. Azərbaycan öz milli maraqlarını güzəştə getmədən qarşı tərəfi konstruktiv əməkdaşlığa cəlb etməyi bacarıb.

Görünən odur ki, Fransa rəhbərliyi artıq reallığı qəbul edib. Paris başa düşür ki, regionda sabitlik və sülh yalnız Azərbaycanın iştirakı və razılığı ilə mümkündür. Buna görə də Makron iqtidarı indi münasibətləri yenidən qurmaq, etimadı bərpa etmək və itirilmiş diplomatik mövqeləri qazanmaq üçün səy göstərir. Buxvalter və Rokfeylin səfəri məhz bu prosesin konkret başlanğıc nöqtəsi kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə Fransanın yüksək vəzifəli nümayəndələrinin Bakıya səfəri bir diplomatik protokol deyil, yeni siyasi mərhələnin başlanğıcının göstəricisidir. Bu, Parisin "münasibətləri bərpa etmək istəmirik" ritorikasından "birgə əməkdaşlıq imkanlarını müzakirə edirik" reallığına keçididir. Azərbaycan isə bu prosesi təmkinlə, öz şərtləri daxilində idarə edir. Beləliklə, Buxvalter–Rokfeyl səfəri Azərbaycan–Fransa münasibətlərində gərginliyin azalması və dialoqun bərpa olunmasının praktik təsdiqi kimi tarixə düşəcək.

***S.HƏMİD***
***XQ***

# Mərkəzi Asiya geosiyasi yenilənmə yolunda

## *Azərbaycan bu prosesə qardaşlıq töhfəsi verir*

**Bu gün Ağ Evdə keçiriləcək "C5+1" sammiti beynəlxalq güc balansının dəyişdiyi bir dövrdə yeni Avrasiya strategiyasının başlanğıcı ola bilər. ABŞ Prezidenti Donald Trampın Mərkəzi Asiyanın 5 ölkəsinin – Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan liderlərini Vaşinqtona dəvət etməsi ABŞ-ın uzun müddətdən sonra regiona sistemli şəkildə qayıtmaq niyyətinin rəsmi təsdiqidir.**

"C5+1" formatı 2015-ci ildə Dövlət katibi Con Kerri tərəfindən Mərkəzi Asiya ilə ABŞ arasında əməkdaşlığın institusional çərçivəsi kimi yaradılmışdı. Amma illər ərzində bu platforma daha çox deklarativ xarakter daşıyırdı – real iqtisadi və siyasi təsir mexanizmləri formalaşmamışdı. İndi isə vəziyyət dəyişib. Rusiyanın Ukraynaya qarşı müharibəsi, Çinin "Bir kəmər, bir yol" layihəsi ilə Avrasiya məkanında artan nüfuzu, həmçinin Avropa İttifaqının regionda artan iqtisadi fəallığı ABŞ-ı hərəkətə gətirib. Tramp administrasiyası başa düşür ki, Mərkəzi Asiyada boşluq qalarsa, onu ya Moskva, ya da Pekin dolduracaq.

Sammitin diqqətəlayiq cəhəti ondan ibarətdir ki, Vaşinqton artıq Mərkəzi Asiyanı geosiyasi körpü kimi görür. Region həm Rusiya ilə Çin arasında yerləşən "tampon zona", həm də Avropa ilə Asiya



arasındakı logistika və resurs təchizatı zəncirinin həlqəsidir. ABŞ üçün əsas məqsəd burada Avrasiya yeni arteriyalarının istiqamətinə təsir imkanlarını gücləndirməkdir.

Siyasi-analitik sual yaranır: ABŞ-ın bu yeni diqqəti keçici taktiki addımdır, yoxsa strateji dönüş nöqtəsi? Tramp administrasiyasının davranış fəlsəfəsi əsasən "iqtisadi milli maraq" prinsipi üzərində qurulub. Bu o deməkdir ki, Vaşinqton regiona demokratiya və dəyərlər ixrac etmək niyyətində deyil – onun əsas məqsədi strateji resurslara çıxış, nəqliyyat marşrutlarının nəzarəti və Rusiya–Çin tandeminə balans yaratmaqdır.

Mövcud mənzərədə Mərkəzi Asiya yeni geosiyasi oyun meydanına çevrilir. Qərbin regionda fəallaşması ilə Moskva və Pekin öz təsir sahələrini qorumağa çalışır, Avropa İttifaqı isə "yumşaq güc" vasitəsilə yeni əməkdaşlıq kanalları qurur. Belə bir mürəkkəb balansda ABŞ-ın "C5+1" formatını bərpa etməsi həm strateji çeviklik, həm də riskli təşəbbüsdür.

Amma ən maraqlı məqam hələ irəlidədir. Bu sammitdə Azərbaycanın adı çəkilmir. Formal olaraq bu, Mərkəzi Asiya ölkələrinin formatıdır. Amma reallıqda sual açıq qalır: Mərkəzi Asiyada real əməkdaşlıq Azərbaycansız nə qədər effektiv ola bilər? Azərbaycan nə coğrafi, nə siyasi, nə də iqtisadi mənada bu prosesdən kənarda deyil. Əksinə, Bakı Xəzər hövzəsinin qərb sahilində yerləşən və Mərkəzi Asiyanı Avropaya birləşdirən əsas tranzit qovşaqdır. Bu fakt Vaşinqtonun və regional paytaxtların diqqətindən yayınmır.

Elə buna görə də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin son bəyanatı – "Azərbaycanın bu vacib forumda iştirakı arzuolunandır" – reallığın siyasi etirafıdır. Tokayev anlayır ki, Mərkəzi Asiyanın enerji, nəqliyyat və təhlükəsizlik sistemləri Azərbaycanın iştirakı olmadan tam funksional ola bilməz.

*

Mərkəzi Asiya və Qafqaz arasında sərhədlər xəritə üzərində kəskin görünə bilər, amma reallıqda iqtisadi və geosiyasi məkan baxımından bu iki region bir-birinə sıx bağlıdır. Azərbaycan bu bağlılığın canlı simvoludur. Bakı əsrlər boyu Şərq ilə Qərb arasında strateji körpü rolunu oynayıb, lakin XXI əsrin geosiyasi mənzərəsində bu körpü metaforası artıq konkret infrastruktur və enerji arteriyaları şəklində reallığa çevrilib. Bu gün Azərbaycan Orta Dəhlizin mərkəzi halqasıdır. Çin və Mərkəzi Asiya ölkələrinin istehsal və resurs potensialını Qara dəniz və Aralıq dənizi limanlarına, oradan isə Avropaya birləşdirən bu dəhliz Avrasiya məkanında yeni geosiyasi arxitekturanın əsas sütunlarından biridir. Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və gələcəkdə tam funksional olacaq Zəngəzur dəhlizi (TRIPP) bu sistemin fiziki dayaq nöqtələridir.

Mərkəzi Asiyanın istənilən ölkəsi Avropaya çıxış üçün Azərbaycan infrastrukturundan keçməyə məcburdur. Bəs nə üçün belə reallıq fonunda ABŞ və bəzi Mərkəzi Asiya ölkələri Azərbaycanı hələ də "kənar müşahidəçi" mövqeyində saxlayır? Bu paradoksun cavabı bir neçə səviyyədədir.



Birincisi, tarixi-institusional çərçivə. "C5+1" formatı 2015-ci ildə ABŞ Dövlət Departamenti tərəfindən sırf Mərkəzi Asiyanın 5 postsovet ölkəsini əhatə edən mexanizm kimi qurulub. Lakin həmin dövrdə Vaşinqton bu bölgələr arasında sərt fərq qoymaqla özünü rahat hiss edirdi, çünki Rusiya ilə münasibətləri nisbətən sabit idi. Çin hələ tam iqtisadi dominantlığa çatmamış və enerji təhlükəsizliyi gündəmin birinci sırasına qalxmamışdı.

İkincisi, coğrafi təsnifatın siyasi nəticələri. Azərbaycan formal olaraq Cənubi Qafqaz regionunda yerləşdiyi üçün bəzi qərb institutları onu Mərkəzi Asiya formatlarına daxil etməyi "qeyri-adi" sayır. Amma bu, artıq köhnəlmiş yanaşmadır. Çünki XXI əsrin coğrafiyası artıq siyasi sərhədlərlə deyil, marşrutlarla, dəhlizlərlə və enerji arteriyaları ilə ölçülür.

Tokayevin çağırışının arxasında həm iqtisadi məntiq, həm də strateji uzaqgörənlik dayanır. Qazaxıstan üçün Bakı Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün Qərbə çıxışı üçün alternativ və təhlükəsiz marşrutdur. Rusiya üzərindən keçən yollar sanksiya və siyasi gərginliklər səbəbindən risklidir. İran üzərindən tranzit etibarlı sayılmır. Belə bir vəziyyətdə Azərbaycan sabit, beynəlxalq etimad qazanan, həm Qərblə, həm də regionla balanslı siyasət quran ölkə kimi Qazaxıstanın strateji seçimidir.

*

Bəs ABŞ üçün Azərbaycan nəyə görə vacibdir? Vaşinqton uzun müddət regiondakı geosiyasi dinamikanı daha çox Rusiya və Avropa İttifaqı vasitəsilə izləyirdi. Lakin Ukrayna müharibəsi, Rusiya üzərində sanksiyalar, həmçinin Çinlə rəqabətin qlobal miqyasda kəskinləşməsi fonunda Qafqaz artıq ABŞ üçün geostrateji "körpü məkanı"na çevrilib. Azərbaycan Vaşinqton üçün üç əsas istiqamətdə vacibdir:

Birincisi, enerji təhlükəsizliyi baxımından. Avropa enerji bazarında Rusiya asılılığının azaldılması ABŞ-ın prioritetlərindən biridir. Azərbaycanın enerji infrastrukturu və ixrac potensialı – xüsusilə Cənub Qaz Dəhlizi, TAP və TANAP kəmərləri – Qərbin enerji təhlükəsizliyinin mühüm dayağına çevrilib. Bakı həm Avropanın enerji balansında sabitlik yaradır, həm də ABŞ-ın müttəfiqləri üçün strateji alternativ rolunu oynayır.

İkincisi, geosiyasi tranzit və logistik baxımdan. ABŞ artıq anlayır ki, Orta Dəhliz (Transxəzər marşrutu) Çindən Avropaya gedən yüklər üçün Rusiya və İran marşrutlarına real alternativdir. Vaşinqton üçün Bakı Çin və Rusiya təsirindən kənar, sabit və Qərblə əməkdaşlığa açıq tranzit koridorunun təminatçısıdır.

Üçüncüsü, diplomatik balans və regional sabitlik baxımından. Azərbaycan həm Türkiyə, həm də İsraillə strateji tərəfdaşdır, eyni zamanda, Qərb və Rusiya arasında nisbi balans siyasəti yürüdür. ABŞ üçün belə bir tərəfdaş həm Cənubi Qafqazda sabitliyi qorumaq, həm də İranla bağlı riskləri minimuma endirmək baxımından dəyərlidir.

Bu çərçivədə ABŞ ekspert dairələrində "C3+1" formatı – yeni Azərbaycan, Gürcüstan, Ermənistan və ABŞ arasında əməkdaşlıq platforması – gündəmə gətirilib. Bu təşəbbüs hələ rəsmi səviyyədə elan olunmasa da, onun konturları artıq Vaşinqtonun Qafqaz siyasətində yeni yanaşma kimi formalaşır. Maraqlıdır ki, "C5+1" və "C3+1" formatları bir-birini tamamlayacaq, yoxsa Vaşinqton iki paralel marşrutla fərqli geosiyasi məqsədlər güdür?" Görünən budur ki, ABŞ bu iki platformanı birləşən, lakin fərqli vektorlar üzrə işləyən mexanizmlər kimi nəzərdə tutur. "C5+1" formatı – Mərkəzi Asiya ölkələri ilə enerji, təhlükəsizlik və terrorla mübarizə sahələrində əməkdaşlığa yönəlib. "C3+1" isə – Cənubi Qafqazda diplomatik dialoq, nəqliyyat əlaqələri və Qərb inteqrasiyasının təşviqinə xidmət edir. Nəticə etibarilə, Azərbaycan Vaşinqtonun yeni Avrasiya strategiyasının "geosiyasi qovşağı" rolunu oynayır.

Hazırkı şəraitdə Azərbaycanın "C5+1" formatına daxil olması artıq regional reallığın diktə etdiyi zərurət kimi görünür. Məhz bu səbəbdən Tokayevin irəli sürdüyü "C6+1" modeli tədricən siyasi ideyadan real diplomatik gündəliyə çevrilmək potensialına malikdir.

Hazırda Mərkəzi Asiya uğrunda geosiyasi rəqabət dörd güc mərkəzi — Rusiya, Çin, ABŞ və Avropa İttifaqı — arasında getdikcə dərinləşir. Lakin bu yarışda diqqətdən kənarda qalan əsas məqam odur ki, Azərbaycan artıq bu rəqabətin subyektinə çevrilib. Bakı həm Cənubi Qafqazla Mərkəzi Asiyanı birləşdirən logistik körpü, həm enerji resurslarının Qərbə çıxış qapısı, həm də Türk dünyasının Qərbə inteqrasiya dayağı rolunu oynayır. Azərbaycanın iştirakı olmadan nə Orta Dəhliz, nə də Avrasiya enerji marşrutu tam reallaşa bilər.

Azərbaycanın bu strukturda iştirakı regionun həm iqtisadi inteqrasiyasını, həm də təhlükəsizlik sabitliyini möhkəmləndirəcək. Burada əsas sual budur: ABŞ bu dəfə regionda müttəfiqlərini seçərkən reallığı, yəni Azərbaycanın əvəzolunmaz rolunu nəzərə alacaqmı? Cavabı zaman göstərəcək. Amma artıq bir həqiqət aydındır: Mərkəzi Asiyada əməkdaşlıq Azərbaycanın iştirakı olmadan tam və davamlı ola bilməz. Yeni Avrasiya nizamının təməl bəndlərindən biri məhz Bakıdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Azərbaycan Prezidenti İlham Əliyevin AMEA-nın 80 illiyi ilə bağlı keçirilən mərasimdəki çıxışında yer alan bəzi məqamlar erməni cəmiyyətində rezonans doğurub. Dövlət başçımızın xüsusilə azərbaycanlıların tarixi ata-baba torpaqlarına qayıdışı, Sevan deyil, Göyçə gölünə tanklarla deyil, avtomobillərlə gedəcəyimiz barədə dedikləri çeşidli reaksiyalara səbəb olub. Xüsusilə revanşist-daşnak psixologiyasından əl çəkə bilməyən hay "politoloqları", bloqerlər İlham Əliyevin dediklərinin altından ərazi iddiası, yeni müharibəyə hazırlıq, sülh prosesini əngəlləmək kimi saxta tezislər axtarışına başlayıblar.**

# Siyasi deformasiya

## *Mülki avtomobili müharibə atributu kimi görənlərin menyusuna*



Onların əsl niyyət və məqsədləri Azərbaycan rəhbərliyinin açıqlamaları bağlı deyil, Ermənistanda hakimiyyət dəyişikliyi kampaniyaları bu cür işə yaramayan və faydasız siyasi gedişlərlə "güclərdirmək-dir". Digər tərəfdən, hərb və sülh barədə təsəvvürləri deformasiyaya uğramış bu qüvvələr özləri də yaxşı bilirlər ki, soydaşlarımız ərazisində yaşadıqları ölkələrin iqtisadiyyatına, mədəniyyətinə yalnız töhfələr veriblər. Azərbaycanlılar nə həmin dövlətlər, nə də başqa xalqlar üçün problem yaradıblar. Çünki "miatsum" tiryəkinin təsirindən ayıla bilməyən haylardan fərqli olaraq, azərbaycanlılar separatizm, daşnakizm kimi xəstəliklərə tutulmayıblar. Prezidentimizin dediyi kimi: "buna görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq".

Deməli, "baqramyan 26" instagram sosial şəbəkəsində Ermənistan Baş nazirinin jurnalistin sualına cavabı yerləşdirilib. Sual belə qoyulub: "Ermənistan hakimiyyəti açıq kommunikasiyalara malik sülh bölgəsi proqnozlaşdırdığı və beynəlxalq tərəfdaşları cəlb etməyə çalışdığı bir vaxtda Azərbaycan Prezidenti Vaşinqton razılaşmalarının sülhsevər ruhuna zidd bəyanatlar verir. İlham Əliyevin Sevan gölünə qeyri-erməni adı ilə müraciət edərək azərbaycanlıların qayıdışından danışmasını necə şərh edirsiniz? Bu bəyanatı sülh prosesindən geri çəkilmə hesab etmək olarmı?".

Baş nazir Nikol Paşinyan kiçik pauzadan sonra sualı cavablandırıb: Sualınız məni çox çətin vəziyyətdə qoyur. Niyə? Çünki indi mən seçim qarşısındayam: sualınıza cavab verməzdən əvvəl vurğulayım ki, Azərbaycan Prezidenti ilə bağlı sitatınız bütün mənzərəni əks etdirmir. Çünki Azərbaycan Prezidenti deyib ki, Rusiya imperiyasının xəritələrinə baxanda Sevan gölü yox, başqa adı olan göl var. Əgər mən belə etsəydim və belə desəm, onda sizin sualınıza cavab vermək əvəzinə, ilk növbədə Azərbaycan Prezidentinin dediklərinə aydınlıq gətirməliyəm.

Amma mən artıq bu suala cavab vermişəm. Çar Rusiyasının xəritələrinə baxacağıqsa... İndi gəlin o xəritələrə baxaq... Bu barədə əvvəllər danışanda Kirovakan və Kirovabadın adını çəkmişəm, amma Yelizavetpol və Aleksandropolun adını çəkməmişəm... Yəni seçim etmək lazımdır".

Görünən odur ki, Paşinyan daxili auditoriyaya hesablanmış cavab variantını ortaya qoyur. Onun məntiqindən belə çıxır ki, guya, Ermənistanın da Azərbaycanda iddia edə biləcəyi ərazilər, kəndlər, şəhərlər var.

Daha sonra cavabını tarixi yöndən sanbala salmaq, daha da "möhkəmləndirmək" üçün nə vaxtsa haradasa Ermənistan və Azərbaycan nümayəndələri arasında baş vermiş qəribə bir insidenti xatırladıb: "Müzakirələr zamanı tərəflərdən biri öz siyasi bilirdinizmi ki, bizim dildə "zəng" (zəng) nə deməkdir? Qarşı tərəf cavab verib: "Bəs siz bilirdinizmi ki, bizim dildə "zənq" həm də "zəng" (zəng) deməkdir? Və sonra məlum oldu ki, "Zəng" fars dilində "zəng vurmaq" deməkdir. Bəs indi tarixi həqiqət kimə məxsusdur? Təsəvvür edirsinizmi, yunanlar Makedoniyalı İskəndəri xatırlamağa başlayacaqlarmı? Bəs İtaliyalı tərəfdaşlarımız olan Roma haqqında nə demək olar? Axırımız hara olacaq?".

İki gün əvvəl İrəvanda keçirilən beynəlxalq forumda olduğu kimi, Paşinyan bu dəfə də reallığı danmaq, faktları təhrif etmək, daxili və xarici auditoriyanın gözündə özünün "qətiyyətli siyasi lider" obrazını nümayiş etdirmək yolunu tutub. Doğrudur, o, jurnalistin növbəti sualını gözləmədən mövqeyini yumşaltmağa çalışıb: "Yenə deyirəm, biz tarixi oxuyuruq, amma artıq yeni tarix yaratmışıq. Son iki il də yeni tarixdir və mən inanıram ki, biz bu tarixi yaratmağa davam etməliyik. Keçmişi gələcəkdən ayırmağı bacarmalıyıq və gələcək artıq buradadır. Artıq iki ildir ki, gələcəkdə yaşayırıq və seçim etməliyik. Gələcəkdə yaşamağa davam edəcəyik: bu bizim strategiyamızdır...".

Bəli, Azərbaycan Prezidenti bizim Göyçə gölünə zirehli texnikanın, tankların üstündə deyil, mülki minik avtomobillərinin salonunda gedəcəyimiz günlərin uzaqda olmadığını deyərkən XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmağı da tövsiyə edib: "Hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir".

Bu dəmir arqumentin qarşısında Ermənistanın Baş naziri kimi, onun daxili və xarici rəqiblərinin də deməyə sözlər ola bilməz.

***İmran BƏDİRXANLI***
***XQ***

***Ekspert rəyi***



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Azərbaycan Prezidenti bütün çıxış və müraciətlərində yalnız elmi əsasları olan arqumentlərə, faktlara söykənir. Təbii ki, bu reallıq Ermənistandakı müəyyən dairələr tərəfindən qıcıqla qarşılanır. Əslində, Nikol Paşinyan suala cavabında haqlıdır. Dövlətimizin başçısı Çar Rusiyası dövrünə aid xəritələrə istinad edərək bildirdi ki, o zaman ruslar tarixi adları dəyişərək Azərbaycan toponimikasına ciddi zərbə vurdular. Reallıq məhz bundan ibarətdir. Amma Paşinyana həmin sualı verən erməni jurnalist baxsın və görsün ki, Qərbi Zəngəzurdakı şəhərlərin adları hansı dilə tərcümə olunub? Fransız, ingilis, yoxsa erməni dilinə? Ağdamın, Kəlbəcərin, Laçının adlarını dəyişməklə təxribat törədən haylar bunların təsadüf olmadığını da yaxşı bilirlər.

Aydın məsələdir ki, Ermənistandakı radikal-revanşist qüvvələr hələ də suyu bulandırmağa cəhd göstərirlər. İki ölkə arasında münasibətlərin normallaşmasını, sülh prosesinin sona yaxınlaşdığını görən bu qüvvələr məhz ideoloji təxribatlar barədə düşünürlər. Mən şübhə etmirəm ki, sülh üçün belə həlledici mərhələdə onlar başqa xarakterli təxribatlara da baş vuracaqlar. Küçə yürüşlərinin, mitinqlərin, hakimiyyətə qarşı etiraz çıxışlarının da şahidi olacağıq. Məqsədləri isə aydındır – hakimiyyətə ələ keçirmək.

Əgər Nikol Paşinyan reallığı düzgün təhlil edirsə yəqin başa düşür ki, sülhə gəlməkdən başqa yolu yoxdur və gec-tez Azərbaycanla münasibətləri bərpa etməli olacaq. Bizim bu yolda atacağımız addımlar qarşılıqlı xarakter daşıyacaq. Son nəticə isə həmin təxribatçılara dərs olmalıdır.

***Ekspert rəyi***



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

Görünən odur ki, tərəfləri hər birinin özünün məlumat bazası var. Azərbaycfanın bazası möhkəm və tarixdə təsdiqini tapmış əsaslı bazadır. Amma ermənilərin belə bazası yoxdur. Onlar efemer, yüngülçəkili və elmi cəhətdən tez dağıla bilən bazaya malikdirlər. Biz ermnilər Qarabağdan qovmamışıq. Fikir verin, Azərbaycan Prezidentinin Elmlər Akademiyasındakı çıxışından dərhal sonra Nikol Pşinyan dedi ki, ermənilərin Qarabağa qayıdışının əleyhinəyik, çünki bu, vəziyyəti gərginləşdirə, müəyyən problemlər yarada bilər. Bu, qabaqdangəlməklik jestinə bənzəyir. Bəli, Prezident bir daha xatırlatdı ki, Azərbaycanlılar o torpaqlarda yaşayıb və biz ora mütləq qayıtmalıyıq, amma Ermənistanın ərazi bütövlüyünə heç bir iddiamız yoxdur. Yəni, sizdən fərqli olaraq, ərazi istəmirik. Sadəcə, yurdlarından zorla çıxarılanlar Ermənistan həyatına inteqrasiya olmaq, oranın vətəndaşlıqlarını bərpa etmək istəyirlər. Dərinə getsək, hayların əvvəlki iki prezidenti – Robert Koçaryan və Serj Sarkisyan da Azərbaycan vətəndaşlarıdır. Separatçılıq və quldurluqla hakimiyyəti ələ keçirmişdilər.

Azərbaycan hazırda dünya birliyinə göstərməyə çalışır ki, biz sülhün tərəfdarıyıq. Əlbəttə ki, hər iki milləti sülh şəraitində yaşamağa hazırlamaq lazımdır. Bakı bunu edir, amma Ermənistandakı revanşistlər buna imkan vermək istəmirlər. Təəssüf ki, Paşinyan da hərdən onların arqumentləri ilə danışır. Eyni zamanda, İrəvana kənardan təzyiqlərin edildiyini də görürük. Heç nəyə nail ola bilməyəcəklər. Çünki bütün sağlam qüvvələr Azərbaycanın tərəfindədirlər. Bəli, hazırda Azərbaycan tarixinin işıqlı, Ermənistan isə dumanlı və qaranlıq səhifəsini yaşayır. Belə güman edirəm ki, Nikol Paşinyan düzgün variantı seçəcək.

# "İki həftəyə atom bombası hazırlaya bilərik" hədə-qorxusu

## *Tehranın növbəti addımı müharibəyə, yoxsa dialoqa səbəb olacaq?*

**Hərbi zərbələr bəzən problemi həll etmir, sadəcə, onu görünməzə çevirir. Alovu söndürür, lakin külün altındakı közü qoruyub saxlayır. Bu yaxınlarda ABŞ-nin İranın nüvə obyektlərinə endirdiyi və Prezident Tramp tərəfindən "təsirli hərbi uğur" kimi təqdim edilən "Gecə yarısı zərbəsi" əməliyyatından sonra yaranan sükut aldadıcı sakitlik idi. İndi isə həmin külün altından qalxan tüstü bütün Yaxın Şərqin səmasını yenidən bürüməyə başlayıb.**



İslam Respublikası Ali Liderinin müşaviri Cavad Laricaninin İranın iki həftədən az müddətdə atom bombası yarada biləcəyi barədəki bəyanatı ritorik atışma mənası daşımır. Bu, Vaşinqtonun endirdiyi "çəkic" zərbəsinin İranın nüvə iradəsini sındırmadığını, əksinə, onu daha da cəsarətləndirərək strateji qeyri-müəyyənlik pərdəsini kənara atmaqa vadar etdiyini göstərən cavab notasıdır. Laricaninin bəyanatının hər bir cümləsi İranın onilliklər boyu formalaşdırdığı strateji qeyri-müəyyənlik doktrinasının klassik nümunəsidir. Bir tərəfdən o, ölkəsinin texniki imkanlarını bütün dünyaya bəyan edir: "Ölkə iki həftədən az müddətdə atom bombasına sahib ola bilər". Bu cümlə ABŞ və İsrailin hərbi zərbələrinin İranın nüvə proqramının beynini elmi potensialını və texnoloji bacarıqlarını məhv edə bilmədiyinin açıq etirafıdır. Yəni, dağıdılan zavodları yenidən tikmək olar, lakin alimlərin beynindəki biliyi bombalamaq mümkün deyil.

Bu, Tehranın Vaşinqtona göndərdiyi mesajıdır: "Sizin çəkiciniz bizim infrastrukturumuzu əzə bilər, lakin iradəmizi və qabiliyyətimizi qıra bilmədi".

Eyni zamanda, Laricani dərhal əlavə edir: "...Lakin biz dinimizə sadiqik". O, Ali lider Ayətullah Xameneinin kütləvi qırğın silahlarının yaradılmasını və istifadəsini qadağan edən məşhur fətvasına istinad edərək İranın hələlik bu yola getmək niyyətində olmadığını vurğulayır. Həmin ifadə fars hüququndakı dərin kökləri ilə Tehranın diplomatiyasında uzun illərdir həm müdafiə qalxanı, həm də mənəvi üstünlük arqumenti rolunu oynayıb. Bu isə yanaşma bir tərəfdən texniki qabiliyyətin nümayişi, digər tərəfdən dini və mənəvi məhdudiyyətlərin vurğulanması Tehranın əsl məqsədini ortaya qoyur. Laricaninin nüvə potensialının genişləndirilməsini çəkindirici amil kimi görməsi, məhz həmin strategiyanın etirafıdır.

Bu, ilk belə bəyanat deyil. Hələ aprel ayında iyun müharibəsindən əvvəl, Ali liderin digər müşaviri və parlamentin sabiq sədri Əli Laricani İran dövlət televiziyasına müsahibəsində oxşar fikir səsləndirmişdi. O demişdi ki, əgər ABŞ tərəfindən birbaşa hücum olarsa, İranın nüvə silahı yaratmaqdan başqa çıxış yolu qalmayacaq. Əli Laricaninin bəyanatı "qırmızı xətt" cızmaq cəhdi idi. Cavad Laricaninin indiki bəyanatı isə artıq həmin xəttin keçildiyi reallıqda səslənir. Bu, artıq post-faktum qiymətləndirmədir. Tehran demək istəyir ki, ABŞ hücum etdi və bununla da İranın əl-qolunu açdı. İndi fətvaya sadiqlik, sadəcə, Tehranın xoş məramından asılıdır və hər an dəyişə bilər. Bu, danışıqlar masasında İranın mövqeyini gücləndirən, qarşı tərəfi daha böyük güzəştlərə məcbur etməyə yönəlik riskli diplomatik gedişdir.

Hadisələrin bu həddə gəlib çatmasının səbəbini anlamaq üçün iyun ayında baş verən hadisələri bilmək zəruridir. 12 günlük İran–İsrail müharibəsi, regionda onsuz da mövcud olan bütün gərginlikləri partlama həddinə çatdırdı. Həmin münaqişənin detalları tam açıqlanmasa da, aydın olan odur ki, müharibənin uzanması və potensial olaraq bütün Yaxın Şərqi əhatə etməsi riski Vaşinqtonu birbaşa müdaxiləyə məcbur etdi. İyunun 22-də ABŞ-nin Hərbi-Hava və Hərbi-Dəniz Qüvvələri "Midnight Hammer" əməliyyatına başlayaraq İran ərazisinə birbaşa zərbələr endirdilər. ABŞ prezidenti Donald Trampın əməliyyatı şəxsən elan etməsi və detallarını açıqlaması Vaşinqtonun bu addımı nə qədər ciddiyə aldığını göstərirdi. Tramp bəyan etdi ki, Amerika aviasiyası İranın nüvə proqramına aid üç əsas obyektə dağların dərinliyində yerləşən Fordo, uranın zənginləşdirilməsi üzrə əsas mərkəz olan Natanz və nüvə yanacağı istehsalında mühüm rol oynayan İsfahan komplekslərinə uğurlu zərbələr endirib. O, "Truth Social" sosial şəbəkəsindəki paylaşımında daha da irəli gedərək yazdı: "İranın uranın zənginləşdirilməsi üzrə ən iri zavodları tamamilə məhv edildi."

Daha sonra xalqa müraciətində Tramp bu əməliyyatı "təsirli hərbi uğur" adlandıraraq hər üç obyektin "tamamilə məhv edildiyini" və "terrorun əsas sponsoru" olan ölkədən gələn nüvə təhlükəsinin aradan qaldırıldığını bildirdi. Vaşinqton demək istəyirdi ki, o, öz hədəflərinə çatıb və müharibənin davam etməsində maraqlı deyil.

Ancaq məhz Trampın "tamamilə məhv edildi" ifadəsi bu gün Cavad Laricaninin bəyanatına zəmin yaradan əsas amildir. Hərbi ekspertlər o zaman da şübhə ilə yanaşırdılar ki, hava zərbələri ilə, xüsusən Fordo kimi dərinliklərdə yerləşən bir obyekti tamamilə məhv etmək praktiki olaraq mümkün deyil. Zərbələr infrastruktura ciddi ziyan vura, sentrifuqaları (maye və ya qaz qarışıqlarını onların sıxlığına görə ayırmaq üçün istifadə olunan cihazlardır) sıradan çıxara və proqramı illərlə geri ata bilər, lakin İranın elmi-texniki potensialını sıfırlaya bilməzdi. İndi Tehran Trampın həmin maksimalist bəyanatından istifadə edərək ABŞ-nin əməliyyatının əslində uğursuz olduğunu və ya ən azından gözlənilən nəticəni vermədiyini iddia etmək üçün mənəvi haqq qazanmış olur.

Bu mürəkkəb prosesdə İranın daxilində cərəyan edən prosesləri də nəzərdən qaçırmaq olmaz. Laricani kimi liderlərin barışmaz bəyanatları İran siyasi elitasının yalnız bir qanadını təmsil edir. Prezident Məsud Pezeşkian administrasiyasının daha barışdırıcı siqnalları və diplomatik həll yollarına üstünlük verməsi fonunda, Laricaninin çıxışı həm də daxili güc mübarizəsinin bir təzahürü kimi oxuna bilər. İnqilab Keşikçiləri Korpusu və ona yaxın olan mühafizəkar dairələr ABŞ ilə hər hansı bir güzəştə getməyin əleyhinədir və onlar nüvə proqramını rejimin təhlükəsizliyinin yeganə qarantı kimi görürlər. Onlar bu cür sərt bəyanatlarla həm ABŞ-yə xəbərdarlıq edir, həm də Pezeşkian hökumətinin manevr imkanlarını məhdudlaşdırmağa çalışırlar. Məsud Pezeşkian isə iqtisadi sanksiyaların ağır yükü altında əzilən ölkəni bu izolyasiyadan çıxarmaq üçün Qərblə yeni dialoq başlatmağın yollarını axtarır. Bu, Tehranın siyasətindəki ənənəvi ikiliyi bir tərəfdən prinsipial müqavimət ritorikası, digər tərəfdən isə praqmatik həll axtarışını bir daha nümayiş etdirir. Bu baxımdan, Laricaninin sözləri İranın yekun qərarı yox, daxildə gedən mürəkkəb müzakirələrin su üzünə çıxan bir parçasıdır.

Yaxın Şərq yenidən son dərəcə təhlükəli mərhələyə qədəm qoyur. "Gecə yarısı çəkici" əməliyyatı problemi həll etmədi, sadəcə onu bir müddətlik dondurdu və indi problem daha kəskin formada geri qayıdır. Hər iki tərəf özünü müəyyən mənada haqlı sayır. Vaşinqton İranın nüvə proqramının hərbi yolla cilovlandığını və təhlükənin aradan qaldırıldığını düşünür. Tehran isə birbaşa hərbi təcavüzə məruz qaldığını, lakin buna baxmayaraq nüvə qabiliyyətini qoruyub saxladığını və indi daha güclü çəkindirmə amilinə malik olduğunu iddia edir.

Qarşıdakı aylar həlledici olacaq. Cavad Laricaninin bəyanatı ya yeni və daha dağıdıcı hərbi eskalasiyanın başlanğıcı olacaq, ya da tərəfləri reallığı qəbul edərək, yeni diplomatik prosesə başlamağa məcbur edəcək. Hərbi zərbələrin problemi kökündən həll etmədiyi artıq aydındır. Yeganə çıxış yolu İranın təhlükəsizlik narahatlıqlarını nəzərə alan, eyni zamanda onun nüvə proqramı üzərində sərt və şəffaf beynəlxalq nəzarəti təmin edən hərtərəfli sazişin hazırlanmasıdır. Prezident Pezeşkian administrasiyasının mövcudluğu bu dialoq üçün fürsət pəncərəsi açıq bilər.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan Prezidentinin elmə qayğısı və baxışları



II MƏQALƏ

### Elm siyasətinin “qızıl üçbucağı”

Azərbaycan Prezidentinin AMEA-nın 80 illik yubiley tədbirindəki nitqinin konseptual səviyyədə mənaları çox dərindir. Etiraf edək ki, hər lider elmlə bağlı konseptual xarakterli strateji məsələləri tam aydın müəyyən edə bilmir. İlham Əliyevin nitqində isə elm siyasətinin cari və strateji aspektləri sintez şəklində və dəqiq hədəflərin göstərilməsi xarakterizə olunur. Burada elmi intellekt üçün cəlbedici olan təməl tezislərin dərk edilməsi olduqca vacibdir. Çünki bu olmadıqda elmi təşkilat və elm adamları bütöv mənzərənin nə məntiqini tuta, nə də gerçək vəziyyəti qiymətləndirə bilərlər.

Bu yanaşma kontekstində Prezident İlham Əliyevin elm siyasətinin, şərti adlandırdığımız “qızıl konseptual üçbucağı” haqqında danışa bilərik. Onlar aşağıdakılardır: yeniləşən dünya, yeniləşən Azərbaycan və yeniləşən elm! Bu üç ifadənin semantik, nəzəri və praktiki cəhətlərinin qarşılıqlı münasibətləri mükəmməl konseptual sistem yaradır. Tezisin detallarına varmaq üçün dövlət başçısının nitqinin bir sıra fraqmentlərinə baxaq.

### Dünya konteksti

Azərbaycan lideri nitqində dünya, Azərbaycan və elmin qarşılıqlı münasibətləri kontekstində aşağıdakı məqamları xüsusi vurğulamışdır.

Birincisi, dünya: “Mən 10 il bundan əvvəl - Akademiyanın 70 illiyində bax bu salonda alimlər qarşısında çıxış etmişdim və çalışırdım ki, bu 10 il ərzində ölkə qarşısında duran bütün başqa vəzifələrlə yanaşı, elmin inkişafına da öz dəstəyimi göstərim. Bu gün bəzi fikirlərimi sizinlə bölüşmək istəyirəm. Çünki son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklər baş vermişdir. Dünya iqtisadiyyatı tamamilə dəyişmiş, dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir”.

### Azərbaycan reallığı

İkincisi, Azərbaycan: “Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir... Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır”.

Buradan dövlət başçısı çox mühüm strateji xarakterli nəticə çıxarır və onu aşağıdakı kimi ifadə edir: “Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik. Ona görə təbii ki, illər keçdikcə qarşıda duran vəzifələr də dəyişir”.

### Strateji konseptual qənaət

Azərbaycan lideri vurğulanan ciddi arqumentlər üzərində daha ümumi və əhatəli konseptual qənaət əldə edir: “Ona görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir. Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda, təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir. Bu gün biz bunu iqtisadi inkişafda görürük, yeni texnologiyaların tətbiqində görürük, yeni müharibələrdə görürük. Ona görə texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür”.

Diqqət etsək görərik ki, ölkə rəhbəri dünya miqyasında baş verən yeniliklərin çox yığcam tezis formasında əsas məqamlarını aydınlaşdırılmasından sonra, onun Azərbaycana mümkün təsirlərini daha geniş kontekstdə izah edir. Bu, həm alimlərə və bütövlükdə cəmiyyətə çağırışdır, mövcud vəziyyətin incəliklərinə qədər özəlliklərini anlatmaqdır, həm də qarşıya qoyulan vəzifədir. Konseptual səviyyədə müəyyən edilən ümumi mənzərəni və onun əsasında qarşıya qoyulan əsas vəzifələri dəqiq ifadə etməklə faktiki olaraq Azərbaycan elmi üçün strateji hədəflər müəyyən edilmişdir. Eyni zamanda, dövlət başçısı dərhal vurğulayır: “Təbii ki, Azərbaycan dövlətinin üzərinə böyük vəzifə düşür ki, biz bu texnoloji inkişafı bütün sahələrdə tətbiq edək və beləliklə, bizim inkişafımız dayanıqlı olsun”.

### İlham Əliyev elm siyasətində yeni intellektual situasiya yaradır

Belə alınır ki, Prezident İlham Əliyev elm siyasətində elm təşkilatları və yaradıcı insanlarla yanaşı dövlətin də məsuliyyəti məsələsini qoyur. Çox vacib nəzəri və praktiki məqamdır. Bütün sahələrdə olduğu kimi, İlham Əliyev elmdə də dövlətlə bu sahədə çalışanların tam birliyini yaratmaq xəttini seçmişdir. Obrazlı desək, dövlətlə yaradıcı kəsimin “dəmir yumruq” kimi birləşməsi Azərbaycanı ölkə olaraq yeni-yeni zirvələrə və qələbələrə çatdıracaqdır!

İlham Əliyevin bu siyasəti çox maraqlı və aktual yeni intellektual situasiya yaradır. Onun mahiyyəti yeniləşən dünyada yeniləşən ölkənin iqtidarı ilə elmi təsisatlar və yaradıcı insanlarının “intellektual vəhdəti”nə nail olmaqdan ibarətdir! Bu tezisin məna dərinliyinə varmaq üçün bir neçə məqama aydınlıq gətirmək gərəkdir.

### Prezidentin “intellektual vəhdət” anlayışı: semantik yanaşma

Özlüyündə nəzəri-konseptual və praktiki aspektləri ehtiva edən mürəkkəb strukturlu anlayışdır. Zahirən “intellektual vəhdət” sırf nəzəri anlam təsiri bağışlaya bilər, ancaq müasir dövr üçün onun tətbiqi potensialı müəyyən deyilsə, nəticəverici funksiyası ola bilməz. Buna görə də, dövlət siyasəti kontekstində “intellektual vəhdət” elmi-nəzəri anlamı ilə yanaşı, praktiki-tətbiqi potensialı da ifadə etməlidir.

Prezident İlham Əliyevin elm siyasətinin yeni mərhələdə zəka gücü məhz bu məqamla bağlıdır. Çünki Azərbaycan Prezidenti intellektual vəhdətin mərkəzi faktorunu dəqiq müəyyən etmişdir. O, aşağıdakı kimidir: qlobal miqyasda baş verən yeniləşmə çətiri altında Azərbaycan mütləq yeniləşməlidir və bu prosesin başlıca aparıcı gücü iqtidarla yaradıcı kəsimin (təsisatlar, institutlaşma + yaradıcı elmi kollektiv) “intellektual həmrəylik” əsasında, ümumiyyətlə, “intellektual vəhdət” təşkil etmələrindən ibarətdir!

Deməli, “intellektual vəhdət” anlayışının semantikasına (məna sahəsinə, məna çalarlarının sisteminə) düzgün yanaşma, bütövlükdə İlham Əliyevin Azərbaycanda elm siyasəti kontekstində yaratdığı “yeni intellektual situasiya sahəsi”ndə çalışmalıyıq! Həmin çalışma sahəsi (“feili zona”) həm də “intellektual həmrəyliyin” formalaşdığı “konseptual məkandır”.

Bunlarla yanaşı, İlham Əliyev ölkə miqyasında formalaşdırdığı yeni intellektual situasiyanın əsas özəlliyini də nitqində vurğulamışdır. O, Prezidentin nitqinin aşağıdakı hissəsində ifadə edilmişdir: “Artıq hər kəs görür və bilir ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir. Yəni təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır”.

### AMEA-nın tükənməz intellektual potensialı

Əlbəttə, Azərbaycan Prezidentinin elm siyasətinin konseptual özəllikləri illərdir ki, dövlət başçısının fəaliyyətində formalaşmışdır. İlham Əliyev bütövlükdə 2003-cü ildən bu yana zəngin və qiymətli təcrübə toplandığını haqlı olaraq vurğulamışdır (III Şuşa Qlobal Media Forumu: “əldə etdiyim çoxillik siyasi təcrübə” (İlham Əliyev). Bu müddətdə AMEA Prezidentin fəaliyyətini elmi araşdırmış və lazım olan nəticələri çıxarmışdır. Ancaq həmin istiqamətdə konseptual səviyyədə ilk dəfə 2022-ci ilin payızından sistemli araşdırmalar əsasında ölkənin baş elmi təşkilatı sistemli və davamlı addımlar atmışdır. Bu da faktiki olaraq dövlət başçısının yeni intellektual situasiya və intellektual vəhdət tezislərinə elmi reaksiyadır. Onun yığcam və bütöv ifadəsi təşkilatın yeniləşmə kursunun müddəaları, prinsipləri və prioritetlərində aydın ifadə edilmişdir. Bununla faktiki olaraq AMEA tükənməz intellektual potensialını bir daha ortaya qoymuşdur.

Prezident İlham Əliyevin yuxarıda vurğuladığımız tezisləri fonunda sonuncu fikrin əsaslı olduğunu təsdiq edən bir neçə məqama baxaq.

### Akademiyanın üç aspektdə fəaliyyəti

AMEA-nın Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf konsepsiyasının həyata keçirilməsində iştirakı təşkilatın üç aspektdə fəaliyyətinin qarşılıqlı əlaqəsi ilə müəyyən olunur. Onlar aşağıdakılardır.

Birincisi, Azərbaycanın baş elmi təşkilatı Prezident İlham Əliyevin müəyyən etdiyi yeni tarixi dövrün sosiohumanitar aspektdə geniş və dərin tədqiqini aparır. AMEA rəhbərliyi bu tədqiqlərin fəlsəfi, tarixi, sosioloji, kulturoloji, filoloji və ideoloji aspektləri əhatə etməsini ciddi vəzifə kimi alimlər qarşısında qoymuşdur.

İkincisi, AMEA ölkənin strateji inkişaf strategiyasının bütün istiqamətlər üzrə mütəmadi sosiohumanitar araşdırılmasını həyata keçirir. Bu, geniş və çoxşaxəli bir tədqiqat prosesidir. Özündə faktiki olaraq elmi fəaliyyətin təşkilini, AMEA daxilində tədqiqat institutlarının araşdırma istiqamətlərinin yeniləşdirilməsini və müxtəlif elmi təşkilatlarla AMEA-nın elmi əlaqələrini təkmilləşdirməklə müasir tələblərə uyğun səviyyəyə çatdırılmasını birləşdirir.

Üçüncüsü, AMEA strateji inkişaf konsepsiyası ilə bağlı əldə etdiyi elmi nailiyyətləri daim təkliflər paketi formasında rəsmi orqanlara təqdim edir.

Bu aspektlərin ümumi ruhundan belə alınır ki, AMEA faktiki olaraq yeniləşmiş formada elmi fəaliyyətin təşkili, tədqiqatların aparılması metodologiyası ilə alınan nəticələrin praktiki-tətbiqi istiqamətlərini sintez etməlidir. Burada başlıca məqsəd elmi-nəzəri aspektlə praktiki-tətbiqi aspektin optimal əlaqəsini təmin etməklə bağlıdır.

Əlbəttə, bunlar böyük zəhmət, təşkilatçılıq məharəti və yaradıcılıq tələb edən məsuliyyətli vəzifələrdir. AMEA rəhbərliyi onun öhdəsindən gəlmək üçün çox ciddi addımlar atır və onların uğurlu olduğuna şübhə yoxdur. Həmin amal naminə AMEA davamlı yeniləşmə prosesini aparır və bu əsasda özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Burada iki səviyyədə, lakin bir-biri ilə sıx əlaqədə iki istiqamət reallaşdırılır.

Birinci istiqamət AMEA rəhbərliyinin Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyasına uyğun olaraq təşkilatın yeniləşməsinin ümumi prinsiplərini müəyyən etməsi ilə bağlıdır.

İkinci istiqamət isə müəyyən edilən yeniləşmə prinsiplərinin praktiki-tətbiqi aspektdə həyata keçirilməsidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# “Zəfərin 5 ili: Dövlətçilik və hüququn qələbəsi”

**Zəngilan Konqres Mərkəzində Baş Prokurorluğun təşəbbüsü ilə “Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi” mövzusunda konfrans keçirilib.**

Baş prokuror Kamran Əliyev tədbiri giriş sözü ilə açaraq Zəfərin beşinci ildönümünün dərin mənəvi və tarixi əhəmiyyətindən danışıb. O, Azərbaycan xalqının bu möhtəşəm Qələbəni Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik kursuna, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasətinə, eləcə də xalq–ordu birliyinə borclu olduğunu vurğulayıb. Baş prokuror bildirib ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmaqla, beynəlxalq hüququn və ədalətin qələbəsini təmin edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində ərazi bütövlüyümüz bərpa olunub, dövlət suverenliyi tam təmin edilib. Kamran Əliyev həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın Vətən müharibəsi və sonrakı bərpa–quruculuq dövründə göstərdiyi humanitar və mənəvi liderlik fəaliyyətini qeyd edib. O, Birinci vitse-prezidentin qayğısı sayəsində şəhid ailələrinə, qazilərə və müharibədən zərər çəkmiş insanlara göstərilən dəstəyin dövlətimizin sosial ədalət siyasətinin bariz nümunəsi olduğunu bildirib.




Hərbi prokuror, Baş prokurorun müavini Bəhruz Əhmədov Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə hərbi prokurorluq orqanlarının həyata keçirdiyi hüquqi nəzarət tədbirlərindən danışıb, dövlətin müdafiə qabiliyyətinin və hərbi intizamın qorunmasında prokurorluğun mühüm rolunu qeyd edib.

Dövlət Sərhəd Xidmətinin Qubadlı Əlahiddə Sərhəd Diviziyasının komandiri Azad Abdullayev sərhəd təhlükəsizliyinin təminində əldə olunan uğurları, azad edilmiş sərhəd bölgələrində yaradılan yeni infrastruktur və xidmət şəraitini iştirakçılara təqdim edib. Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında Azərbaycan Zəfərinin həm siyasi, həm mənəvi, həm də hüquqi qələbə olduğunu vurğulayıb. Zəngilan rayon prokuroru Qibləli Kərimov isə rayonun azad edilməsindən sonra prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquq-mühafizə strukturları ilə koordinasiya və qanunçuluğun təmin olunması istiqamətində görülən işlər barədə məlumat verib.

Konfrans çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli tərəfindən “Qarabağ Azərbaycandır!” kitabının II cildinin təqdimatı keçirilib.

Sonda Zəngilan şəhərində ağacəkmə aksiyası keçirilib.

***XQ***

# Ərəb Koordinasiya Qrupunun Bakı müzakirəsi



**Bakıda İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Ərəb Koordinasiya Qrupunun yüksək səviyyəli dəyirmi masası keçirilib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov Ərəb Koordinasiya Qrupuna daxil olan institutlarla səmərəli tərəfdaşlıq əlaqələri qurulduğunu vurğulayıb. Bildirilib ki, İslam İnkişaf Bankı və OPEC Fondu ölkəmizdə dayanıqlı inkişaf, sosial rifahın artırılması və iqtisadi infrastrukturun gücləndirilməsi üzrə layihələrin maliyyələşdirilməsində iştirak edib, həmçinin Qrupa daxil olan digər üzv qurumların ölkəmizdə həyata keçirilən layihələrə qoşularaq Azərbaycanın sosial-iqtisadi tərəqqisinə töhfələr veriblər.

İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir Azərbaycan və ƏKQ arasında möhkəm tərəfdaşlığı qeyd edib, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırıb. OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə Fondun Azərbaycanla əlaqələrinin möhkəm etimada əsaslandığını vurğulayıb. Enerji, nəqliyyat, su təchizatı, kənd təsərrüfatı sahələrində işbirliyi qeyd edilib. Əbu-Dabi İnkişaf Fondunun Baş direktoru Məhəmməd Saif Əl-Süveydi bildirib ki, son illər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında güclü iqtisadi tərəfdaşlıq münasibətləri formalaşıb və birgə layihələrin həyata keçirilməsi bu əlaqələrin daha da möhkəmlənməsinə, qarşılıqlı iqtisadi əməkdaşlığın dərinləşməsinə töhfə verəcək. Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad Azərbaycanla dostluq və etimada əsaslanan tərəfdaşlığın mövcud olduğunu qeyd edib. Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun Baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar Fondun əsas missiyasının üzv ölkələrin və tərəfdaş dövlətlərin iqtisadi və sosial inkişafına dəstək vermək olduğunu bildirib.

Dəyirmi masa çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov, “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Rövşən Rüstəmov, “Bakı Metropoliteni” QSC-nin sədri Vüsal Aslanov ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq dayanıqlı inkişaf, şəhərsalma, su ehtiyatlarının idarə edilməsində səmərəliliyin artırılması, nəqliyyat infrastrukturunun modernləşdirilməsi ilə bağlı layihələr barədə məlumat veriblər. Dəyirmi masa çərçivəsində perspektiv layihələrlə bağlı təqdimatlar nümayiş etdirilib.

Dəyirmi masa çərçivəsində “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ərəb Koordinasiya Qrupunun üzvləri arasında Niyyət Bəyannaməsi” imzalanıb. Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov, İslam İnkişaf Bankı qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Əbu-Dabi İnkişaf Fondunun Baş direktoru Məhəmməd Saif Əl-Süveydi, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdülrəhman Əl-Marşad və Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun Baş direktoru vəzifəsini icra edən Valed Əl-Bahar imzalayıblar.

Niyyət Bəyannaməsinə əsasən tərəflər “Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə Milli Prioritetlər” sənədinə uyğun olaraq, Azərbaycan Respublikasında infrastruktur layihələrinə Ərəb Koordinasiya Qrupunun üzv qurumları tərəfindən güzəştli maliyyələşmə imkanlarının cəlb olunması istiqamətində əməkdaşlığın genişləndirilməsi niyyətlərini ifadə ediblər. Sənəd, həmçinin məlumat və təcrübə mübadiləsinə əsaslanan əməkdaşlığın təşviqini nəzərdə tutur.

Daha sonra “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Əbu-Dabi İnkişaf Fondu arasında Anlaşma Memorandumu” imzalanıb. Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Əbu-Dabi İnkişaf Fondunun Baş direktoru Məhəmməd Saif Əl-Süveydi imzalayıblar.

***XQ***

*6 Noyabr Metro İşçilərinin Peşə Bayramıdır*

**1967-ci il noyabrın 6-da sərnişindaşıma fəaliyyətinə başlamış Bakı Metropoliteni 58 illiyini qeyd edir. Şərqin ilk yeraltı ictimai nəqliyyatı Azərbaycan xalqının mirası sayılır. Bu sərvət xalqımızın Ümummilli lideri Heydər Əliyevin davamlı dəstəyi ilə böyük inkişaf yolu keçərək bu günümüzə gəlib çıxıb.**

# Bakı Metropoliteni – paytaxtın yeraltı polad magistralı

## *Bu şəbəkənin sərnişindaşımada önəmi və çəkisi durmadan artır*




Ulu öndər digər sahələr kimi, metropolitenə də daim diqqət göstərərək bu xüsusi nəqliyyat növünün inkişafı üçün var gücü ilə çalışıb. O, hər zaman çıxışlarında metronu və metropolitençi əməyini yüksək qiymətləndirib. Bir neçə stansiyanın açılışında şəxsən iştirak etmiş Heydər Əliyev metronu Azərbaycan xalqının ən dəyərli sərvəti adlandırıb: “Vətəndaşlarımız, ümumiyyətlə, xalqımız bilməlidir ki, bizim millətimizin əlində nə kimi böyük və nadir bir sərvət var. Bu sərvət müstəqil Azərbaycan dövlətinə yaxın keçmişdən miras qalıbdır. Ancaq eyni zamanda, bu sərvət Azərbaycan xalqının zəhmətkeş insanlarının böyük əməyi, əzmi nəticəsində yaranıbdır və belə bir möcüzəli şəkil alıbdır. Ona görə də Bakı Metropoliteni Azərbaycan xalqının milli sərvətidir. Deyə bilərəm ki, ən dəyərli sərvətidir”.

Bu sərvət Ulu öndərin davamçısı, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə daha da genişləndirilərək müasir inkişaf yoluna qədəm qoyub. Ötən müddətdə Bakı metrosunun Bənövşəyi xətti, elektrik deposu və bir neçə stansiya istifadəyə verilib. Ölkə rəhbəri bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Bakı metrosunun infrastrukturunun genişləndirilməsi, xidmət keyfiyyətinin daha da yaxşılaşdırılması və yeni stansiyaların inşasına dair tapşırıqlar verdiyini açıqlayıb. Dövlət başçısının tapşırığına uyğun olaraq 2030-cu ilə qədər Bakıda 10 yeni stansiya tikiləcək. Həmin stansiyalar Bakı şəhərində nəqliyyat infrastrukturunun inkişafına, eləcə də tıxac probleminin, avtobus nəqliyyatını metro ilə uzlaşdırmaq kimi mühüm məsələlərin həllinə xidmət göstərəcək.

Prezident İlham Əliyev yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə isə qeyd edib ki, son 30 il ərzində Azərbaycan əhalisi 10 milyonu keçib. Bakıda yeni metro stansiyaları istifadəyə verilməklə böyük layihələr icra edilsə də, yaradılmış şəhər yol infrastrukturu, o cümlədən metro imkanları bu artıma uyğun deyil. 2008-ci ildən metronun 7 stansiyası tikilsə də, dövrün çağırışlarına uyğun olaraq bu istiqamətdə yeni qərarlara ehtiyac var. Nəhayət, 2025-ci il yanvarın 30-da ölkə Prezidentinin sərəncamı ilə “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Həmin sənəddə metronun 10 yeni stansiya ilə yanaşı, Qırmızı və Yaşıl xətlərin ayrılması, Dərnəgül və Xocəsən elektrik depolarının tikintisinin tamamlanması, “İçərişəhər” stansiyasında keçid kamerasının inşası, enerji sisteminin etibarlılığının artırılması və s. kimi mühüm məsələlər nəzərdə tutulur. Plana uyğun olaraq Bənövşəyi xətdə 6, Yaşıl xətdə daha 4 yeni stansiya inşa ediləcək.





Bu baxımdan yeni stansiyalar Bakıda nəqliyyat sıxlığının azaldılmasına təkan verəcək, şəhərdə mobilliyin inkişafında mühüm rol oynayacaq, metro və digər ictimai nəqliyyat vasitələri inteqrasiya ediləcək, ictimai nəqliyyatın daha münasib, əlçatan və rahatlığı təmin olunacaq. Bu mənada Qırmızı və Yaşıl xətt mütləq ayrılmalıdır. Yeni 10 stansiya ilə metropolitenin daha 88 milyon sərnişin daşıması planlaşdırılır.

Bənövşəyi xəttin inşa ediləcək 6 stansiyasından 2-si Yaşıl xəttə (“Nizami” və “Xətai” stansiyalarında), daha 1-i Qırmızı xəttə (“Sahil” stansiyasında) keçid olacaq. Bu layihə sərnişin axını və hərəkət istiqamətlərinə əsaslı dəyişiklik gətirəcək. Eyni zamanda Sumqayıt, Xırdalan, Bakı–Şamaxı yolunda yerləşən qəsəbələrdən şəhər mərkəzinə hərəkət yaxınlaşdırılacaq. Stansiyalardan biri 2026-cı ilin sonuna qədər istifadəyə veriləcək. Artıq Bənövşəyi xəttin layihə adı “B-04” olan stansiyasında inşaat işlərinin əsas mərhələsi tamamlanıb.

Hazırda keçidlərin tikintisi ilə yanaşı, daxili xidməti sahələr və otaqların, arakəsmələrin inşası aparılır, təchizat məsələləri, quraşdırma, hərəkətin təşkili və s. işlər görülür. Bütövlükdə, 10 stansiyanın inşası metropolitenin genişləndirilməsi ilə yanaşı, mövcud infrastruktur problemlərinin mərhələli şəkildə aradan qaldırılması, sərnişinlərə xidmət keyfiyyətinin artırılmasına da əhəmiyyətli təsir göstərəcək. Həmçinin, şəhərdə mobillik planının həyata keçirilməsini sürətləndirəcək və metropolitenin ictimai sərnişindaşıma nəqliyyat sistemində rolunu artıracaq.

Metropoliten üçün hər xəttin müstəqil fəaliyyətinin aktuallığı nəzərə alınaraq “28 May” stansiyasında kəsişərək birləşən Yaşıl və Qırmızı xətlərin ayrılması layihəsinin icrasına hazırlıq işləri başlanıb. Bu xətlərin müstəqil olması hər birinin öz infrastrukturu çərçivəsində fəaliyyətinin, idarəetmə prinsiplərinin, sərnişindaşıma xidmətinin və texniki quruculuğunun daha səmərəli və keyfiyyətli təşkilinə yol açacaq. Layihənin icrasına “28 May” stansiyası yaxınlığında qazıntı işlərinə hazırlıq görülməsi ilə start verilib.

Ərazinin ağır geoloji mühitə malik olması səbəbindən ən optimal qazma üsulu ilə inşaatın texniki təhlükəsizliyi təmin edilir. Bu işlər “Cəfər Cabbarlı–Nizami” mənzilini birləşdirəcək 200 metrə yaxın tunelin inşası ilə tamamlanacaq. Həmin müddət ərzində geoloji təsirlər nəticəsində “Nizami” stansiyası istiqamətində tunel geyimində meydana gəlmiş və yol mənzilində qatarların sürət həddinin aşağı salınmasına səbəb olmuş texniki çatışmazlıqlar da aradan qaldırılacaq.

Layihə çərçivəsində “28 May” stansiyasından “Cəfər Cabbarlı” stansiyasına daha bir keçid tikiləcək. Bu isə sərnişin axını gur olan “28 May” stansiyasından “Cəfər Cabbarlı” stansiyasına və əks istiqamətdə sərnişin axınının parçalanmasına və hərəkətin daha intensiv tənzimlənməsinə, təhlükəsizliyin daha da artırılmasına təsir göstərəcək. 2026-cı ildə tamamlanması nəzərdə tutulan bu işlər zamanı əsas tunel qazıntısı müddətində “28 May–Nizami” yol mənzilində qatarların hərəkəti müvəqqəti dayandırılacaq. Lakin layihənin icrası, sadəcə, tunelin və keçidin tikintisi ilə məhdudlaşmır.

Mürəkkəb və kompleks tədbirlərin tərkib hissəsinə xətlərin fəaliyyətini və idarəetməsini təmin edən əsas infrastruktur layihələrinin həlli də daxildir. Dünya praktikasında da olduğu kimi, qatarlara qulluq, xidmət, təmir və tunel, yol, hərəkətin təşkili, texniki məsələlərin həlli baxımından hər xəttin özünün deposu olmalıdır. Hazırda Bakı Metropoliteninin 3 xəttinin 2 elektrik deposu fəaliyyət göstərir. Bənövşəyi xəttə xidmət göstərən “Xocəsən” elektrik deposunun inşası birinci mərhələdə başa çatdırılıb. Qarşıdakı müddətdə xəttin yeni stansiyaları istifadəyə verilərkən qatarlara xidmət və təmir, eləcə də baxış-qulluq sahələri yaradılmalı və infrastrukturun tam fəaliyyəti təmin edilməlidir.

Qırmızı və Yaşıl xətlərə təkcə “Nərimanov” elektrik deposu xidmət göstərir. Bu da mövcud tələbatı ödəməyə imkan vermir. Bu səbəbdən də 2025-ci ildə Yaşıl xəttin “Dərnəgül” elektrik deposunun inşasına başlanılıb. Burada müxtəlif sahələrin əsas idarəetməsini özündə birləşdirən inzibati bina ilə yanaşı, texniki infrastrukturun fəaliyyətini təmin edən xidmət sahələri də yaradılmalıdır.

Qatarların təmiri, xidməti, qulluğun göstərilməsi, gecə işlərini yerinə yetirmək üçün təsərrüfat qatarları, yükləmə-boşaltma və digər funksiyalar üçün zəruri infrastruktur qurulmalıdır. “Dərnəgül” elektrik deposunun inşasının iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələdə xətlərin ayrılması layihəsi üçün vacib olan infrastruktur qurulacaq. Hazırda tunellər çəkilir, qatarların dayanması və təmir sahəsində inşaatın norma və qaydalarına uyğun inşaat işləri aparılır.

Silsilə tədbirlər sırasında enerji təhlükəsizliyi mühüm yer tutur. Xətlərin elektrik təchizatının müasir standartlar səviyyəsində qurulması, xüsusilə qatarların hərəkətini təmin edən dartı hissəsinin hər bir xətt üzrə təmin edilməsi məqsədilə “Nizami” və “Cəfər Cabbarlı” stansiyalarının yaxınlığında yeni yarımstansiyalar inşa edilməlidir. Bu işlərin görülməsi hər bir xəttin təhlükəsiz enerji təminatına zəmin yaradacaq. Xətlər ayrıldıqdan sonra Qırmızı xətt üzrə ən minimal intervallar təmin olunacaq. Bu isə elektrik enerjisinin hər bir fider zonasında fasiləsizliyini və etibarlılığını aktuallaşdıracaq. Həm də xətlər ayrıldıqdan sonra intervallar azaldılacağından qatarların sayının artırılması lazım gələcək.

Xətlər ayrıldıqdan sonra hər birinin səmərəli fəaliyyəti, sərnişinlərə nümunəvi xidmətin təşkili, daha çox sərnişindaşıma qabiliyyəti və mövcud sıxlığın tənzimlənməsi optimal hərəkət qrafikinin təşkili və minimal intervalların tətbiqindən asılıdır. Bu səbəbdən hərəkətin təşkili prinsiplərinə uyğun olaraq sonuncu stansiyalarda dalan infrastrukturu və ya dönmə kamerasının olması xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən Qırmızı xətdə hərəkətin mümkün ən minimal interval hədlərinə çatdırılması üçün “İçərişəhər” stansiyasının arxasından qatarların geri qaytarılması məqsədilə dönmə kamerasının inşası planlaşdırılıb. Bununla bağlı müvafiq işlərin aparılması üçün ilkin tədbirlər görülür. Bununla yanaşı, Yaşıl xətdə də funksional fəaliyyət “Xətai” stansiyasından sonra xəttin inşasının davam etdirilməsidir.

Nəzərdə tutulmuş 10 stansiyadan 4-ü məhz bu istiqamətdə tikiləcək. Xətlərin ayrılması layihəsi üçün mühüm olan infrastruktur şərti adı Y-15 olan stansiyadır. Bu səbəbdən konseptual inkişaf sxemində nəzərdə tutulmuş inşaat işlərinə müvafiq dalan infrastrukturu ilə təmin edilməsi nəzərdə tutulmuş “Y-15” stansiyasından başlayaraq “Xətai” stansiyası istiqamətində aparılacaq. Bu inşaat sahəsində 8 Noyabr prospektində Nizami Gəncəvi parkının yaxınlığında yerləşən şərti adı “Y-14” olan stansiyanın inşası da tamamlanmalıdır.




Bütün bu işlərin mərhələli şəkildə tamamlanması paytaxtda nəqliyyat infrastrukturunun inkişafı, tıxacların azaldılması, ictimai sərnişindaşıma sektorunun səmərəli, effektiv fəaliyyəti, fərdi avtomobillərdən imtinaya gətirib çıxaracaq. Şəhər mərkəzində ictimai nəqliyyatın üstünlüyü, eyni zamanda, mikromobilliyin daha sürətli inkişafına xüsusi təkan verəcək. Mobillik proqramının uğurla tamamlanması və onun ən qənaətbəxş modelinin qurulması həm də şəhərətrafı yaşayış və sənaye sahələrinin, eləcə də aqlomerasiyaya daxil olaraq böyüyən şəhər və qəsəbələrə doğru nəqliyyat infrastrukturunun optimallaşması istiqamətində ən mühüm addımlardan biridir.

Yaşıl və Qırmızı xətlərin müstəqil infrastrukturu qurulmaqla, hər birinin optimal hərəkət qrafiki olacaq. Belədə Yaşıl və Qırmızı xətlərdə daha dayanıqlı, daha təhlükəsiz hərəkət təmin ediləcək. İntervallar mümkün ən minimum həddə çatdırılacaq. Həmçinin, Yaşıl və Qırmızı xətlərin hazırda birləşdiyi (“Dərnəgül–28 May” və “İçərişəhər–28 May”), lakin gələcəkdə ayrılacaq “28 May” stansiyasına qədər sahələrdə mövcud olan 4 dəqiqə və daha yuxarı interval azaldılacaq.

Bakı Metropolitenində sərnişinlərin təhlükəsiz hərəkəti, rahatlığı və məmnunluğu əsas hədəfdir. Yeniləşmə tədbirləri nəticəsində əldə olunacaq üstünlüklər hesabına “28 May” stansiyasına hazırda daxil olan sərnişinlər ayrı-ayrı xətlər üzrə bölünəcək, stansiyanın sərnişin yükü normaya salınacaq. Sərnişinlərin stansiyaya axını istiqamətlər üzrə keçidlərdə bölünəcəyindən bir xətt üzrə hərəkət qrafikində yaranan problem digərinə təsir etməyəcək. Ümumilikdə, Prezident İlham Əliyevin tapşırığına əsasən, işlərin paytaxtın yerüstü ictimai nəqliyyat və mübadilə mərkəzləri ilə əlaqəli şəkildə təşkil olunacağını nəzərə alsaq, şəhərin sərnişindaşıma dinamikası, mobillik planı sürətlənəcək.

Hazırda Bakı Metropolitenində 347 vaqon və ya 67 qatar sərnişindaşıma prosesinə cəlb edilir ki, bunların da 30-u yeni nəsil qatarlardır. Bənövşəyi xətdə 7 vaqonlu, Yaşıl və Qırmızı xətlərdə 5 vaqonlu qatarlar hərəkət edir. Yeni müqaviləyə əsasən, 2025-ci ildə alınmış 30 yeni vaqon Bakıya gətirilərək xəttə buraxılmaq üçün son komplektləşdirmə, sazlama və sınaq işləri aparılır. Yaxın günlərdə 3 yeni qatar xəttə buraxılacaq. Dördüncü nəslə mənsub bu qatarların 2025-ci ildə istismar müddəti başa çatmaq üzrə olan vaqonların əvəzinə xəttə buraxılması nəzərdə tutulub. Beləliklə, 2025-ci ilin sonuna qədər yeni nəsil vaqonların sayı 180-ə (36 qatar tərkibi) çatdırılacaq. Dövlət Proqramına əsasən isə 2030-cu ilə qədər 299 yeni nəsil vaqonun alınaraq xəttə buraxılması planlaşdırılıb.

Sərnişin sıxlığının tənzimlənməsi və sərnişin məmnunluğun artırılması baxımından qatarların hərəkətinin intensivləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu ilin mayında metropolitenin fəaliyyətində mühüm yenilik baş verib – son 16 ildə ilk dəfə intervalın azaldılmasına nail olunub. Bundan əlavə, qatar cütlərinin sayı 30-dan 32-yə yüksəldilərək yeni, daha sıx hərəkət cədvəli tətbiq edilib. Sentyabrda isə interval pik saatlarda bir qədər də azaldılaraq 1 dəqiqə 45 saniyəyə endirilib. Metropoliten tarixində ilk dəfə pik saatlarda qatarlar arasında intervalın bu həddə salınması isə il ərzində ikinci dəfə tarixi rekordun qeydə alınması sayıla bilər.

Ümumilikdə, bütün bu yeniliklər mövcud texniki imkanlar daxilində aparılmış təkmilləşdirmə işləri sayəsində mümkün olub. Görülmüş əlavə tədbirlər, yeniliklər pik saatlarda qatarların hərəkətinin daha da sıxlaşdırılmasına imkan yaradıb. Yeni hərəkət qrafikinin hazırlanması çərçivəsində qatarların hərəkətinin təşkilində istifadə edilən köhnə, kağız əsaslı qrafikdən imtina olunaraq yeni rəqəmsal proqram təminatı istifadəyə verilib. İşarəvermə və idarəetmə sistemləri təkmilləşdirilib, stansiyalara giriş-çıxış və dayanma rejimləri optimallaşdırılıb. Həmçinin, maşinist heyətinə təlimlər keçirilib və stansiyalarda əlavə nəzarət tədbirləri görülüb.

Bakı Metropoliteni bundan sonra da sərnişindaşımada xidmət keyfiyyətinin yüksəldilməsi, sərnişinlərin daha çevik və rahat hərəkətinin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Vətən müharibəsinin başa çatmasına 3 gün qalırdı...

## *Zəfər yürüşü isə Şuşa zirvəsinə yaxınlaşırdı*



**Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti təxribatdan sonra Azərbaycan Ordusunun əks-hücum əməliyyatları uğurla davam edirdi. Öz tarixi və müqəddəs missiyasını şərəflə yerinə yetirən Silahlı Qüvvələrimiz cəbhənin bütün istiqamətlərində işğalçıya sarsıdıcı zərbələr endirirdi.**

Müdafiə Nazirliyi mətbuat xidmətinin noyabrın 6-da yaydığı məlumatda deyilirdi: "Ordumuza qarşı asimmetrik qaydada mübarizə aparan düşmən qruplaşmaları bölmələrimiz tərəfindən ən dərin cəbhələrdə də sıradan çıxarılır. Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə irəliləyərək işğal altında olan torpaqları azad edir. Ermənistanın hərbi siyasi rəhbərliyi hədəflərimiz barədə saxta fikirlər aşılayaraq, erməni cəmiyyətini Azərbaycan Ordusuna qarşı müharibəyə cəlb etməyə çalışır. Silahlı Qüvvələrimiz döyüşə girən düşməni məhv edilir, işğalçı geriyə qaçır, itkin və əsir düşür. Azərbaycan əsgəri qəsbkara qarşı əzmlə mübarizə aparır".

Onu da xatırladaq ki, 2020-ci ilin bu günlərində respublikamızda hər kəs Böyük Qələbəyə köklənmişdi. Hər bir kəs Ali Baş Komandanın hansı şəhər və kəndlərimizin azad olunacağı ilə bağlı məlumatını səbirsizliklə, intizarla gözləyirdi. Hamı növbəti qələbə müjdəsinin sorağında idi.

Vətən müharibəsi başlayandan noyabrın 6-dək 200-dən çox kənd, şəhər və qəsəbə ermənilərdən təmizlənmiş, həmçinin Murov zirvəsi, Xudafərin körpüsü və bir çox strateji yüksəkliklər işğaldan azad edilmişdi. Prezident, Ali Baş Komandan İlham Əliyev noyabrın 4-də isə özünün "Twitter" hesabında Müzəffər Azərbaycan Ordusunun Cəbrayılın Mirək, Kavdar, Zəngilanın Məşədiismayıllı, Şəfibəyli, Qubadlının Başarat, Qarakişilər, Qaracallı kəndlərinin düşməndən təmizləndiyini bildirmişdi.

Şübhəsiz ki, bütün bu uğurlar dövlətimizin başçısının müdrik siyasətinin, Azərbaycan Ordusuna diqqət və qayğısının, Silahlı Qüvvələrimizin döyüş əzminin, müasir silah-sursatla, keyfiyyətli döyüş texnikası ilə təchizatının yüksək səviyyədə gerçəkləşdirilməsinin məntiqi nəticəsi idi. Ordumuzun qısa müddət ərzində möhtəşəm hərbi uğurlar qazanması onun güc-qüdrətinin göstəricisi idi. Bu, eyni zamanda, illərdir ki, formalaşdırılan "məğlubedilməz erməni ordusu" mifinin Silahlı Qüvvələrimiz tərəfindən darmadağın edilməsinin bariz ifadəsi idi. Bundan başqa, ordumuz tarixi Zəfər ərəfəsində erməni faşizminə əsaslanan işğal siyasətinə böyük zərbə vurmaqla regionda sülhün bərqərar olması üçün yeni şərait yaradır, eyni zamanda, düşmənin regiona cəlb etdiyi çoxsaylı terror təşkilatlarının üzvlərinin də cinayətlərinin qarşısını almaqla yeni hərbi-siyasi reallıq formalaşdırırdı.

Azərbaycan Ordusu qələbələrini düşmənlə vuruşda əldə edirdi. Döyüş meydanında Azərbaycan əsgərinin qəhrəmanlığı qarşısında aciz qalan və böyük itkilər verərək geri çəkilməyə məcbur olan işğalçı Ermənistan isə məğlubiyyətin əvəzini cəbhə zonasından kənarda yerləşən kənd və şəhərlərimizin dinc sakinlərindən çıxır, beynəlxalq konvensiyalarda təsbit olunan müharibə qaydalarını kobud şəkildə pozurdu. Başqa sözlə, indiyədək mülki əhalimizin yaşadığı məntəqələri atəşə tutan xain düşmən cəbhə xəttindən uzaqda yerləşən şəhərlərə raket zərbələri endirirdi. Azərbaycan Respublikası Baş Prokurorluğunun Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 6-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasında da bu diqqətə çatdırılırdı: "İşğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 3064 ev, 100 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb".

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tuturdu. Gəncə, Bərdə və Tərtərdəki terror aktları və qadağan olunan silahlarla törədilən digər müharibə cinayətləri erməni vandallığının bariz ifadəsi idi. Lakin Azərbaycan xalqının qələbə əzmini azaltmağa və ölkəmizdə sabitliyi pozmağa yönələn bu vəhşi, qeyri-insani cəhdlər cavabsız qalmır, ordumuz düşməni layiqli cəzalandırırdı. Azərbaycan Silahlı Qüvvələri uğurlu hərbi əməliyyatlar aparır, düşmənə sarsıdıcı zərbələr vururdu.

Belə bir şəraitdə isə Ermənistan yenə də işğalçılıq siyasətindən əl çəkmir, terror əməllərini törətməkdə davam edirdi. Hətta vəziyyəti daha da gərginləşdirmək üçün humanitar atəşkəslə bağlı imzalanan razılaşmaları belə kobudcasına pozurdu. Dinc əhalini və mülki obyektləri raket atəşi ilə hədəfə alırdı. Beləliklə, hərbi cinayətlərini ardıcıl həyata keçirir, əcnəbi vətəndaşları, muzdluları, PKK və Yaxın Şərqdən bəzi terrorçu qruplaşmaları qondarma "Dağlıq Qarabağ ordusu"na qoşmaqla beynəlxalq hüququn tələblərini pozurdu. Təbii ki, bu cür halda Azərbaycan Ordusu da öz legitim və beynəlxalq hüquqa əsaslanan mübarizəsini davam etdirirdi.

Vətən müharibəsi aparıldığı günlər ərzində canlı qüvvə və hərbi texnika sarıdan ölümcül zərbə alan Ermənistanın siyasi rəhbərliyi məğlubiyyətləri ilə heç cür barışmaq istəmirdi. Buna görə də ölkəmizə qarşı şər-böhtan kampaniyası aparırdı. Təəssüf ki, düşmənin bəzi xarici havadarları tərəfindən də bu yalan kampaniyası dəstəklənirdi. Məsələn, Azərbaycanın guya muzdluları döyüşlərə cəlb etməsi ilə işğalçının məğlubiyyətə uğraması iddiası səsləndirilirdi. Muzdlulardan və terrorçulardan istifadə edərək, Ermənistanın ölkəmizə qarşı müharibə cinayətləri törətməsi isə heç kimə sirr deyildi.

Əlbəttə, Ermənistanın xarici ölkələrdəki havadarları tərəfindən hər zaman olduğu kimi, Vətən müharibəsinin gedişində də dəstəklənməsi təsadüfi deyildi. Bunun səbəbi isə dünya erməniliyinin və islamofob dairələrin beynəlxalq aləmdə kifayət qədər güclü mövqelərə sahib olmaları ilə bağlı idi. Ancaq heç bir şər-böhtan Azərbaycanı haqq yolundan döndərə bilməzdi. Çünki həm beynəlxalq hüquq, həm də tarixi ədalət baxımından ölkəmiz ədalətin tərəfində dayanırdı. Azərbaycan öz torpağının işğalçıdan geri alınması üçün vuruşur, mübarizə aparırdı.

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində də bu barədə ətraflı bəhs edərək, bu məlumatların heç bir əsası olmadığını vurğulayırdı: "Mən dəfələrlə demişəm ki, bizim 100 min döyüşçüsü olan ordumuz var, nizami ordu. Tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox adam səfərbər edə bilərik. Bizim müasir silahlarımız var. Mükəmməl texnologiyamız var və bizim çox yüksək döyüş ruhumuz var. Ona görə də buna ehtiyac yoxdur".

Dövlətimizin başçısnın sözügedən müsahibədə də diqqətə çatdırırdı ki, Azərbaycan rəhbərliyində əcnəbilərin Ermənistan tərəfindən döyüşdüyünə dair kifayət qədər dəlillər var. Lakin buna baxmayaraq, Silahlı Qüvvələrimiz döyüşlərdə ermənilərin "məğlubedilməz ordusu"nun əfsanə, mif olduğunu sübut edir, təsdiqləyirdi. Ümumiyyətlə, məğlubiyyəti qəbul etmək düşmən üçün çox ağrılı idi.

Yeri gəlmişkən, Müdafiə Nazirliyinin 2020-ci il noyabrın 6-da yaydığı məlumatda bu barədə deyilirdi: "Hazırda Azərbaycan Ordusunun qarşısında təkcə Ermənistan silahlı qüvvələrinin bölmələri deyil, həm də xaricdən cəlb edilmiş xeyli sayda muzdlu və əcnəbi terrorçu döyüşçülər var. Kəşfiyyat məlumatlarına görə, bu döyüşçülər erməni əsilli müxtəlif ölkə vətəndaşlarıdırlar. Ermənistanın hərbi-siyasi rəhbərliyi hiyləgərcəsinə onları qabağa, faktiki olaraq, ölümə verməklə bu əcnəbilərin Azərbaycan tərəfindən döyüşlərə cəlb edildiyinə dair iftiralar atır, onların cəsədlərinə də sahib çıxmır. Əcnəbilərin belə ərazilərdə kifayət qədər döyüş təcrübəsi olmadığına və dil probleminə görə onların qarşılıqlı fəaliyyətinin təşkilində ciddi problemlər yaranır. Pərakəndə şəkildə fəaliyyət göstərən bu qruplaşmaların Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina etmələrinə dair məlumatlar var. Əcnəbi döyüşçülər də Ermənistanın hərbi-siyasi rəhbərliyinin tələsinə düşdüklərini dərk etməli, dərhal silahı yerə qoymalıdırlar. Ali Baş Komandanımızın rəhbərliyi ilə uzun müddətdir bu günə hazırlaşan Azərbaycan əsgəri hazırda döyüşdə zəfər qazanır".

Azərbaycan Prezidenti İlham Əliyev savaş günlərində xarici mediaya verdiyi müsahibələrində də vurğulayırdı ki, Ermənistan tərəfdə vuruşan muzdluların erməni əsilli olduqlarının da heç bir fərqi yoxdur. Çünki əgər əcnəbi vətəndaş bir ölkə tərəfindən digər ölkəyə qarşı döyüşürsə, o, muzdludur. Bundan əlavə, onların hamısı erməni deyildir və sıralarında PKK-çılar da var. Hətta Yaxın Şərqdən bəzi terrorçuların qondarma "Dağlıq Qarabağ ordusu"na qoşulmaları da məlumdur.

Prezident İlham Əliyev müsahibəsində sadalanan faktlara əsaslanaraq, Ermənistan rəhbərliyinin dünyadakı terror təşkilatları ilə əlaqəsi olduğunu bir daha vurğulayırdı. Ermənistanın işğalçılıq siyasətində inadkar olması, şübhəsiz ki, baş nazir Nikol Paşinyanın ölkəsinə yarıtmaz siyasətinin məntiqi nəticəsi idi. Ermənistanı bu cür fəlakət həddinə məhz N.Paşinyan gətirib çıxarmışdı. Tamamilə təsadüfi bir şəxs olan baş nazirin dövlət idarəçiliyi, diplomatiya, iqtisadiyyat, eləcə də hərb sahəsində anlayışı yox idi. Əgər belə olmasaydı, Ermənistan müharibədən əvvəlki və sonrakı acınacaqlı duruma düşməzdi.

***Vaqif BAYRAMOV,***
***XQ***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhə boyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

## *6 noyabr*

• Noyabrın 5-i gün ərzində və 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

• Cəbhənin Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun atəş zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

• Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, Tərtər, Goranboy daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Tovuz, Gədəbəy və Daşkəsəndə yerləşən mövqelərimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov bu barədə noyabrın 6-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə bildirib. A.Eyvazov deyib ki, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını sıradan çıxarıb.

Düşmənin komandir heyəti daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAz" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, məlum olub ki, Ermənistandan gətirilərək müdafiə zolağına yerləşdirilən 556-cı və 522-ci motoatıcı alayların bölmələri onlara tapşırılan hədlərə çıxmayıb. Eyni zamanda, şəxsi heyət hazırlıqsız, təcrübəsiz və intizamsız olmaqla yanaşı, verilən əmr və tapşırıqlara da səhlənkar yanaşıb.

• Düşmənin minaatanlarının atış nöqtələrinə və döyüş mövqelərinə zərbələr endirilib.

• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Müzəffər Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri hazırda düşmənin işğal edilmiş ərazilərdə 30 il müddətində tikdiyi istehkam maneələrini yarır, qurduğu pusquları dağıdır və hədəfə yaxınlaşır. Əks-hücum əməliyyatında ordumuzun qarşısında duran əsas tapşırıq çətin relyef və iqlim şəraitində mütəşəkkil qaydada irəliləmək və işğal altında olan torpaqlarımızı cinayətkar ordu qruplaşmasından xilas etməkdir.

***Mustafa KAMAL***
***XQ***

# Milli birliyin möhtəşəm təntənəsi

**8 Noyabr Zəfər təntənəsinə 3 gün qalıb. Bu tarix Azərbaycan xalqının ən qürurlu, şanlı günüdür. Həmin gün tarixə suverenliyimizin, ərazi bütövlüyümüzün təmin edilməsi kimi yazıldı. Artıq 5 ildir ki, xalqımız 30 il ərzində talanan, yandırılan, həyat nişanələri məhv edilən Qarabağ və Şərqi Zəngəzurun düşmən tapdağından azad edildiyi günü möhtəşəm təntənələrlə qeyd edir.**

2020-ci il noyabrın 8-də xalq, iqtidar və ordu arasındakı möhkəm birliyin uğurlu nəticəsi olaraq müqəddəs Vətən torpaqlarının işğaldan azad olunduğu gün! Son iki yüz ilə yaxın dövrdə erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə son qoyulduğu gün.

2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı isə 44 günlük müharibədə əldə edilmiş tarixi Zəfərin məntiqi yekunu oldu: Ermənistan tərəfindən yaradılmış kriminal xunta rejiminin fəaliyyətinə birdəfəlik son qoyuldu, Azərbaycanın suverenliyi onun bütün ərazisində bərqərar edildi.

Məhz bu gündən sonra illərdir təqvimlərimizdə hüznlə qeyd etdiyimiz faciəvi günlər arxada qaldı, biz Şuşanın, Xankəndinin, Xocalının, Laçının və digər şəhər və rayonlarımızın işğaldan azad olunduğu günləri bayram etməyə başladıq. Təqvimdə Zəfər Günü kimi yeni bayram qeyd olunmağa başladı.

Son üç onillik ərzində həyata keçirilən uğurlu xarici və daxili siyasət, nəhayət, ölkə başçısı, Ali Baş Komandan, möhtərəm İlham Əliyevin möhkəm iradəsi, dəmir yumruğu sayəsində öz bəhrəsini verdi. Şəhidlərimizin qanı-canı bahasına, qazilərimizin fədakarlığı sayəsində qazandığımız misilsiz qələbə regionda yeni reallıq yaratdı, Azərbaycan "münaqişənin hərbi həlli yoxdur" tezisinin yanlış olduğunu sübuta yetirdi. Ulu öndərin vəsiyyəti uğurla yerinə yetirildi, Azərbaycan torpaqlarının işğalına son qoyuldu, tarixi ədalətin bərpa olunması xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtardı. Bütün dünya gördü ki, Azərbaycan haqsızlıqla barışmayan qüdrətli dövlətdir, Azərbaycan xalqı qalib xalqdır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı.

Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev 2003-cü il oktyabrın 31-də andiçmə mərasimindəki nitqində qətiyyətlə verdiyi vədi yerinə yetirdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir". Ərazi bütövlüyümüzün təminatçısı kimi Azərbaycan dövlətinin və xalqının pozulmuş konstitusion hüquqlarını tam bərpa etdi.

Artıq bu gün ay-ulduzlu üçrəngli bayrağımız Azərbaycan torpağının hər guşəsində inamla dalğalanır.

Vətən müharibəsindəki qələbəmizin beşinci ildönümünü ölkəmizin həyatında daha bir əlamətdar günlə eyni vaxtda – Konstitusiyamızın qəbul edilməsinin 30-cu ildönümü ilə bir ərəfədə qeyd etməyimiz hər bir Azərbaycan vətəndaşının, harada yaşamasından asılı olmayaraq hər bir soydaşımızın qəlbini ikiqat fərəh hissi ilə doldurur.

Vaxtilə yurd-yuvalarından didərgin düşmüş insanlarımız bu gün böyük sevinc hissi ilə Qarabağ və Şərqi Zəngəzurdakı ata-baba yurdlarına qayıdırlar.

Bu Zəfər bayramı Ali Baş Komandan ətrafında birləşərək "Dəmir yumruq" yaradan Azərbaycan xalqının indiyədək misli görünməmiş qəhrəmanlıq salnaməsi, birlik, şərəf, məğrurluq, qürur və ədalət bayramıdır, müzəffər ordumuzun qüdrətini bütün dünyaya bəyan edən möhtəşəm hadisədir. Bu qələbə Azərbaycanın təkcə döyüş meydanında deyil, həm də diplomatik müstəvidə əldə etdiyi qələbədir.

***Musa NƏBİOĞLU,***
***Azərbaycan Aşıqlar Birliyinin katibi,***
***Əməkdar mədəniyyət işçisi***

*Vətən müharibəsi qəhrəmanları*

# Şuşa fatehlərinin sonuncu şəkli

**Bu fotoda iki qubalı igid, iki dost, iki Şuşa fatehi bir yerdədir. Hər ikisi Vətən Müharibəsi Qəhrəmanıdır – şəhid, baş gizir Mehrab Niftəliyev və qazi, polkovnik-leytenant Ceyhun Camalov. Bu, onların sonuncu şəklidir. Aşağısında qeyd də var – 4 noyabr 2020-ci il, saat 15:44.**



Həmin gün son dəfə görüşdülər. Səngər həyatının barıt qoxulu qayğılarından danışdılar, axar-baxarlı Qubanı xatırladılar. Həm də kirvə olduqlarına görə, doğma el-obanı, qohum-əqrəbanı yada saldılar. Həmin an foto ilə əbədiləşdirildi. Halallaşıb ayrıldılar. Mehrab Şuşaya, Ceyhun isə Daşaltıya yollandı. Gedərkən bir-birlərinə söz verdilər: Kim sağ qalarsa, digərinin ailəsinə yardımçı olacaq.

Mehrab Niftəliyev 8 noyabrda Şuşa döyüşlərində qəhrəmancasına şəhadətə ucaldı. O, sözün əsl mənasında, Zəfərin simvoluna çevrildi. Ceyhun Camalov isə qalib kimi evə qayıtdı. Bu gün də Vətən keşiyindədir. Andına sadiq qalıb – dostunun əmanətlərinə tez-tez baş çəkir, qayğıları ilə maraqlanır. Dostların biri şəhidliklə ölümsüz qazanıb, digəri Vətənə xidməti ilə qürur qaynağına çevrilib.

Mehrab Söhrab oğlu Niftəliyev 1985-ci ilin may ayında Qubanın Qam-qam kəndində dünyaya göz açıb. 2002-ci ildə Mübariz Abdullayev adına orta məktəbi bitirib və hərbi xidmətə yollanıb. Qulluq dövründə xüsusi təyinatlıların sıralarına qəbul olunub. 17 illik xidməti dövründə əsl Vətən oğlu olduğunu dəfələrlə sübuta yetirib. Aprel döyüşlərində də bir neçə ağır əməliyyatda iştirak edib, uğurlu döyüşçü kimi təltif olunub.

Bütün söhbətlərində deyirmiş ki, Qarabağın işğal altında olması ona pis təsir edir. Can bahasına da olsa, bu əzəli torpaqlarımızı nankor haylardan azad etməliyik. 2020-ci ilin payızında Mehrab arzusuna çatdı, amma həmin payız onun üçün sonuncu oldu.

Silahdaşlarının dediyinə görə, Füzuli, Cəbrayıl, Hadrut və Şuşada iz qoyan, ad çıxaran Mehrab döyüşlərə silahından əlavə, 60 kiloqrama yaxın çəkisi olan müxtəlif sursatlarla girirmiş. Yaralı olsa belə, yoluna davam edir, düşmənin artilleriyası onu dayandıra bilmirdi. Buna görə döyüş yoldaşları Mehrabı “Terminator” adlandırıblar.

Qarabağ uğrunda “uf” demədən canından keçən Mehrab Niftəliyev dövlətimizin başçısı İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb, o cümlədən “Vətən uğrunda”, Şuşanın, Cəbrayılın və Füzulinin azad olunmasına görə medallarla təltif olunub.

...İnişil 8 Mart Beynəlxalq Qadınlar Günündə şəhid qəhrəmanın xanımını, onun itkisindən sonra mərdanə dayanan Vüsalə Niftəliyevanı Sumqayıtın 13-cü mikrorayonundakı evində ziyarət etdik. Çay süfrəsi arxasında həzin-həzin Mehrablı günlərindən danışdı. Onun xatirələri bizi də xeyli kövrəltdi.

Ceyhun Fikrət oğlu Camalov 1983-cü ilin yanvarında Qubanın Yenikəndində doğulub. Orada tam orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Sonra müxtəlif hərbi hissələrdə Vətənin qulluğunda dayanıb. Həmişə zabit şərəfini yüksək tutub. 2016-cı ildə Ceyhun Camalov tarixi Aprel döyüşlərində iştirak edib. Bir-iki gün ərzində özünün vətənpərvərliyini, döyüşçü-zabit keyfiyyətlərini, cəsurluğunu nümayiş etdirə bilib. “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalı, “Qüsursuz xidmətə görə” hər 3 dərəcəli medallarla da təltif olunub.

Qubanın igid oğlu 5 il əvvəl – sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində hər zaman öndə gedən komandirlərdən olub. Cəbrayıl, Füzuli, Hadrut və Şuşanın işğaldan azad edilməsi döyüşlərində qorxmaz xüsusi təyinatlı kimi fərqlənib. 2023-cü ilin 19–20 sentyabr antiterror əməliyyatı və bir sıra mühüm döyüş əməliyyatlarında da yaxından iştirak edib. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidlik və mərdlik nümunəsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə Ceyhun Camalova “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adı verilib. Onun yaxasında həmçinin 3-cü dərəcəli “Rəşadət” ordeni, Cəbrayılın və Şuşanın azad olunmasına görə medallar bərq vurur.

Bu şəkil adi bir xatirə deyil, bütöv bir dastandır! Ruhun şad olsun, Qəhrəman Mehrab! Xidmətin uğurlu keçsin, Qəhrəman Ceyhun!

***Ə.DOSTƏLİ***
***XQ***

# Asiman övladlarını Vətənə əmanət etdi

**Ömrünün 33 payızında canı qədər sevdiyi vətənin azadlığı uğrunda döyüşlərə qatılanlardan biri də Azərbaycan ordusunun mayoru Asiman Əliyevdir. Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olan mayoru Asiman Vaqif oğlu Əliyev 1987-ci il fevralın 1-də Ordubad rayonunun Düylün kəndində dünyaya göz açıb. Orta məktəbi doğulub boya-başa çatdığı kənddə alıb, hərbiyə olan həvəsi onu 2001-2004-cü illərdə isə Heydər Əliyev adına Hərbi Liseyə aparıb.**



Arzularının ardınca hərbi sirlərini daha dərindən öyrənmək üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə üz tutub. Ali təhsilini burada motoatıcı tağım komandiri ixtisası üzrə alan Asiman 2008-2009-cu illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabit ixtisası üzrə təhsil alıb. 2008-2009-cu illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) "Zabit" ixtisası üzrə təhsil alıb.

Asiman Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Noyabrın 7-də Xocavənd döyüşləri zamanı şəhid olub. II Şəhidlər xiyabanında dəfn edilib.

Atası Vaqif Əliyev qeyd edir ki, Vətən müharibəsi başlayanadək əvvəl Mingəçevirdə, daha sonra Tərtərdə xidmətdə və 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı idi. Aprel döyüşləri zamanı yanına iki dəfə minomyot mərmisi düşsə də, heç nə olmamışdı Asimana. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə kurs rəisi idi. Müharibənin qurtarmasına az qalmışdı, döyüş bölgəsinə ezam olundu. Noyabr ayının 3-ü cəbhəyə yollanan oğlum noyabrın 7-də şəhid oldu. Xocavənd uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucaldı. Ölümündən 3 gün sonra da Vətən müharibəsi qurtardı. Asiman elə bil şəhid olacağını duymuşdu.

Asiman əvvəlcə rayonda çalışan atasını, sonra isə anasını yanına gətirir. Ailəsini bir araya toplayır. Kursantlarını da övladı qədər istədiyindən peşəsinə olan sevgisindən böyük zövqlə danışarmış: “Kaş hər zaman dövlətimizin bayrağı uca olsun”.

Asimanın 40 mərasimi günü anası oğlunun yoxluğuna tab gətirə bilmir, dünyasını dəyişir. Bacısı İmmi Əliyeva o günləri yada salaraq kövrəlir: “Anamı heç nə ilə ovuda bilmədik. Nə mən, nə də digər qardaşım anama təsəlli ola bilmədik. Deyirdi ki, Asiman mənim tək oğlum deyil, qardaşım, dostum, bir sözlə, həyatım idi. O acı ilə yalnız 40 gün yaşadı. Asiman mənim də güvənc yerim idi. Lap uşaq yaşlarımızdan məni qoruyardı. Asimanın yerini heç kim verə bilməzdi”.



Həyat yoldaşı Aysellə 11 il ömür-gün yoldaşı olub Asiman. Bir kənddə böyüyüb, eyni məktəbi bitiriblər. Tale onları Bakıda ali təhsil aldıqları müddətdə yenidən qarşılaşdırıb və bu sevgidən 3 övlad dünyaya gəlib: “Qayğıkeş ata idi. Əsl komandir idi. Vətən müharibəsi başlayan gündən hər gün bir neçə dəfə deyirdi ki, “Bakıda qala bilmirəm, utanıram. Elə hey deyirdi yoldaşlarım cəbhədədir, onlar şəhid oldu. Mən qala bilmirəm”. Beləcə əmri gəldi. Noyabrın 3-dən getdi. Ayın 7-si səhər tezdən danışdıq. Hər şey yaxşıdır dedi, anamgilə de nigaran qalmasın. Bu, bizim son danışığımız oldu. Aprel döyüşləri zamanı bir il onun yanında olmuşuq. Bir ildə həftədə üzünü bir dəfə, bir saat görmüşük”.

Aysel xanım deyir ki, Asiman müharibəyə qatılmaq, cəbhə bölgəsinə getmək üçün tələsirdi. Sonuncu dəfə etdiyi zəngdə “övladlarım sənə əmanət” deyib. İndi Aysel xanımın ən böyük arzusu Asimandan yadigar qalan övladlarının uğuru ilə onun ruhunu sevindirməkdir. Üç övladı Vətənə əmanətdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Asiman Vaqif oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. Xidməti dövründə həmçinin III dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90, 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə mükafatlandırılıb.

***Müşfiq MİRZƏ***
***XQ***

**Vətən oğul deyib azadlıq savaşına çağıranda ayağa qalxmış, silaha sarılmış oğullardan biri, Vətən Müharibəsi Qəhrəmanı, mayor Zaur Hüseynovun döyüş yolu gənclərimiz, gələcək nəsillər üçün örnəkdir.**

# Vətən sədaqəti – oğul şərəfi





Zaur Hüseynov 26 avqust 1987-ci ildə Salyan rayonunda, hərbçi ailəsində anadan olub. Rənglər dünyasına sonsuz sevgisi olsa belə, yalnız hərbi paltarın rənginə könlünü verib. 2002-2005-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2009-cu ildə Ordu yarışlarında qazandığı 29 medalla ali təhsilini fərqlənmə diplomu ilə bitirib.

Daha 1 il Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində zabitlik təcrübəsi toplayıb. Ardınca Qazax rayonunda tank əleyhinə tağım komandiri kimi xidmətə başlayıb, daha bir kursu bitirərək, Xüsusi Təyinatlı Qüvvələr (XTQ) mənsubu olub. Tarixi Aprel döyüşlərində Zaur Hüseynov qəhrəmanlıqla vuruşub. Daha sonra Türkiyədə “Beynəlxalq dalğıc” kursunu bitirib.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin “Sədaqətim şərəfimdir!” şüarı Zaur kimi qəhrəmanların and yeri olub. Vətən müharibəsinin başlanğıcından sonuna qədər zəfər xronikası Zaur Hüseynovun döyüş tərcümeyi-halında öz əksini tapıb. Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azad olunmasında döyüş tapşırığını qəhrəmanlıqla yerinə yetirdiyinə, igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, mayor Zaur Hüseynova “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib.

**Cəngavər hərbçimizin öz döyüş yolu barədə qəzetimizə açıqlamasını oxucularımıza təqdim edirik:**

– Biz bir xalq olaraq Vətənimizi işğalçılardan xilas etmək üçün Ali Baş Komandanın əmri ilə savaşa qalxmışdıq. Bu əmri çoxdan gözləyirdik, səbrimiz tükənmişdi... Ermənistan isə 30 ildən də çox davam edən işğalçılığını bütün dünyaya utanmadan nümayiş etdirirdi. Bu döyüşlər bizim üçün ölüm-qalım savaşı idi. Ölümdən qorxmayan hərbçilərimizin qabağında isə heç bir qüvvə dayana bilməzdi.

Erməni işğalçıları 30 ildə möhkəm səngərlər, bunkerlər, sığınacaqlar hazırlamışdılar. Xüsusilə tank əleyhinə silahlarla tankdan istifadəmizi minimuma endirmişdilər. Yuxarı mövqedə yerləşdikləri üçün bizi daim atəş altında saxlayırdılar. Ona görə də həmin yerləri addım-addım keçməli idik. Xüsusi Təyinatlı Qüvvələrimiz dayanmadan bir həftə gecəli-gündüzlü əfsanəvi döyüş taktikası həyata keçirərək Cəbrayıla girdi. Bu, bizə çox böyük mənəvi ruh verdi.

**Noyabrın 2-də artıq Şuşanın işğaldan azad edilməsi komandasını aldıqlarını söyləyən qəhrəmanımız bildirdi:**

– Tabor komandiri kimi fəaliyyət göstərirdim. Axşam hava qaralandan sonra Şuşa istiqamətinə hərəkətə başladıq. Bilirdik ki, Şuşanı almaq o qədər də asan olmayacaq. Amma hər birimizin ürəyində başqa bir hiss var idi. Bizi bu döyüşlərə ruhlandıran Qarabağın ürəyi Şuşa həsrəti deyildimi?! Şuşa bizim üçün xüsusi bir mənəvi əhəmiyyət kəsb edirdi.

Daşaltı kəndinin 1 km cənubundan gizli şəkildə Şuşaya doğru irəlilədik. Şuşanı müşahidə edə biləcəyimiz mövqeləri təyin etdik. Noyabrın 3-ü Şuşaya hansı yoldan yaxınlaşacağımızı artıq dəqiqləşdirib hücuma başlayacaqdıq. Düşmən Şuşanı müdafiə etmək üçün hər növ texnika və artilleriyanı orada yerləşdirmişdi, səngərlər qazmışdı. Gizli taktikamızla hərəkətə başlamışdıq. Üz-üzə döyüşlər başladı və bizi hər tərəfdən güllə yağışına tutdular. İz buraxan mərmilərdən və işıqlandırma vasitələrindən istifadə edirdilər ki, harada olduğumuzu müşahidə edə bilsinlər. Bunun da xofu onda idi ki, üzərinə gələn gülləni öz gözlərinlə görürsən.

Amma bu, bizi dayandıra bilməzdi. Bir anda hamı ayağa qalxdı və “İrəli!” qışqıraraq düşmən üzərinə həmləyə başladıq. Erməniləri həmin mövqelərdə məhv etdik və Şuşa-Laçın yolunun üzərinə qalxdıq. Daha sonra yolu keçib Şuşa-Laçın istiqamətindəki yüksəklikləri ələ keçirdik. Bunu görən düşmən qüvvələri bizi ağır artilleriya ilə vurmağa başladılar. Bu zaman mən şəxsi heyəti İsa bulağı tərəfdəki dərələrə çəkdim ki, zərbələr igidlərimizə təsir göstərməsin.

Paralel olaraq, komandanlığın göstərişi ilə digər qruplarımız azğın erməni ordusunu aldatmaq, necə deyərlər, başını başqa istiqamətdə qatmaq məqsədilə Daşaltı tərəfdə hücum manipulyasiyaları edirdi.

Artıq İsa bulağında idik. Erməniləri daha da çaşdırmaq üçün bir gün o meşələrdə gizləndik. Paralel olaraq Zarıslı kəndi istiqamətində Şuşa-Laçın yolunu erməni hərbi birləşmələrinin üzünə bağlamaq məqsədilə bir bölməmiz tapşırığı icra edirdi. Biz, həmçinin Şuşaya Xankəndidən gələn yolu da bağlamalı idik. Şuşa şəhərinin içinə həmin istiqamətdən digər qrupla Daşaltı




tərəfdən daxil olmalı idik. Noyabrın 5-i bir gün gözlədikdən sonra Xankəndi istiqamətində hərəkətə başladıq. Şuşanın arxasından irəliləyirdik. Düşməni qəfil yaxalamaq üçün qalxdığımız qədər yolu bir də aşağı düşürdük. Artıq Şuşa-Xankəndi arasındakı dərələrdən keçərək, sıldırım qayalardan, kollardan qalxaraq Xankəndi-Şuşa-Laçın yolu üzərinə qalxdıq. Erməni ordusunun ehtiyat qüvvələri o yolun üzərində cəmlənmişdi. Biz onları məhv edərək Şuşa qalasına doğru gedirdik.

**Düşmən isə artıq nə baş verdiyini belə başa düşmək iqtidarında deyilmiş. Hətta çaşqınlıqdan özlərini atəşə tuturmuşlar. Müsahibimiz həmin məqamdan belə söz açdı:**

– Qala divarlarının qabağında Şamlıq ərazisinə qalxdıq. Zülmət bir gecə idi. Gecəgörmə cihazları ilə bizi daha aydın görən düşmən tanklarla üzərimizə hücum etdi. Orda şəhidlərimiz, yaralılarımız da oldu. Tank əleyhinə raketlərdən istifadə edənlərimiz isə bizim sürətimizlə ayaqlaşa bilmirdi. Çünki 35-40 kiloqram çəkidə olan həmin vasitələri o relyefdə sürətlə daşımaq asan deyildi. Yaralılarımızı, şəhidlərimizi götürüb Qala divarının arxasına keçdik. Onları yaxınlıqdakı evin birinə yerləşdirdik. Düşmən daha böyük qüvvə ilə gəldiyinə görə qruplara bölündük. Bilirdik ki, bu ölüm-dirim savaşından qalib çıxmalıyıq. Mən qala divarları ətrafında şəxsi heyəti yerləşdirdim.

Noyabrın 6-sı səhər üzü Xankəndi istiqamətində düşmənlə döyüşürdük. Tanklar, arxasında piyadalar olan erməni ordusu “tərslik” etsə də, biz döyüş mövqeyimizi əlimizdə möhkəm saxlamışdıq. Dağılmaz Qala divarları bizi öz doğmaları kimi qoruyurdu. O qayalar illərdi ki, bizi gözləyirdi və sanki bizimlə birlikdə döyüşürdü. Qeyri-adi döyüşdə şəhidlərimiz də, yaralılarımız da oldu, amma özümüzü bir an belə itirmədik. Sona qədər qalibiyyətimizə doğru yürüdük .

**Noyabrın 7-si günortadan sonra Şuşanı tam ələ keçirdiklərini deyən Zaur Hüseynov açıqlamasını bu sözlərlə birirdi:**

– Amma döyüşlər noyabrın 10-na qədər davam etdi. Atəşkəs elan edilənə kimi düşmənin artilleriya zərbələri susmaq bilmirdi. Noyabrın 10-u gecə saatlarında atəşkəs elan edildi. Səhər Şuşada “Azercell” şəbəkəsi işləyirdi. Hamı telefonla danışırdı. Sevincdən göz yaşları axıtdığımız anlar, qələbə hayqırtılarımız bu gün sanki bir kino lenti kimi ömrümüzə calanıb. Allah şəhidlərimizə rəhmət eləsin!

***Hazırladı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 303**

**Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**“Ölkə səviyyəsində informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Ölkə səviyyəsində informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi Qaydaları” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 310**

**Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**“Dərman vasitələrinə əlçatanlığın artırılması və maliyyə risklərinin bölüşdürülməsi haqqında müqavilənin nümunəvi forması və bağlanılması Qaydası”nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Əhalinin sağlamlığının qorunması haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dərman vasitələrinə əlçatanlığın artırılması və maliyyə risklərinin bölüşdürülməsi haqqında müqavilənin nümunəvi forması və bağlanılması Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 319**

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

**“Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 279 nömrəli və 7 oktyabr tarixli 294 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq-mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)”nin cədvəlinin 22-ci hissəsinin “cəmi” sütununda “24” rəqəmləri “42” rəqəmləri ilə, “ərazi və yerli bölmələr üzrə” sütununda “18” rəqəmləri “36” rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 320**

**Bakı şəhəri, 28 oktyabr 2025-ci il**

**“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 154-VIIQD nömrəli Qanununun tətbiqi və “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 aprel tarixli 375 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 154-VIIQD nömrəli Qanununun tətbiqi və “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 aprel tarixli 375 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1076 (Cild I); 2024, № 7, maddə 904) ilə təsdiq edilmiş “Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası”nın 5.1-ci bəndinə “Maliyyə Nazirliyinə” sözlərindən sonra “e-mühasibat” informasiya sistemi vasitəsilə elektron qaydada” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 474 (Cild I); 2024, № 5 (II kitab), maddə 584) ilə təsdiq edilmiş “Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları”nın 3.5-ci və 5.2-ci bəndlərinə “Maliyyə Nazirliyinə” sözlərindən sonra “e-mühasibat” informasiya sistemi vasitəsilə elektron qaydada” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 321**

**Bakı şəhəri, 28 oktyabr 2025-ci il**

**“Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının 2.4.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılması Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bakı Kitab Mərkəzində “Zəfər sevinci” adlı musiqili-ədəbi gecə



**Bakı Kitab Mərkəzində ölkəmizin tanınmış elm, mədəniyyət və ictimaiyyət xadimlərinin iştirakı ilə Vətən müharibəsində qazanılan tarixi Qələbənin 5 illiyinə həsr olunmuş “Zəfər sevinci” adlı ədəbi-musiqili gecə təşkil olunub.**

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Tədbirin əvvəlində Vətənimizin azadlığı və torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri açan Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva şəhidlərimizin qəhrəmanlığının hər zaman xalqımızın qürur mənbəyi olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun otuz ilə yaxın düşmən işğalı altında olan torpaqları azad etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şərəfli səhifəsidir.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxışında Vətən müharibəsində qazandığımız Qələbənin xalqımız üçün mənəvi əhəmiyyətindən, şəhidlərin igidliyinin və qəhrəmanlığının gələcək nəsillər üçün örnək rolundan danışıb.

Tədbirdə şəhid Rövşən Nurzadənin atası, Xalq artisti Əli Nur, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin qrup komandiri, Vətən Müharibəsi Qəhrəmanı, şəhid baş gizir Camal İsmayılovun həyat yoldaşı Fatimə İsmayılova, Vətən Müharibəsi Qəhrəmanı, şəhid mayor Elçin Mansurovun anası Məleykə Məcidova çıxış ediblər.

Daha sonra tədbir bədii hissə ilə davam etdirilib. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində fəaliyyət göstərən Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin solistlərinin və Beynəlxalq Muğam Mərkəzinin Cahangir Cahangirov adına Xor kollektivinin ifasında xalq mahnıları və bəstəkar əsərləri səsləndirilib.



Tədbirdə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qəhrəmanlıq səhnələrini, azad edilmiş şəhər və kəndlərin görüntülərini, eləcə də şəhidlərin xatirəsinin əbədiləşdirilməsini əks etdirən videoçarx nümayiş olunub.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 323**

**Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

**“Yüksəkixtisaslı miqrant” portalı haqqında Əsasnamə”nin və “Yüksəkixtisaslı miqrant” portalına inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısı”nın təsdiq edilməsi barədə**

“Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 156 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Yüksəkixtisaslı miqrant” portalı haqqında Əsasnamə” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “Yüksəkixtisaslı miqrant” portalına inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısı” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 329**

**Bakı şəhəri, 3 noyabr 2025-ci il**

**“Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 252 nömrəli Fərmanının 7-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 651 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş 12 nömrəli əlavə - “Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.2.3. hakim vəzifəsində işlədikləri müddət;”;

1.2. aşağıdakı məzmunda 2.2.3-1-ci və 2.2.3-2-ci yarımbəndlər əlavə edilsin:

“2.2.3-1. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;

2.2.3-2. dövlət qulluqçusunun dövlət qulluğu vəzifəsində qulluq stajı;”;

1.3. 2.2.7-ci yarımbənd ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 22 iyul tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 589 (Cild I); 2024, № 3, maddə 326) ilə təsdiq edilmiş “Daxili işlər orqanlarının əməkdaşlarına fasiləsiz xidmət illərinə görə haqqın ödənilməsi üçün xidmət illərinin hesablanması Qaydası”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

“hakim vəzifəsində işlədikləri müddət;”;

2.2. yeddinci − on üçüncü abzaslar müvafiq olaraq səkkizinci − on dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

“digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”;

2.3. on ikinci abzasa “əlaqədar” sözündən sonra “və ya attestasiyanın nəticələrinə görə” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 37 (Cild I) ilə təsdiq edilmiş “Gömrük orqanlarının vəzifəli şəxslərinin fasiləsiz xidmət illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

“hakim vəzifəsində işlədikləri müddət;”;

3.2. yeddinci − on üçüncü abzaslar müvafiq olaraq səkkizinci − on dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

“digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 446 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.10-cu yarımbənddə “işlədiyi müddət” sözləri “qulluq stajı” sözləri ilə əvəz edilsin;

4.2. 2.2.2-ci yarımbənd ləğv edilsin;

4.3. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.2.3. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”;

4.4. 2.2.3-1-ci yarımbənddə “işlədikləri müddət” sözləri “qulluq stajı” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 441 (Cild I); 2024, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Fövqəladə hallar orqanları əməkdaşlarının xidmət illərinin və bununla əlaqədar onlara verilən fasiləsiz xidmət illərinə görə haqqın hesablanması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.10. hakim vəzifəsində işlədikləri müddət;”;

5.2. aşağıdakı məzmunda 2.1.10-1-ci yarımbənd əlavə edilsin:

“2.1.10-1. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Yazıçı xalqın danışan dili, sənətdə vəkilidir

## Müsahibimiz 200-dən artıq əsəri 34 dilə tərcümə edilmiş Xalq yazıçısı Çingiz Abdullayevdir



**Ədəbiyyat cəmiyyətin söz güzgüsüdür — onun ağrı-acısını, sevincini, kədərini, eyni zamanda inkişafını bədii üsullarla əks etdirir. Dövr, zaman dəyişsə, texnologiyalar sürətlə inkişaf etsə də, insanı düşündürən, saflaşdıran və zənginləşdirən sözün gücü heç vaxt azalmır.**

**Oxucunun qəlbinə yol tapmaq, zehnini cilalamaq, bəzən bir millətin taleyini bir cümləyə sığışdırmaq isə yalnız böyük yazıçıların missiyasıdır. "Şərəf" ordenli Xalq yazıçısı Çingiz Abdullayevlə də söhbətimiz ədəbiyyatın cəmiyyətin inkişafındakı rolu, yazıçının məsuliyyəti və bugünkü oxucunun axtarışları barədə oldu. Dünyaca məşhur yazıçı ədəbiyyatın insanın düşüncə tərzini formalaşdırmaqda, milli kimliyi qorumaqda və mənəvi dəyərləri gələcək nəsillərə ötürməkdə oynadığı roldan bəhs etdi.**

**– Beynəlxalq statistikaya görə, Çingiz Abdullayev dünyada ən çox oxunan yazarlardandır. Əsərlərinizdəki qəhrəmanlar oxuculara çox doğma gəlir. Onların xarakterini yaratmaq üçün gerçək həyatdan təsirlənir, yoxsa təxəyyülə üstünlük verirsiniz?**

– Ədəbiyyatın gücü həyatdan qaynaqlanır və buna görə də yazıçı yaratdığı obrazları həyatdan götürməlidir. O, insanın daxili aləmini açmaq, duyğularını oxucuya çatdırmaq üçün geniş dünyagörüşünə malik olmalı, çox oxumalı, müşahidə qabiliyyətini inkişaf etdirməli və ən əsası, insanlarla daim ünsiyyətdə olmalıdır. Yazıçı insanların düşüncəsinə, mövqeyinə bələd olmadan təsirli əsər yarada, oxucu auditoriyası qazana bilməz.

Bir neçə il öncə Türkiyədə dünyanın müxtəlif ölkələrindən detektiv janrda yazan tanınmış yazıçıların iştirak etdiyi "Qara bayram" adlı beynəlxalq tədbirə dəvət olunmuşdum. İstanbulun tarixi Pera Palas hotelində məşhur "Şərq ekspresində ölüm" romanının müəllifi Aqata Kristi, Artur Konan Doyl, Jorj Simenon, Umberto Eko və digər ədəbiyyat nəhənglərinin portretləri qara pərdədən asılmışdı. Mən Umberto Ekodan sonra öz şəklimi gördükdə sözsüz ki, təsirləndim və bir daha əmin oldum ki, yazıçı olmaq böyük məsuliyyətdir.

Sən oxucunun qəlbinə yol tapmağı, onunla mənəvi bağ qurmağı bacarmalısan. Çünki ədəbiyyat yalnız yazıçı ilə oxucu arasında yaranan səmimi körpü üzərində möhkəm dayanır.

**– Detektivləriniz süjet və kompozisiya rəngarəngliyi, yaddaqalan obrazlar, cinayətin törədilməsi və araşdırılması üsullarının ətraflı təsviri ilə fərqlənirlər. Oxucunu daha çox nə maraqlandırır: gərgin süjet xətti, yoxsa hadisələrin qəfil dönüşləri?**

– Bədii əsərdə oxucunun diqqətini adətən qəhrəmanların daxili aləmi, hiss və duyğuları, psixoloji vəziyyəti cəlb edir. Götürək, Fyodor Dostoyevskinin "Cinayət və cəza" romanını. Yazıçı elə əsərin başlanğıcında Raskolnikovun cinayət əməlini oxucuya çatdırır. Amma sonrakı 600 səhifədə onun necə vicdan əzabı çəkdiyini, peşmançılığını, daxili təlatümlərini qələmə alır. Raskolnikovun simasında insanın içindəki "yaxşı" ilə "pis"in mübarizəsini, cəmiyyətin ədalətsizliyinə qarşı etirazı göstərir.

Yaxud da "Karamazov qardaşları"nda Fyodor Pavloviçin ölümündə oğlu Dmitri günahlandırılır, lakin hadisələrin arxasında daha dərin məna dayanır. Qardaşların hər biri daxilində günah və peşmançılıqla mübarizə aparır. Yazıçının bu dərin fəlsəfi romanında ailə münasibətləri, inam, azadlıq, günah, bağışlanma, ədalət və mənəviyyat mövzularını təfərrüatı ilə açması oxucuda maraq oyadır.

Mədəniyyət və incəsənətimizin inkişafında böyük xidmətləri olan görkəmli rejissor Rasim Ocaqov və bəstəkar Emin Sabitoğlu mənim yaradıcılığımı yaxından izləyirdilər. Elə bir misram yox idi ki, onların diqqətindən kənarda qalsın. Hər sətir, hər fikir üzərində düşünür, mənimlə müşahidə və təəssüratlarını bölüşür və deyirdilər ki, "bizi maraqlandıran sənin qəhrəmanlarının çətin vəziyyətlərdə necə davranmalarıdır". Onların bu yanaşması mənim üçün çox dəyərli idi, çünki məhz bu baxış bədii ədəbiyyatın mahiyyətinə - insanın daxili qərar anına yönəlirdi. Yazıçının ustalığı insanı həyatın təzyiqləri qarşısında necə göstərməsindədir. Qəhrəmanların çətin vəziyyətlərdə davranışları, onların mənəvi gücü və ya psixoloji zəifliyi bədii əsərin ən təsirli tərəfidir.

Bəzi insanlar yanlış olaraq düşünürlər ki, yazıçının əsas məqsədi yalnız geniş oxucu kütləsinin maraqlarına xidmət etməkdir. Halbuki bədii ədəbiyyatın mahiyyəti və funksiyası çoxşaxəlidir. Əsl yazıçı həm kütlənin, həm də intellektual oxucunun zövqünü oxşamalı, hər şeydən öncə isə bədii-estetik dəyərləri qorumalıdır.

Ciddi oxucular üçün yazılmış əsərlər, adətən, daha mürəkkəb fikir strukturu, təfəkkür və psixoloji dərinliklə seçilir. Bu cür ədəbiyyat oxucunu düşünməyə, dünyaya fərqli baxmağa təşviq edir.

Böyük Britaniyanın sabiq baş naziri Marqaret Tetçer çıxışlarının birində qeyd etmişdi ki, onun sevimli kitabları detektiv janrına aiddir. Bu etiraf göstərir ki, intellektual təfəkkürə malik insanlar bədii əsərlərdə həm də məntiqi struktur və insan psixologiyasının dərin təhlilini axtarırlar.

Mənim üçün qürurvericidir ki, əsərlərimi Prezident İlham Əliyev və digər yüksək vəzifəli dövlət xadimləri də oxuyur. 18 il dalbadal şahmat üzrə dünya çempionu olan Nonna Qaprindaşvili mənim kitablarımı əldə etmək üçün Moskvaya getmişdi. Bu cür nüfuzlu oxucuların marağı yazıçının nailiyyəti olmaqla yanaşı, onun əsərlərinin intellektual dəyərinin və bədii təsir gücünün göstəricisidir.

**– Cəmiyyətdə yazıçının rolu, əsasən, nədən ibarətdir – əyləndirmək, düşündürmək, yoxsa maarifləndirmək?**

– Yazıçı əsərləri ilə oxucunu düşündürməli, dünyagörüşünü zənginləşdirməli, maarifləndirməlidir. Amma fikrimcə, yazıçının əsas vəzifəsi öz xalqını müdafiə etmək, mədəniyyətini qorumaq, onu dünyada tanıtmaqdır. Əlbəttə ki, bədii əsər oxucunu əyləndirmək və emosional təsir bağışlamaqla yanaşı, cəmiyyətin reallıqları, insan təbiətinin mürəkkəbliyi və sosial ədalət prinsipləri barədə düşünməyə sövq etməlidir. Bu baxımdan, macəra janrı, detektiv hekayələr və maarifləndirici mövzular oxucunun marağını artırmaq üçün vacibdir.

Tarix göstərir ki, yazıçılar yalnız bədii əsər yaratmır, onlar həm də dünyanı dəyişdirə bilirlər. Bu mənada, yazıçının əsas missiyası öz xalqı ilə bir olmaq və elə əsərlər yaratmaqdır ki, yüz ildən sonra yazdığı əsərləri oxuyan nəsil xalqın necə yaşadığını, azadlığı uğrunda necə mübarizə apardığını bilsin. Beləliklə, yazıçının rolu yalnız yaradıcılıqla məhdudlaşmır; o, xalqın vəkili, mədəniyyətin qoruyucusu və tarixin daşıyıcısıdır.

**– Deyirsiniz ki, yaxşı yazıçı əbədiyyətdə xalqın vəkilidir. Adı sağlığında etalonlaşan, dünyanın məşhur yazıçıları sırasında öz yeri olan Çingiz Abdullayev bu missiyanı necə yerinə yetirir?**

– Mənim silahım qələmimdir. Bədii əsərlər gənclərimizin dünyagörüşünü artırmaqla yanaşı, həm də daxili aləmlərini, etik və estetik zövqünü inkişaf etdirir. Kitab təkcə məlumat mənbəyi deyil, insanları formalaşdıran, şəxsiyyətlər yetişdirən güclü vasitədir. Çoxları bilmir ki, 35 il öncə "Qara yanvar" adlı kitabı İbrahim Şükürovla birlikdə yazmışıq. Sonralar eşitdim ki, bu kitaba görə məni həbs etmək istəyirlərmiş, amma mən yazıçı olaraq hadisələrə öz mövqeyimi bildirməli idim. Vətən müharibəsi dövründə 8 dəfə Moskva və eyni zamanda, Amerika televiziyalarında çıxış edərək Azərbaycanın haqlı mövqeyini müdafiə etmişəm, xalqımın qəhrəmanlığını vurğulamışam.

**– 2020-ci ildə xalqımızın Zəfər yürüşü dövründə Rusiyada tanınmış jurnalist Vladimir Solovyonun "Voskresnıy veçer" verilişində iştirakınız, doğrudan da, mənəvi savaş idi.**

– Bəli, həmin verilişdə Azərbaycan–Ermənistan münasibətləri, Qarabağ məsələsi müzakirə olunurdu. Orada çox gərgin anlar yaşandı. Qarşımda beş nəfər əyləşmişdi və onlar Azərbaycanın əleyhinə danışırdılar. Verilişin aparıcısı Solovyov isə açıq şəkildə ermənipərəst mövqe nümayiş etdirirdi. Mənə danışmağa imkan vermirdilər. Buna görə də şərt qoydum ki, əgər sözümü kəssəniz, dərhal studiyanı tərk edəcəyəm. Bundan sonra onların yanaşması dəyişdi, qarşı tərəfin aqressiv tonu bir qədər yumşaldı, sözümü kəsmədilər.

Düzünü desəm, o mübahisəli atmosferdə mənə üstünlük qazandıran bir məqam da vardı: studiyada əyləşənlər mənim kim olduğumu bilirdilər. Solovyovun özü də mənim əsərlərimi oxumuşdu. Mən onlara dedim ki, siz deyirsiniz ki, azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bəs necə olur ki, bu gün İstanbulda yüz minlərlə erməni yaşayır? Bunu necə izah edirsiniz?

Sonra söhbəti əsas məsələyə gətirdim, torpaqlarımızın iyirmi faizinin işğal edildiyini dedim. Təsəvvür edin, on milyonluq xalqın bir milyonu, yəni əhalinin on faizi doğma yurdundan didərgin düşüb. Heç kim onların taleyindən danışmır. Azərbaycanlıların hər on nəfərindən biri öz evini itirib, amma bu, heç kimi narahat etmir. Biz bu reallıqla yaşayırıq, siz bunu düşünməyə belə cəsarət etmirsiniz. Gəlin, bunu Rusiya miqyasında təsəvvür edək. Əgər siz torpaqlarınızın iyirmi faizini itirsəydiniz və əhalinizin on faizi, təxminən, 15 milyon insan qaçqın vəziyyətinə düşsəydi, Rusiya bu zərbə ilə yaşaya bilərdimi?

Heç kim cavab verə bilmədi, hamı susdu. Verilişin yayımlandığı günün səhəri tanınmış siyasi şərhçi, jurnalist Dmitri Şahnazarov efirdə mənim çıxışıma münasibət bildirərək dedi ki, mən azərbaycanlı yazıçını yüz faiz dəstəkləyirəm.

Rusiya kanallarının birində çıxış edən bir erməni mənim sözlərimdən bərk əsəbiləşdi: "Siz heç vaxt qalib gəlməyəcəksiniz, çünki biz əsgər xalqıq". İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra təxribatçı ifadələrlə çıxış edən həmin şəxsin elektron poçt ünvanını tapdım və ona yazdım ki, "nə oldu? haradadır o dediyin əsgər xalq?" Təbii ki, o məktub cavabsız qaldı.

Bütün bunlar bir daha təsdiq edir ki, güc milli iradə və mənəvi birlikdədir. Mənim əsərlərim Ermənistanda da oxunur. Ermənistandan gələn rus və gürcü ziyalılar açıq şəkildə deyirlər ki, orada mənim kitablarıma böyük maraq var. "Facebook", "Instagram" kimi platformalarda erməni oxucular mənə yazır, fikirlərini bölüşürlər. Mən çox sevinirəm ki, onlar azərbaycanlı yazıçının əsərlərini oxuyurlar. Bunu ədəbiyyatın birləşdirici gücünün sübutu kimi qəbul edirəm. Ədəbiyyatın sərhədləri yoxdur və o, xalqlar arasında körpüdür.

**– Amerikanın nüfuzlu jurnalları sizi siyasi dedektiv janrının banisi adlandırırlar. Soyuqqanlı, analitik düşüncəyə malik, ədalət axtarışında olan Dronqo Çingiz Abdullayevin əbədi obrazına çevrilib. Niyə bu janra daha çox üstünlük verirsiniz?**

– İlk növbədə, ona görə ki, mən hüquqşünasam. Digər bir tərəfdən, XIII əsrdə Dante «İlahi komediya» ilə ümumbəşəri mənzərəni, XIX əsrdə Onore de Balzak «İnsan komediyası» ilə cəmiyyətin sosial mozaikasını, XX əsrdə isə Con Qolsuorsi «Müasir komediya» ilə öz dövrünün mənzərəsini təsvir etmişdi. Mən də fikirləşdim ki, bütün kitablarımı birləşdirsəm «Kriminal komediya» yaza bilərəm.

Doğrudan da son 20-30 ildə hadisələr bu fonda cərəyan edir. Balzak deyirdi ki, insanları iki şey maraqlandırır: pul və ölüm. Hətta, sevgi, məhəbbət belə pul və ölüm qədər maraqlı deyil. Detektivdə isə bunların hər ikisi var. Yazıçı elə kitab yazmalıdır ki, onu oxumaq istəsinlər. Mən əsəri yazanda hesab etmirəm ki, işləyirəm, mən o aləmdə yaşayıram. Əgər belə olmasaydı, 200 romanım hasilə gəlməzdi. Maraqlıdır ki, dünyada detektiv janrda kitabları 60, 70 faiz kişilər oxuyur. Mənim əsərlərimi isə əksinə, 70 faiz qadınlar oxuyurlar.

**– Ədəbiyyatımızın indiki vəziyyəti barədə fikirlərinizi də bilmək istərdik...**

– Hesab edirəm ki, müəyyən irəliləyişlər mövcuddur. 60-cı illərdə ölkəmizdə böyük bir ədəbi axın olmuş, çox sayda istedadlı gənc yetişmişdi. Lakin 1980-1990-cı illərdə böyük bir nəsli itirdik. İndi yeni nəsil yetişir. Bir neçə gün əvvəl İlqar Fəhminin "Şah Abbas" əsəri əsasında səhnələşdirilən tamaşada oldum. Onun yaradıcılığı diqqətimi cəlb etdi. Bu isə mənə böyük sevinc və ümid verir, çünki yeni nəslin inkişafı əsas şərtdir.

İspaniya səfərindən yenicə qayıtmışdım. Gənc bir oğlan əlyazmalarını gətirmişdi ki, oxuyum, ayaqüstü söhbətimizdə Müqəddəs Hiralda, Siviliya kimi mədəni-mənəvi məkanlardan danışdı. Onun bu qədər məlumatlı, geniş dünyagörüşünə malik olması məni çox təəccübləndirdi. Yazılarını oxuduqdan sonra onu Yazıçılar İttifaqına üzv qəbul etdik.

Hazırda Ramiz Dənizin əsərləri bir neçə dilə tərcümə olunub və akademik mühitdə yüksək qiymətləndirilir. Bu fakt bir daha göstərir ki, qarşıda bizi çox gözəl işlər gözləyir. İnanıram ki, biz elə bir sistemi qura bilərik ki, Azərbaycan yazıçıları dünyada tanınsınlar. İstərdim ki, gənclərimiz internet vasitəsilə öz kitablarını Azərbaycan, rus və ingilis dillərində yayımlasınlar və bu kitablar dünyanın hər yerində oxunsun.

**– Bugünkü ədəbi mühitdə yazıçı missiyasını, ictimai nüfuzunu necə qiymətləndirirsiniz? Onların səsi cəmiyyətdə yetərincə eşidilirmi?**

– 1988-ci ildə Qarabağ hadisələri başlayanda milyonlarla insan küçələrə axışır, birbaşa Yazıçılar İttifaqına üz tuturdular. Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Yusif Səmədoğlu, Xudu Məmmədov, Sabir Rüstəmxanlı kimi ictimai nüfuz sahibi olan yazıçılardan tələb edirdilər ki, bizə yol göstərin. Onlar rəhbərlərin deyil, yalnız yazıçıların sözünə etibar edirdilər.

Bu gün xalqın öz yazıçısına, şairinə etimadı o illərdə olduğu qədər güclü deyil. O dövr sözün çəkisinin ağır olduğu keçid mərhələsi idi; cəmiyyət sosializm modelindən kapitalizmə transformasiya edirdi. Müasir cəmiyyətdə çox təəssüf ki, uğur və nüfuz əksər hallarda maddiyyatla ölçülür. Bu, çox narahatedici və düşündürücüdür. Müasir cəmiyyətdə varlı şəxslər yazıçılara və alimlərə meydan oxuyurlar.

Əslində, xalqın mədəni və mənəvi gələcəyini formalaşdıran məhz yazıçılar, akademiklər və sənətkarlardır. Gələcək nəsillər bu yazıçıların əsərlərini oxuyacaq, onların yaradıcılığından, qoyduqları mədəni irsdən bəhrələnəcəklər. Təəssüf ki, bu dəyər anlayış hər kəs tərəfindən qəbul edilmir. XX əsrdə ən hörmətli şəxslər yazıçılar, bəstəkarlar, rəssamlar və akademiklər olmuşdur. Müasir dövrdə onlara hörmət əvvəlki səviyyədə deyil.

**– Əsərləriniz 34 dilə tərcümə olunub. Azərbaycan ədəbiyyatının dünya oxucusuna çatdırılmasında hansı maneələr görürsünüz? Yəni tərcümə zəifdir, yoxsa əsər yoxdur?**

– Tərcümələr zəifdir. Əvvəllər mənim kitablarımı kompüterdə tərcümə edib buraxırdılar. İndi isə Türkiyədə "CS Press" nəşriyyatında rus, ingilis, türk və Azərbaycan dillərində çox nəfis tərtibatda çap edilir. Təcrümələr də çox gözəldir. Bütün nəşrlərdə mənim barmaq izim var. İndiyədək 120 kitabım çap olunub.

Ümumilikdə, 10 filmə ssenari yazmışam. 2 serial xaricdə, 8 ekran əsərindən 3-ü Azərbaycanda çəkilib. Bunlardan birini Ənvər Əbluç, birini Mehriban Ələkbərzadə, digərini isə Yəvər Rzayev çəkib. Qalan 5 əsər Rusiyada, 1-i Almaniyada, 1-i isə Tacikistanda çəkilib.

**– Sizcə, ən qiymətli əsəriniz hansıdır?**

– 200-dən çox kitabım var və bunlar hamısı mənim övladlarımdır. Anadan soruşsanız ki, uşaqlarından hansını daha çox istəyirsən. Bu suala cavab vermək çox çətindir. Qədim Roma haqqında olan "Eramızın əzəlində sui-qəsd" əsərini 12 ilə ərsəyə gətirmişəm. "Mavi mələklər"i 23-24 yaşında yazmışam. Bu baxımdan, hər bir kitabım mənim üçün qiymətlidir. Bir dəfə Oqonyok jurnalı yazmışdı ki, Çingiz Abdullayev adında insan yoxdur. Bir yazıçı necə bu qədər kitablar yaza, çoxsaylı əsərləri tərcümə oluna, mükafatlar, orden və medallar ala bilər?

Mən redaksiyaya məktub göndərdim ki, yoxlayın. Əgər bu kitabları mən yazmamışamsa, cərimə ödəyəcəm. Mən yazmışamsa, o zaman siz üzr istəyəcəksiniz. Mixail Qusman və jurnalın baş redaktoru Viktor Loşuk Bakıda Slavyan Universitetində olarkən dedilər ki, yoxlamışıq, hamısını Çingiz Abdullayev yazıb.

Bilirsiniz, Moskvada belə şeylər edirlər. Deyirlər ki, sən kitab yazma, biz sənin yerinə yazarıq. Bir dəfə mənə bunu deyəndə, mən çox hirslənmişdim, belə şey olar? Əgər mənə desələr ki, 20 saat divanda uzan, bunu edə bilmərəm. Amma elə vaxt olub ki, 20 saat oturub yazmışam. Mən yazıb-yaratmaq üçün gəlmişəm bu dünyaya. Onu da deyim ki, yaradıcı insan tanınmaq istəyir: yazıçının əsas istəyi onun əsərlərinin oxunmasıdır, rəssam istəyir ki, əsərləri nümayiş olunsun. Bəstəkar arzu edir ki, musiqisi dünyada səslənsin. Yazıçı susa bilmirsə, o əsl yazıçıdır.

**– Ədəbiyyatımızın mövcud problemləri daha çox bazar münasibətləri, oxucu zövqü, yoxsa ideya məhdudiyyəti ilə bağlıdır?**

– İdeya məhdudiyyəti ilə bağlıdır. Azərbaycan ədəbiyyatında fentezi, siyasi detektiv janrı yoxdur. Siyasi detektiv yazmaq üçün yazıçı, ilk növbədə, dünyanı gəzməlidir. Elə başa düşürlər ki, fentezi janrı fantastikadır. Amma belə deyil. Vaqif Səmədoğlunun bir sözü vardı ki, biz düz yüz il gecikirik. Mən hesab etmirəm ki, gecikirik. Bizdə elə gənclər var ki, kitablarını ingilis dilində yazırlar. Mən o cavanlara çox ümid bəsləyirəm.

Yadımdadır, 90-cı illərdə evlərdən kitabları çıxarıb atırdılar ki, nəyə lazımdır. O vaxt Bakıda 114 kitab mağazasının hamısı bağlanmışdı. Bir müddət sonra yenidən açmağa başladılar, anladılar ki, kitaba hər zaman ehtiyac var.

Ümumiyyətlə, ədəbiyyatımızda mövcud problemlər həm oxucuların, həm də yazıçıların zövqü ilə bağlıdır. Yazıçılar elə yazmalıdırlar ki, əsərləri oxunsun. İnsanlar da dövrün çətinliklərinə, məişət problemlərinə baxmayaraq, kitab oxumalıdırlar. Kitabsız cəmiyyəti təsəvvürümə belə gətirmək istəmirəm.

**– İkinci Dünya müharibəsindən sonra çox qiymətli əsərlər yarandı. Artıq Qarabağ zəfərinin 5-ci ildönümünü qeyd etdik. Bu zaman çərçivəsində sanballı əsərlər yarandımı?**

– Bəli, Sabir Rüstəmxanlı, Aqil Abbas və başqaları yaxşı əsərlər yazıblar. Xatırlayırsınızsa, Zori Balayan Xocalı faciəsi zamanı Azərbaycan qadınlarına, uşaqlarına necə zülm etdikləri barədə yazmışdı. Çox adam biz yazıçılara deyirdi ki, bəs siz niyə belə kitablar yazmırsınız. Mən fəxr edirəm ki, biz belə kitablar yazmamışıq.

Mən 2023-cü ildə Qarabağdaydım. Biz nə etdik? Onlara çörək, su verib, yola saldıq. Biz insanları öldürmədik, uşaqlara zülm etmədik, qadınları zorlamadıq, əclaf, vicdansız olmadıq. 100 min adam Qarabağdan könüllü getdi və bir adamın burnu belə qanamadı. Tarixdə belə şey olmayıb. Bu da bizim ədəbiyyatımızın təsiridir. Belə olmasaydı, biz də onlar kimi vəhşilik edərdik.

Bir alim yazmışdı ki, bizim yazıçılarımız gənc nəsli ermənilərə nifrətlə böyütməlidirlər. Xeyr, bu, yanlış fikirdir. Biz kitablarımızı yazanda birinci növbədə fikirləşirik ki, insan insan olmalıdır. Bax, bu bizik. Bizim Nizamidən, Dədə Qorquddan, Füzulidən, Nəsimidən üzü bəri ədəbiyyatımız gənclərimizi vətənpərvər, mərd, cəsarətli böyüdüb.

**– Oxucuları hansı mövzuda əsərlər gözləyir?**

– Bir ssenari, bir siyasi detektiv və detektiv yazıram.

**– Sizcə, kitablar rəqəmsal platformalarla rəqabətdə mövqeyini qoruya biləcəkmi?**

– Bu, çox çətin məsələdir, amma çalışmalıyıq ki, kitab yaşasın. Dövr, zaman dəyişsə də kitab həmişə olacaq. Baxın, bütün böyük dinlər kitabla başlayır. İslam Quranla, yəhudilər Tora, xristianlar Bibliya, Avesta ilə. Bu baxımdan, kitab müqəddəsdir və ola bilməz ki, insanlar kitab oxumasınlar.

2005-2006-cı illərdə kağız kitablar azalmışdı, elektron kitablara üstünlük verilirdi. Son 10 ildə isə kağız kitablar daha çox satılır. Artıq yaşından, mövqeyindən, vəzifəsindən asılı olmayaraq, hər kəs başa düşür ki, kitab oxumalıdır. Kitabsız cəmiyyətdə tərəqqidən, inkişafdan söhbət gedə bilməz.

*Müsahibəni apardı:*
***Mehparə ƏLİYEVA***
***XQ***

# “Oğlumuz, atamız qəhrəmandır”







**Noyabrın 5-də 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin 5 illiyinə həsr olunan şənlik keçirilib.**

Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən tədbirə ölkəmizin müxtəlif bölgələrindən gələn Birinci Qarabağ müharibəsi, Vətən müharibəsi, Aprel və Tovuz döyüşləri, eləcə də antiterror əməliyyatları zamanı şəhid olmuş qəhrəmanlarımızın anaları dəvət olunub.

“Fire Land Group” tərəfindən təşkil olunan təntənə həm də “Mənim oğlum qəhrəmandır!” layihəsinin 5 illik yubileyinə təsadüf edib.

Çıxış edənlər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun şücaətindən və 44 günlük Vətən müharibəsində tarixi Zəfər nəticəsində torpaqlarımızın erməni işğalından azad edilməsindən, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının qəhrəmanlıqlarından danışıblar.

Tədbir zamanı “44” adlı tammetrajlı bədii filmin treylerinin təqdimatı olub. Film Vətən müharibəsində Zəfərə gedən yoldan, Ordumuzun qəhrəmanlığından bəhs edir.

Daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış ediblər.

Sonda şəhid ailələri Leyla Əliyeva və Arzu Əliyevaya xatirə hədiyyəsi təqdim ediblər. Onlar dövlətimizin və Heydər Əliyev Fondunun hər zaman şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

Artıq 5 ildir ki, “Mənim oğlum qəhrəmandır!” və “Mənim atam qəhrəmandır” layihələri çərçivəsində şəhidlərimizin xatirəsi yad edilir, onların ailələri bir araya gətirilir. Bu illər ərzində keçirilən silsilə tədbirlərdə ümumilikdə 5000-ə yaxın şəhid anası və 1700-dən çox şəhid övladı iştirak edib.

O cümlədən bu il Ramazan ayı ərzində “Mənim oğlum qəhrəmandır!” layihəsi üzrə Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən görüşlərdə Azərbaycanın bütün bölgələrindən 2000-ə yaxın şəhid anası bir araya gəlib.

Qeyd olunan tədbirlər şəhid ailələrinə diqqət və qayğının, onların qəhrəman övladlarının xatirəsinə ehtiramın ifadəsi olmaqla yanaşı, bu istiqamətdə dövlət tərəfindən görülən işlərə dəstək məqsədi daşıyır.

***XQ***

# Leyla Əliyeva və Arzu Əliyeva arıçılıq məhsulları yarmarkasında







**Noyabrın 5-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva 25-ci Yubiley Arıçılıq Məhsullarının Ənənəvi Respublika Sərgi-Satış Yarmarkasını ziyarət ediblər.**

Ziyarət zamanı Leyla Əliyeva və Arzu Əliyeva stendlərə baxış keçirib, arıçıların təqdim etdikləri müxtəlif növ bal və arıçılıq məhsulları ilə maraqlanıb, istehsal prosesi, keyfiyyət göstəriciləri barədə məlumat alıblar. Onlar arıçılarla mövsümi məhsuldarlıq və satış imkanları barədə səmimi söhbət edib, xatirə şəkilləri çəkdiriblər.

Bu il yarmarkada 43 regiondan 280-dən çox fermer iştirak edir. IDEA İctimai Birliyinin təşəbbüsü ilə gənclər arasında ekoloji sahibkarlığın təşviqi məqsədilə həyata keçirilən “Gənc arıçı” layihəsinin iştirakçıları yarmarkada fəal şəkildə iştirak ediblər. Yarmarkaya 4 “Gənc arıçı” ailəsi tərəfindən ümumilikdə, 1128 kiloqram bal təqdim edilib.

Xocalı rayonunda fəaliyyət göstərən “Güllü Yaylaq” arıçı kooperativi yarmarkada ilk dəfə təmsil olunub. Kooperativin yaradıcısı - Xocalı rayonunun Ballıca kəndindən olan Qənirə Əsədova uzun illərdir arıçılıqla məşğuldur. Hazırda “Güllü Yaylaq” kooperativi 5 üzvdən ibarətdir və yarmarkaya 6 növ arıçılıq məhsulu daxil olmaqla 400 kiloqram məhsul təqdim edib.

Həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə bu ilin sentyabrında Kəlbəcər rayonunda keçirilmiş “Kəlbəcər bal festivalı 2025”in iştirakçıları yarmarkada məhsullarını təqdim ediblər.

Yarmarkada 100 tondan çox bal və 15 növdən çox müxtəlif arıçılıq məhsulu satışa çıxarılıb.

*Sosial gündəm*

# Sosial layihələr rifahı yüksəldir, məmnunluğu artırır

## *Qarabağ və Şərqi Zəngəzura qayıdanlar da zəruri xidmətlərlə əhatə olunur*

**Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla ədaləti və beynəlxalq hüququ təmin etmiş qalib Azərbaycan dövləti vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişlərə yol açan güclü sosial siyasət həyata keçirir.**

Azərbaycanın sosial siyasət modeli həm regional, həm də beynəlxalq səviyyədə dayanıqlılıq, ədalətlilik və innovativ idarəetmə nümunəsi kimi dəyərləndirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar, əsasən, təqaüdlərin artırılması, sosial yardımların ünvanlı və şəffaf şəkildə verilməsi, əmək bazarının inkişafı, yeni iş yerlərinin yaradılması və məşğulluq proqramlarının genişləndirilməsi kimi sahələri əhatə edir. Əsas məqsəd əhalinin rifahını yüksəltmək və sosial-iqtisadi dayanıqlılığı təmin etməkdir.

Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyi sosial xidmətlərin göstərilməsində yeni yanaşma formalaşdırdı. Layihə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsüdür. 2019-cu ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ilk DOST Mərkəzi istifadəyə verildi və bununla da dövlət sosial xidmətlərinin göstərilməsində şəffaflıq, operativlik və vətəndaş məmnunluğuna əsaslanan “bir pəncərə” prinsipi reallaşdırıldı. Dövlət başçısı mərasimdə bildirmişdi: “Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir”.






Azərbaycan brendi olan və artıq dünya ölkələrinin maraq göstərdiyi, BMT-nin dəstəklədiyi «ASAN xidmət», Dayanıqlı Operativ Sosial Təminat (DOST), özünüməşğulluq proqramının tərkib hissəsini təşkil edən Ailə Biznesinə Asan Dəstək (ABAD) kimi layihələrin qabaqcıl təcrübə olaraq beynəlxalq səviyyədə öyrənilməsi, yayılması ölkəmizdə aparılan sosial islahatlara verilən dəyərdir.

Hazırda DOST mərkəzləri əmək, məşğulluq, sosial müdafiə, reabilitasiya və əlillik sahələrində 13 istiqamət üzrə 161 adda xidmət təqdim edir. Ölkə üzrə fəaliyyət göstərən 7 DOST mərkəzi, Zəngilanın Ağalı kəndində “Smart DOST” xidmət məntəqəsi, Qarabağ Regional DOST Mərkəzinin Şuşa filialı və Kəlbəcər DOST məntəqəsi vasitəsilə 3,9 milyondan çox vətəndaş bu xidmətlərdən faydalanıb, vətəndaş məmnunluğu səviyyəsi isə 98,6 faizdir. Ümumilikdə, 14 regional DOST mərkəzi və 64 filialın istifadəyə verilməsi planlaşdırılır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində işğaldan azad olunmuş Qarabağ və ətraf rayonlarımız yeni görkəm alır, ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Sosial xidmət infrastrukturunun bərpası da prioritet istiqamətlərdəndir. Bu məqsədlə “Qarabağ və Şərqi Zəngəzur” DOST proqramı həyata keçirilir. DOST konsepsiyası Azərbaycanın gələcəyə baxışının sosial simvoluna çevrilib – ədalət, şəffaflıq, operativlik və vətəndaş məmnunluğu prinsipləri üzərində qurulmuş bu model sosial rifahın təminatında yeni mərhələdir. Proqramın təqdimatı 2024-cü ilin yayında Şuşada baş tutub.

2022-ci ilin mayında Zəngilan rayonunun Ağalı kəndində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılan ilk “Smart DOST” məntəqəsi “Ağıllı kənd” layihəsinin mühüm tərkib hissəsidir. “Smart DOST” sistemi vətəndaşlara onlayn rejimdə 100-dən çox xidmətdən yararlanmaq imkanı yaradır. Burada müraciətlər virtual formada qəbul olunur, sosial agentlər məsafədən xidmət edir, texniki dəstək üçün yerli əməkdaş fəaliyyət göstərir. Bu model gələcəkdə Qarabağ və Şərqi Zəngəzurun digər şəhərlərində də tətbiq ediləcək.

2023-cü il avqustun 7-də Bərdədə istifadəyə verilən Qarabağ Regional DOST Mərkəzində Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Şuşa, Xocavənd, Ağdərə rayonları və Xankəndi şəhər sakinlərinə xidmət göstərilir. 80 nəfərdən ibarət işçi heyətin, 30 könüllünün çalışdığı bu Mərkəz hər gün təqribən 250-300 vətəndaş qəbul edir. Son iki ildə 160 minə yaxın vətəndaşa xidmət göstərilib, vətəndaş məmnunluğu səviyyəsi isə 99,8 faiz təşkil edib.

Mərkəzin nəzdində Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi də fəaliyyət göstərir. 7 emalatxana, 8 sinif və təlimat otağı, eləcə də Peşəyönümü və Karyera Mərkəzi, inzibati və texniki otaqlardan ibarət Mərkəzdə 20-dək əməkdaş çalışır. Burada 48 peşə istiqaməti üzrə tədrisin həyata keçirilməsi, bir dəfədə 300, ildə 1200 nəfərin peşə hazırlığı keçməsi üçün hər bir şərait yaradılıb. Qarabağ Regional DOST Mərkəzində fəaliyyət göstərən “RehaPoint” – Reabilitasiya Məntəqəsində isə bölgə sakinlərinə reabilitasiya xidmətləri göstərilir.

Dövlət başçısının iştirakı ilə 2024-cü il iyulun 5-də Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzi istifadəyə verilib. Bu Mərkəzin tərkibində yaradılan Qarabağ Regional DOST Mərkəzinin Şuşa filialı azad edilmiş ərazilərdə sosial xidmətlərin bərpasında mühüm addım olub. Burada DOST xidməti ilə yanaşı, “ASAN xidmət”, “KOB evi” və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin bölmələri fəaliyyət göstərir. Mərkəzin işçi heyətinin hamısı Şuşa şəhərinin sakinləridir ki, bu da yerli məşğulluğun artırılmasına xidmət edir.

Böyük Qayıdış Proqramına uyğun olaraq Kəlbəcər rayonunda əhali üçün dövlət xidmətlərinə rahat çıxış imkanı yaradılıb. 2025-ci ilin avqust ayında fəaliyyətə başlayan Kəlbəcər DOST məntəqəsində doğma yurdlarına qayıdan sakinlərə “bir pəncərə” prinsipi əsasında, müasir, çevik və şəffaf mexanizmlərlə xidmət göstərilir. Burada məşğulluq, sosial müdafiə və digər xidmətlərlə yanaşı, sahibkarlıq təşəbbüslərinə dəstək imkanları da yaradılıb. Kəlbəcər DOST məntəqəsi Qarabağ Regional DOST Mərkəzinin xidmət əhatəsini genişləndirərək bölgədə sosial xidmətlərin keyfiyyətini daha da yüksəldir. Bu, DOST konsepsiyasının işğaldan azad edilmiş ərazilərdə genişlənməsinin növbəti mərhələsidir.

Qarabağ və Şərqi Zəngəzurda sosial xidmət infrastrukturunun bərpası dövlət siyasətinin prioritet istiqamətlərindəndir. “Qarabağ və Şərqi Zəngəzur” DOST proqramının icrası nəticəsində bu bölgələrdə vətəndaşlara şəffaf, sürətli və innovativ sosial xidmətlər təqdim olunur. Qarabağ və Şərqi Zəngəzurda DOST infrastrukturunun genişləndirilməsi üçün hazırda işlər davam edir.

***Mustfi K AMAL***
***XQ***

# Yeni mərhələli vergi güzəşti necə tətbiq olunacaq?

**7 il bundan əvvəl müvafiq qanunvericiliyə əsasən qeyri-neft sektorunun özəl bölməsində çalışan vətəndaşların əməkhaqqından tutulan vergilər üzrə güzəştlərin tətbiqinə başlandı. Noyabrın 4-də isə respublika mediasında artıq həmin müddətin gələn il yanvarın 1-dən bitəcəyi barədə məlumat yayıldı.**



Əslində, bu, informasiyada diqqətçəkən bir yanlışlıq ilk andan narahatlıq doğurdu. Burada 2026-cı il yanvarın 1-dən etibarən ölkə üzrə nəzərdə tutulmuş vergi güzəştinin müddətinin bitməsi yox, onun növbəti illərdə də mərhələli şəkildə tətbiq ediləcəyi vurğulanmalı idi.

Yeri gəlmişkən, 2019-cu ildən etibarən həyata keçirilən və 2026-cı ilin yanvarın 1-də başa çatacağı nəzərdə tutulan qanunvericiliyə əsasən aylıq əməkhaqqı 8 min manata qədər olan vətəndaşın sözügedən sahə üzrə gəlir vergisinə 7 il müddətində 100 faizlik güzəşt verilmişdi. Əməkhaqqı 8 min manatdan çox olan muzdlu işlə əlaqədar gəlir əldə edən fiziki şəxslərin isə 14 faiz gəlir vergisi ödəmələri qərara alınmışdı. Bu, dövlətin qeyri-neft sektorunun özəl bölməsinə çox böyük fiskal güzəştə getməsi demək idi. Həmin vergi güzəştinin tətbiqi "kölgə iqtisadiyyatı"nın həcmini azaltmaq, qeyri-rəsmi məşğulluğun qarşısını almaq, xüsusilə qeyri-neft sektorunun özəl bölməsində iqtisadi fəallığı daha da canlandırmaq məqsədi daşıyırdı.

Xatırladaq ki, ötən müddətdə sadalanan istiqamətlər üzrə genişmiqyaslı layihələr reallaşdırılıb və bu, hazırda da davam etdirilir. Ona görə də burada söhbət heç də nəzərdə tutulmuş vergi güzəştinin müddətinin başa çatmasından yox, onun növbəti illərdə də mərhələli şəkildə tətbiqinin diqqət mərkəzində saxlanılmasından, daha konkret desək, reallaşdırılmasından gedir.

Ekspertlər bildirirlər ki, vergi güzəştinin mərhələlərlə həyata keçirilməsi ilə bağlı layihələr gələn ildən başlanacaq. Belə ki, 2026-cı il yanvarın 1-dən 2027-ci ilədək vətəndaşın iş yerində gəliri 2500 manatadək təşkil edərsə, ondan yalnız 3 faizi vergiyə cəlb olunacaq. Yəni 2500 manatadək olan məbləğdən cəmi 75 manat vergi tutulacaq. 2500 manatdan 8 min manatadək olan məbləğin 10 faizi vergiyə cəlb olunacaq. 8 min manatdan yuxarı əməkhaqqı alan şəxslərdə isə bu, 14 faiz təşkil edəcək. Eyni zamanda, 8 min manatdan yuxarı əməkhaqqı alan hər bir şəxs 625 manat, üstəgəl 8 min manatdan yuxarı məbləğin 14 faizi qədər, 2500 manatdan 8 min manatadək əməkhaqqı alan isə 75 manat, üstəgəl 2500 manat və 8 min manat məbləğin 10 faizi həddində vergi ödəyəcək.

2027-ci ildən etibarən isə aşağı gəlir həddində olan şəxslər üçün vergi 2 faiz artırılaraq 5 faizə çatdırılacaq. Yəni 2500 manatadək əməkhaqqı alan şəxsin vergisi 5 faiz, 8 min manatadək maaşa sahib vətəndaşın vergisi isə 10 faiz olacaq. 8 min manatdan yuxarı əməkhaqqı alan şəxslər isə 2027-ci ildən etibarən 675 manat, üstəgəl 8 min manatdan yuxarı olan məbləğə görə vergi ödəyəcək. Proses 2028-ci ildə yekunlaşacaq və həmin vaxtdan etibarən özəl sektorda çalışan şəxsin vergisi 2500 manatadək olan gəlirin 7 faizi səviyyəsində müəyyənləşəcək.

Hökumət üçpilləli rejimlə vergi tətbiq edəcək. Gəlirlərin yuxarı hissəsində isə fərqli vergi dərəcələri tətbiq olunacaq ki, bu da proqressiv vergi sisteminin xüsusiyyətlərinə uyğun gələcək. Belə ki, əgər vətəndaş əvvəllər 2500 manatadək olan məbləğin 14 faizi qədər vergi verirdisə, 2026-2027-ci illərdə 3 faiz ödəyəcək. Amma onun pensiya fonduna olan ödənişi əvvəlki kimi 10 faiz həddində qalacaq. Bununla da hökumət gələcəkdə vətəndaş pensiyaya çıxdıqda pensiya kapitalının formalaşdırılması üçün ödəmələri saxlayacaq. Yəni birbaşa 14 faizin cəmi 7 faizi ilk mərhələdə vətəndaşın gəlirlərindən tutulacaq.

Beləliklə, 2500 manatadək əməkhaqqı alan şəxslərin vergi yükü 3 faiz artacaq. Halbuki əvvəl əgər 2500 manatadək əməkhaqqı alan şəxslərdə ümumi maaşdan tutulmalar, təqribən, 12,5 faiz idisə (10 faiz pensiya fondu, 2 faiz icbari tibbi sığorta fondu və 0,5 faiz məşğulluq fondu), artıq bu rəqəm 15,5 faizədək artacaq.

Bütün bunlar deməyə əsas verir ki, ölkəmizdə həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Noyabrın 4-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin keçirilən iclasında çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov da bu barədə danışarkən bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində dövlətimizin beynəlxalq nüfuzu, iqtisadi qüdrəti və hərbi potensialı əsaslı şəkildə güclənib. Dünya iqtisadiyyatında qeyri-müəyyənliyin davam etdiyi və risklərin artdığı bir şəraitdə respublikamızda makroiqtisadi sabitlik hökm sürür, xarici ticarət balansında davamlı müsbət saldo müşahidə olunur, strateji valyuta ehtiyatları artmaqda davam edir və qeyri-neft-qaz sektoru üzrə fiskal daxilolmalar hesabına dövlət büdcəsinin maliyyə dayanıqlığı daha da güclənir.

Nazir diqqətə çatdırıb ki, 2026-cı il üçün dövlət büdcəsi layihəsinin hazırlanmasında ölkə iqtisadiyyatının cari vəziyyəti qiymətləndirilməklə daxili və xarici amillər nəzərə alınıb və müxtəlif makroiqtisadi ssenarilər nəzərdən keçirilib. Vurğulanıb ki, Azərbaycan iqtisadiyyatı həm son illərdə, həm də cari ildə dayanıqlı inkişaf nümayiş etdirib.

2025-ci ilin gözlənilən artım tempi nəzərə alınmaqla 2022-2025-ci illərdə orta illik hesabla ÜDM-in 3,3 faiz artması gözlənilir. Bu artım tamamilə qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin olunmaqla, bu sahədə ÜDM-in orta illik artımının 6,1 faiz olacağı proqnozlaşdırılır. Son illərdə ölkənin ixrac imkanları da genişlənməkdədir. 2025-ci ilin gözlənilən göstəricisi nəzərə alınmaqla, 2019-2025-ci illərdə qeyri-neft-qaz ixracının 2,3 dəfə artması gözlənilir. Ölkənin strateji valyuta ehtiyatları isə 2018-ci ilin sonundan 2025-ci ilin 1 oktyabrınadək 1,8 dəfədən çox artaraq 81,5 milyard ABŞ dolları təşkil edib.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru,**
**professor, "Ekonomiks"**
**Beynəlxalq İqtisadi Araşdırmalar**
**İctimai Birliyinin sədri**

Milli Məclisdə gələn ilin dövlət büdcəsinin layihəsi müzakirə edilir. Vətəndaşlarımız növbəti ilin büdcəsində hansı dəyişikliklərin baş verəcəyini diqqətlə izləyir. Əslində belə də olmalıdır. Çünki büdcə vətəndaşların hüquqi və ya fiziki şəxs olaraq ödədikləri vergilərin və digər ödənişlərin hesabına formalaşır. Nəzərə alsaq ki, büdcənin xərclərinin 40 faizdən çoxu sosial yönümlü xərclərdir, o halda növbəti ilin büdcəsinin göstəricilərinin hər bir vətəndaş üçün nə qədər maraqlı olması tam təbiidir.

Növbəti ilin büdcəsində baş verən əsas dəyişikliklərdən biri 2019-cu il yanvar ayının 1-dən etibarən əmək haqqından tutulan gəlir vergisinə tətbiq edilən güzəştin 2026-cı ildən başlayaraq mərhələlərlə aradan qaldırılması olacaq. Xatırladaq ki, bu güzəşt dünyada baş vermiş və ölkəmizdə yayılmış koronavirus pandemiyası səbəbindən yaranmış çətinlikləri aradan qaldırmaq məqsədilə 7 il müddətinə tətbiq edilmişdir. Bu ilin sonunda həmin müddət bitir. Lakin hökumət güzəştin birdən-birə tam ləğv edilməsini deyil, onun bir neçə ilə mərhələlərlə artırılmasını nəzərdə tutur. Belə ki, növbəti ildə əməkhaqqı alan şəxslərin böyük bir qismini əhatə edən 2500 manatadək olan gəlirə cəmi 3 faiz gəlir vergisi tətbiq ediləcək. Bu rəqəm 2027-ci ildə 5 faiz, 2028-ci ildə 7 faiz təşkil edəcək.

Beləliklə, sonda Azərbaycanda daimi gəlir vergisi 2500 manatadək olan əməkhaqqı məbləğindən 7 faiz, 8 min manatadək əməkhaqqı məbləğindən 10 faiz, 8000 manatdan yuxarı əməkhaqqı üçün isə 14 faiz müəyyən ediləcək.

Dünyanın inkişaf etmiş ölkələrində əməkhaqqından gəlir vergisinin dərəcələri olduqca yüksəkdir. Azərbaycan hökuməti pandemiya dövründə iqtisadiyyatın qeyri-neft sektorunda yaranmış çətinliklərin aradan qaldırılması və biznesin dəstəklənməsi məqsədilə bir çox addımlar atmışdı. Əməkhaqqından tutulan vergilərə 7 il müddətinə tətbiq edilən güzəşt də həmin sıradan olan dövlət dəstəyinin bir hissəsi kimi dəyərləndirilməlidir.

Dünyada və ölkəmizdə pandemiyanın bitməsinə baxmayaraq, hökumət 7 il tətbiq edilmiş güzəştin vaxtı bitdikdən sonra onun birdən-birə dayandırılması yolunu seçmədi. Bu, o deməkdir ki, hökumət ölkədə real sektorun üstün inkişafını təmin edə biləcək mümkün addımları yenə də atmaqdadır.

Çox təəssüflər olsun ki, bəzi qüvvələr gələn ildə vaxtı bitmiş əməkhaqqından vergi güzəştlərinin mərhələli şəkildə dayandırılmasını az qala təxribat kimi cəmiyyətə təqdim etməyə çalışırlar. Dünyanın ayrı-ayrı ölkələrində əməkhaqqından vergilərin hansı səviyyədə olmasından xəbərsiz bəzi bloggerlər və özünə ekspert deyənlərə tövsiyəmiz odur ki, onlar belə müqayisələr apararkən, ölkələrin təcrübəsinin araşdırılması zərurətini də unutmasınlar. O zaman həmin ölkələrdə əməkhaqqından vergilərin hansı dərəcələrlə tutulması aydın olar.

**Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirdiyi və ölkəmizdəki dini konfensiya təmsilçilərinin iştirak etdiyi "Fərqliliyin rəngi" festivalı dini və mədəni rəngarəngliyin təntənəsinə çevrildi.**

# "Fərqliliyin rəngi" festivalı

## *İnanclar müxtəlif olsa da, inam və sevgilər ortaqdır*



Festivalda müxtəlif dinləri təmsil edən stendlərdə sərgilənən qədim əl işləri, milli geyim nümunələri, müqəddəs kitablar və dini atributlar bir-birini tamamlayaraq zalda mənəvi rəngarənglik, tolerantlıq ab-havası yaratmışdı.

Ziyarətçilər Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Roma Katolik Kilsəsinin Apostol Prefekturası, Dağ Yəhudiləri, Sefarad Yəhudiləri və Avropa Yəhudilərinin Bakı dini icmaları, Azərbaycan Bibliya Cəmiyyəti, Azərbaycan Bəhailəri Dini Mərkəzi, Alban-Udi, Krişna Şüuru, Gürcü pravoslav və Molokan-ruhani xristian dini icmalarının təqdimatları ilə maraqla tanış olur, hər birinin özünəməxsus ənənəsini yaxından izləyirdilər. Festivalın əsas məqsədi isə bu müxtəliflikdə harmoniyanı – Azərbaycandakı dini tolerantlıq və milli birliyin canlı təzahürünü göstərmək idi.

Açılış mərasimində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirdi ki, biz tarixin keşməkeşli və ziddiyyətli bir dövründə ən böyük zəfərlərə imza atmış güclü bir dövlətin vətəndaşlarıyıq. Bu dövlət dini və etnik mənsubiyyətindən, əqidəsindən, inancından asılı olmayaraq ölkəmizdə yaşayan hər kəsin ümumi sərvətidir. Ölkəmizdə məscid, kilsə və sinaqoqların yanaşı fəaliyyəti qarşılıqlı hörməti və multikultural dəyərləri təcəssüm etdirir. Salonda yanaşı yer alan bu çadırlar eyni vətənin övladları olaraq bizi birləşdirən mənəvi körpünün dayaqlarıdır.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa qeyd etdi ki, Qarabağ savaşında yalnız azərbaycanlılar deyil, ölkəmizdə yaşayan bütün xalqlar və millətlər şəhid verdilər. Elə birləşmişik ki, bizi etnik-dini zəmində ayırmaq qeyri-mümkündür.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova söylədi ki, fərqliliyimiz üstünlük yox, təbii həyat tərzimizdir. Prezident İlham Əliyevin siyasəti də məhz belə bir irs çərçivəsində Azərbaycanın keçmişinə, elmi-mədəni nailiyyətlərə əsaslanır.

**"Alov" xristian dini icmasının stendində xüsusi istilik duyulurdu. İcmanın sədri İdris Məmmədov bildirdi ki, "alov" sözü inamın istiliyi deməkdir:**

– Bu alov işıq salmaq üçündür. Mənim üçün bu gün müxtəlif dinlərin işığının yanaşı parlaması çox dəyərlidir. Bu, anlayışın, sevginin və həmrəyliyin ahəngidir.



**"Həyat sözü-2" xristian dini icmasının sədri Elçin Paşayev isə qeyd etdi ki, icma 30 ildən çoxdur ölkəmizdə fəaliyyət göstərir:**

- Bu kilsə protestantlığın əsas qollarından biri – yevangelist (müjdəçilik) istiqamətini təmsil edir. Ayinlərdəki müxtəlifliyə və ilahiyyatın bəzi nüanslarında fərqlərə baxmayaraq, dinləri birləşdirən ortaq dəyər imana sadiqlik və insan sevgisidir.

Ölkənizlə tanışlığımız 1993-cü ildə başladı. Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin "Həyat sözü" kilsəsi rəhbərinin müavini Karl Qustav Severinlə görüşündən sonra bizə erməni təcavüzündən zərər çəkmiş qaçqınlara yardım etmək, eləcə də ölkədə azad şəkildə fəaliyyət göstərmək imkanı yaradıldı.

**Rəngarəng geyimləri ilə diqqət çəkən "Krişna şüuru" stendinə yaxınlaşdıq, Mariya xanımla həmsöhbət olduq:**

– "Krişna şüuru" cəmiyyəti qədim Veda təliminə əsaslanır. Veda sanskrit dilindən tərcümədə "bilik", "mərifət", "ilahi hikmət" mənasını verir.

Vedalar çoxsaylı mənbələri birləşdirir, lakin "Krişna şüuru " ən çox "Bhaqavat–Qita olduğu kimi" adlı müqəddəs mətndən qaynaqlanır. Bu kitab hind fəlsəfəsinin və ilahiyyatının zirvəsi sayılır. Onun mahiyyəti insanla Allah arasında dialoqa – ruhun Yaradanla söhbətinə əsaslanır. "Bhaqavad–Qita" öyrədir ki, insanın varlığı yalnız cismani deyil, onun həqiqi varlığı olan ruh əbədidir.

**Azərbaycanın tolerantlıq nümunəsi haqqında danışarkən "Dağ yəhudiləri" icmasından söz açmamaq olmaz. İcmanın nümayəndəsi Fərhad bəy bildirdi:**

– Bizi fərqləndirən cəhət yerli adətləri dinə qarışdırmamaqdır. Bəzi ailələrdə Novruzda süfrə açmaq, baharı qarşılamaq kimi adətlər də var. Biz bu ənənəni sadəcə dini deyil, mədəni körpü kimi yaşadırıq. Həm Qafqazın işığını, həm İsrailin inancını daşıyırıq.




Festival bir daha sübut edir ki, Azərbaycan torpağı əsrlər boyu müxtəlif dinlərin, dillərin və mədəniyyətlərin beşiyi olub. Burada sükut içində səslər bir-birinə qarışır — sinaqoqun duası, kilsənin zəngi, məscidin azanı. Bu səslər bir-birinə zidd deyil, əksinə, eyni harmoniyanın müxtəlif notlarıdır.

***Fidan ƏLİYEVA***
***XQ***

# Rəqabət Məcəlləsi barədə maarifləndirmə



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində dövlət qurumlarının, yerli icra hakimiyyətlərinin, eləcə də özəl sektor və beynəlxalq şirkətlərin nümayəndələrinin iştirakı ilə Rəqabət Məcəlləsində nəzərdə tutulan tələblərə dair görüş keçirilib.**

Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun Fəaliyyət Planının tələblərinə əsasən təşkil olunan maarifləndirici görüşdə 40-a yaxın nümayəndə iştirak edib. Toplantıda agentliyin təbii inhisarlara dövlət nəzarəti şöbəsinin müdiri Şəmsi Rzalı "Dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin tənzimlənməsinin təşkili üzrə rəqabət orqanı tərəfindən nəzarət tədbirlərinin həyata keçirilməsi metodları" mövzusunda təqdimatla çıxış edib.

Ölkəmizdə rəqabət siyasətinin əsas prinsiplərini iştriakçıların diqqətinə çatdıran şöbə müdiri dövlət və yerli özünüidarəetmə orqanları, eləcə də tənzimləyici qurumların rəqabət qanunvericiliyinə zidd hərəkətləri və ya hərəkətsizliyi ilə bağlı məlumat verib. Eyni zamanda, subsidiyaların və digər dövlət yardımlarının verilməsi, bu sahədə tənzimləmə fəaliyyətinin rəqabətə təsirlərinin qiymətləndirilməsi məsələləri ətraflı izah edilib.

Görüşdə rəqabət qanunvericiliyinin tələblərinin pozulmasına görə nəzərdə tutulmuş məsuliyyət tədbirləri, eləcə də dövlət orqanlarının rəqabəti pozan davranışlarına qarşı sanksiya və göstərişlərin tətbiqi mexanizmləri iştirakçıların diqqətinə çatdırılıb.

***XQ***

*6 Noyabr Azərbaycan Televiziyası və Radiosu Günüdür*

# Milli teleradio ölkə həyatının canlı güzgüsüdür




**(əvvəli 1-ci səhifədə)**

Həmin hadisə 30 il sonra – 1956-cı il fevralın 14-də fəaliyyətə başlayan Azərbaycan Televiziyasına gedən yolda ilk addım oldu. Televiziya və radio yaradıcılığı milli jurnalistikamızda, eləcə də ictimai həyatımızda informasiya vermək, maarifləndirmək və əyləndirmək funksiyasında yeni təsirli vasitə olmaq missiyasını öz üzərinə götürdü, sosial və siyasi proseslərə təsir göstərməkdə özəlliyini ortaya qoydu.

Ana televiziyamız olan AzTV-nin inkişafında yaddaqalan hadisələr Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dönəmə düşür. O dövr Azərbaycanının ictimai-siyasi və mədəni həyatında yeni texniki vasitə olaraq daxil olan Azərbaycan Televiziyası təkcə xalqımızın keçmiş şərəfli tarixinin ən parlaq səhifələrinin təbliği ilə məşğul olmur, həm də milli-mənəvi dəyərlərimizin, yetişən gəncliyin şüurunda özünə yuva qurmasında başlıca missiyanı yerinə yetirirdi.

Azərbaycan Televiziya və Radiosu keçdiyi yolda qazanılan zəngin təcrübəsi ilə deyil, ölkə xaricində də sabit auditoriyası olması informasiyanın operativ və peşəkarlıqla çatdırılması ilə izah oluna bilər.

Eyni zamanda, hər bir telekanal internet yayımının həyata keçirilməsinin xüsusi səbəblərini görməklə yanaşı, onun inkişafı üçün bir çox motivlər yaradır və bu missiyanı Azərbaycan Televiziyası uğurla aparır. Güman etmək lazımdır ki, yaxın gələcəkdə genişzolaqlı internet texnologiyalarının inkişafı qlobal şəbəkənin yayım keyfiyyəti ilə alternativ kanallar arasındakı sərhədləri siləcək. Bu, şübhəsiz, televiziya yayımının yeni inkişaf səviyyəsinə gətirib çıxaracaq və ona yeni perspektivlər verəcəkdir.

Yeri gəlmişkən qeyd edək ki, bu gün ölkəmizin televiziya kanalları ənənəvi məzmun istehsal modelinin dəyişdiyini və auditoriyanı cəlb etmək üçün yeni formatların, "yenilənmənin" qaçılmaz olduğunu etiraf etməklə praktik addımlar atırlar. Nəticədə, qloballaşmanın ən dərin təzahürü KİV şəbəkələri kontekstində fərdlər və bütövlükdə dünya, xalqlar və ölkələr arasında sıx münasibətlərin formalaşmasıdır.

İnternet resurslarının sürətlə həyatımıza klassik kanallarla rəqabətə davam gətirməyin yolunu masaüstü avadanlıqlar və cihazlarda, sürətlə təkmilləşən mobil telefonlarda görürlər. Bu isə yeni dalğanın üstündə gələnlərə öz iddialarını təsdiqləməklə bərabər, tamaşaçı ovunun müxtəlif cəlbedici metodlarını mənimsəmək üçün kifayət edən mühüm psixoloji üstünlük yaradır. "Yeni yollar axtarışında olanlar" isə nəinki "kino" məzmununu qəbul etmirlər, üstəlik, fon görüntüləri ilə işləməyi öyrənməsələr də, tamaşaçı üçün nə lazım olduğunu akademik formada əxz ediblər.

2023-cü il iyul ayının 22-də Şuşada "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Milli Mətbuatının 148-ci ildönümünə həsr edilən "IV Sənaye İnqilabı dövründə yeni media" mövzusunda Şuşa Qlobal Forumu bu mövzu üzrə ən məhsuldar tədbirlərdən biri kimi yadda qaldı. 48 ölkədən 150-yə yaxın jurnalistin, yerli və beynəlxalq səviyyəli media təsisatı nümayəndələrinin iştirak etdiyi forumda səslənən sualları cavablandıran Prezident İlham Əliyev çağdaş medianın konseptual yol xəritəsini cızan fikirlər səsləndirdi.

Sosial təfəkkürdə televiziya istehsalının böyük əksəriyyətində məzmunun aşağı səviyyədə olmasından narahatlıq ifadə olunur, digərləri isə televiziyanın sosial şəbəkə mediasından geri qalma riski barədə fikirləşirlər. Nəticədə, "nə etməli?" sualı aktual olaraq qalır. Cavablar nə qədər arqumentli səslənsə də, yaranmış situasiya gerçək çıxış yolları tələb edir.

Müasir telekanalların proqramlaşdırılması prinsiplərinin dəyişdirilməsi, reytinq yanaşması siyasətində media bazarına əsaslı təsir edən tendensiyaların dəyişməsi qaçılmazdır. Bu prosesin necə baş verməsi gələn il 100 və 70 yaşını qeyd etməyə hazırlaşan Azərbaycan Radiosunun və Televiziyasının nümunəsində müşahidə edilir.

Təəssüf ki, internet resurslarının başlıca hərəkətverici qüvvəsi olaraq qəbul edilən sosial şəbəkələrdə televiziya yayımının spesifik xüsusiyyətləri hələ də Azərbaycanda elmin tədqiqat obyektinə çevrilməyib.



yaratdığı, milli dəyərlər, dövlətçilik təfəkkürü əsasında yaradılmış məktəbə çevrilib və bu gün də ölkənin televiziya məkanında aparıcı rolunu saxlamaqdadır. İstər özünün maddi-texniki bazasının zənginliyi, istərsə də uzun illərdən bəri formalaşan ən yaxşı ənənələr əsasında yetişən peşəkar yaradıcı heyəti ilə AzTV rəngarəng mövzuları, təqdimat formaları ilə seçilən, teleməkanda öz auditoriyasını qazanan, gizlətmədiyi iddiaları ilə inkişaf yolunda yeni addımlar atan, gündən-günə mövqelərini möhkəmləndirməkdə olan quruma çevrilməkdədir.

Prezident İlham Əliyevin xoş məramı ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin bazasında 2009-cu il fevral ayının 1-də yaradılan "İdman", 2011-ci il fevral ayının 14-də təsis olunan "Mədəniyyət" telekanallarının fəaliyyətinin, xüsusilə, son illərdə Azərbaycan Televiziyasında aparılan islahatların nəticəsidir ki, müxtəlif formatlarda və aktual mövzularda hazırlanan proqramlar nəinki tamaşaçıların maraqla qarşıladıqları, həm də etimad göstərdiyi verilişlərə çevrilib.

Bu sırada ictimai-siyasi proqramlar studiyasının hazırladığı, ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda baş verən aktual ictimai-siyasi hadisələrin təhlil olunduğu "Həftə" ölkədə baş verən diqqətçəkən məsələlər üzərində qurulan və aparıcıların qonaqlarla birlikdə baş verən hadisənin canlı olaraq müzakirə olunduğu "Hədəf" və digərləri ancaq informativ deyil, həm də maarifçilik yükü olan proqramlardandır. Hər gün 12 dəfə efirə çıxan "AzTV XƏBƏR" proqramının ancaq ölkə daxilində daxil olmasına baxmayaraq, müasir televiziya zəmanəmizin ən qabaqcıl kütləvi informasiya-mədəniyyət vasitəsinə çevrilmiş və bu istiqamətdə işini davam etdirir. Müasir TV hələ də zəngin, çoxşaxəli və çoxölçülü kompleksi olmaqla kütləvi kommunikasiya vasitəsi və dəyər daşıyıcılarının ən mühüm komponenti hesab olunur. O, nəinki bütün zamanların cəmiyyətlərində ən etibarlı informasiya daşıyıcısı, həm də sosial durumun barometri kimi qəbul edilir.

Sürətlə dəyişən media mənzərəsində Azərbaycan telekanalları rəqəmsal mühitə assimilyasiya olunur. Yayım proqramlarının xətti proqramlaşdırılması bir o qədər də aktual görünmür. Televiziya meneceri etiraf etməyə borcludur ki, informasiya istehlakçısının maraq dairəsini nə qədər öyrənə bilib? Günümüzün statistik internet istifadəçisi sutka ərzində saysız-hesabsız videolara baxır. Təkcə "YouTube" portalına hər dəqiqə 60 saat video yüklədiyini və resursa ayda 1 milyard nəfərdən artıq istifadəçinin - planetin hər 7-8-ci sakininin daxil olduğunu nəzərə alsaq, ancaq bir platformanın nümunəsində qlobal internet bazarının gücünü görmək olar.

Milli televiziya kanallarımızın öncülü olan Azərbaycan Televiziyasında (AzTV) yüksəkkeyfiyyətli məhsul istehsalının aktuallığını şərtləndirən başlıca istiqamətlər onun yayım siyasətində aydın görünür. AZTV-nin proqramları diqqət və anlayış tələb edən sosial-siyasi əhəmiyyətli hadisələrin diktəsi ilə formalaşır.

Bazara isə getdikcə daha çox müasir kommunikasiya oyunçusu daxil olur. Onlar Televiziya mediasının sosial şəbəkələrdə aparıcı platformalara çevrilməsi üçün praktiki tövsiyələrin hazırlanmasında teletənqidçilərimizin və bu yöndəki elm adamlarımızın lokomotiv olaraq rolu ya hiss olunmur, ya da qabarıq görünmür.

AzTV üçün sosial şəbəkələrdəki alqoritmin öyrənilməsi taktiki deyil, strateji mahiyyət daşıyır. Hər bir televiziya üçün sosial dünyanın inkişafı ilə bağlı vəziyyəti düzgün qiymətləndirməmək, sosial şəbəkə platformalarının müasir insanın həyatındakı rolunu qəbul etməmək, sadəcə olaraq, mövcud olmaq perspektivini itirəcək qədər risklidir. AzTV öz fəaliyyətini bu gerçəkliyin diktəsi əsasında qurur.

Ana Televiziyada yaranan tendensiyalar diqqətlə izlənilir. Azərbaycan Televiziya və Radiosu üçün abunəçilərin sayı bu gün də vacib parametrlərdəndir, məzmunun keyfiyyəti, orijinallığı başlıca etalon sayılır. Bir sözlə, auditoriyanı genişləndirmək, məzmun strategiyamıza sadiq qalmaq, səmərəli paylama modeli qurmaq kollektivimiz üçün prioritet istiqamətdir.

Azərbaycanın teleradio məkanında çalışan həmkarlarımızı ötən illərdə peşə bayramına çevrilmiş 6 noyabr günü münasibəti ilə təbrik edərək onlara müstəqil ölkəmizin tərəqqisinə təsirli və əhatəli informasiya dəstəyi göstərməkdə yeni uğurlar arzulayırıq.

***Elməddin QULİYEV,***
***"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin şöbə rəisi***

# Narkotiklərlə mübarizə beynəlxalq hədəfdir

**Avstriya Respublikasının paytaxtı Vyana şəhərində Narkotiklərlə bağlı qanunlara riayət olunmasının təmin edilməsi üzrə milli idarələrin rəhbərlərinin 16-cı iclasında ölkəmizi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin aidiyyəti əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil edib.**

İclasda narkotik maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı respublikamızın üzv olduğu beynəlxalq konvensiyaların müddəalarından irəli gələn vəzifələrin icrası, Azərbaycanda narkotiklərin qaçaqmalçılığına qarşı aparılan mübarizə, ölkənin narkotik maddələrin daşınması üçün tranzit marşrutu kimi istifadə edilməsinin qarşısının alınması istiqamətində, habelə bu sahədə qəbul olunmuş 2019-2024 və 2025-2030-cu illəri əhatə edən Dövlət proqramları çərçivəsində görülmüş tədbirlər barədə nümayəndə heyəti tərəfindən ətraflı məlumat verilib. Bildirilib ki, ötən müddətdə Azərbaycan tərəfi ilə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı BMT-nin müvafiq qurumu (UNODC), İNTERPOL və digər beynəlxalq və regional təsisatlar arasında səmərəli əməkdaşlıq əlaqələri yaradılıb. Eyni zamanda, son vaxtlarda ABŞ-ın Narkotiklərlə Mübarizə İdarəsi (DEA) ilə qurulmuş işgüzar münasibətlərə də toxunulub.

Həmçinin vurğulanıb ki, 2019-2024-cü illər ərzində Azərbaycanın hüquq-mühafizə orqanlarının narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı apardığı mübarizə çərçivəsində 47 min 863 fakt aşkar edilib. Bundan əlavə, qeyd olunan dövrdə 33,5 ton müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısı alınıb, 510 nəfəri əcnəbi olmaqla, ümumilikdə 39 min 2 şəxs cinayət məsuliyyətinə cəlb edilib. Rəsmi statistikaya görə, son iki ildə



qonşu ölkələrdən Azərbaycan vasitəsilə 10 narkotik qaçaqmalçılığı cəhdi qeydə alınıb və nəticədə 600 kiloqram narkotik vasitə müsadirə edilib.

Eləcə də tədbirdə Azərbaycan nümayəndə heyəti tərəfindən tərəfdaş dövlətlərin istintaq orqanları və əməliyyat qurumları arasında əlaqələrin və əməliyyat məlumatlarının mübadiləsinin genişləndirilməsi, o cümlədən beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə narkotik vasitələrin daşınmasına ölkələrin birgə nəzarətinin təşkili ilə bağlı təkliflər irəli sürülüb.

Bundan başqa, müasir dövrümüzdə göstərilən sahədə yaranmış təhdidlər sırasında internet üzərindən narkotik vasitələrin satışının həyata keçirilməsinin, cinayətkarların pilotsuz uçuş aparatlarından narkotiklərin daşınmasında istifadə etmələrinin yer alması narahatlıq doğuran hallar kimi diqqətə çatdırılıb.

Xüsusilə qeyd olunub ki, ümumbəşəri bəlaya çevrilmiş narkotiklərin qeyri-qanuni dövriyyəsi, bu işlə məşğul olan cinayətkar qruplaşmaların zərərsizləşdirilməsi yönündə birgə səylərin gücləndirilməsinə, qarşılıqlı fəaliyyətin və informasiya mübadiləsinin daha da intensivləşdirilməsinə ciddi ehtiyac var.

***XQ***

# Azərbaycan–Rumıniya media əməkdaşlığı



**Rumıniyada səfərdə olan Azərbaycan nümayəndə heyəti noyabrın 5-də bu ölkənin AGERPRES xəbər agentliyinin baş direktoru Klaudiya Viktoriya Nikolae ilə görüşüb.**

Görüşdə Azərbaycanın və Rumıniyanın milli xəbər agentlikləri arasında əməkdaşlığın dərinləşdirilməsi, informasiya mübadiləsinin genişləndirilməsi və birgə media layihələrinin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Klaudiya Viktoriya Nikolae AGERPRES agentliyinin beynəlxalq informasiya şəbəkələrində, o cümlədən Avropa Xəbər Agentlikləri Alyansında (EANA) və Avropa İttifaqı (Aİ) Media Forumu çərçivəsində gördüyü işlər haqqında məlumat verib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev qeyd edib ki, agentliklə AGERPRES arasında uzunmüddətli əməkdaşlıq mövcuddur və bu əlaqələrin daha da gücləndirilməsi regional, beynəlxalq informasiya məkanında etibarlı tərəfdaşlığı üçün əsas yaradır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media sahəsində yeni kommunikasiya texnologiyalarının tətbiqindən və süni intellekt əsaslı xəbər istehsalında əməkdaşlığın perspektivlərindən danışıb.

Audiovizual Şuranın sədri İsmət Səttarov isə audiovizual və rəqəmsal media platformaları üzrə tənzimləmə, ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi sahəsində Rumıniya təcrübəsinin öyrənilməsinin vacibliyini qeyd edib.

Ölkəmizin Rumıniyadakı səfiri Qüdsi Osmanovun da iştirak etdiyi görüşdə Azərbaycan nümayəndə heyətinə AGERPRES-in arxivi barədə məlumat verilib. Qonaqlara agentliyin zəngin tarixi foto və video fondları, o cümlədən Rumıniya ilə Azərbaycan arasında ötən əsrdən bu günədək baş tutmuş ikitərəfli səfərlər, dövlət başçılarının görüşləri və mədəni tədbirləri əks etdirən nadir materiallar nümayiş olunub.

Tərəflər bu materiallar əsasında ortaq fotosərgi təşkil etmək barədə razılığa gəliblər. Sərgidə sovet dövründən müasir dövrədək Rumıniya-Azərbaycan münasibətlərinin inkişafını və iki ölkə arasında dostluğun tarixi köklərini əks etdirən fotoların nümayişi nəzərdə tutulur.

***XQ***

# Naxçıvanda “Zəfər irsi” konfransı





**Muxtar respublikada 8 Noyabr Zəfər Gününün 5-ci ildönümünün qeyd olunması ilə bağlı tədbirlər planı çərçivəsində Naxçıvan Dövlət Universitetində “Zəfər irsi” adlı konfrans keçirilib.**

Dövlət və hökumət rəsmiləri, deputatlar, ictimaiyyət nümayəndələri, universitetin professor-müəllim heyəti və tələbələrin iştirak etdikləri açılış mərasimində Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov bildirib ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində son 22 ildə milli birliyimiz daha da güclənib. Vətən müharibəsində tarixi Zəfərin qazanılmasında xalq-dövlət-ordu birliyi həlledici amil olub. 8 Noyabr milli qürur və tarixi qələbəni qazananalara xalqın minnətdarlıq günüür.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev vurğulayıb ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası ən böyük Qələbəmiz kimi tarixə əbədi həkk olunub və 5-ci ildir ki, 8 Noyabr Zəfər Gününü milli qürur duyğusu ilə qeyd edirik. Konfrans 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbənin hərbi-siyasi, diplomatik, iqtisadi və mədəni aspektlərini elmi müstəvidə araşdırmaq, zəfərin yaratdığı yeni reallıqları və regionda sülhün bərqərar olunmasında rolunu müzakirə etmək məqsədli təşkil olun.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Arzu Abdullayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, AMEA Naxçıvan bölməsinin sədri İsmayıl Hacıyev, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Milli Məclisinin deputatı Vüqar Rəhimzadə 8 Noyabr Zəfər Gününün tarixi-siyasi önəmindən danışıb, regiona gətirdiyi yeni perspektivləri vurğulayıblar. Onlar tarixi zəfərə aparan yolda Prezident İlham Əliyevin qətiyyət və əzmkarlığından, xalqımızın birliyindən bəhs ediblər.

Mərasimdə ali məktəbin simfonik orkestri konsret proqramı ilə çıxış edib.

Konfrans “Zəfər tarixi və hərbi siyasi irs”, “Tarixi zəfərdən sonra: iqtisadiyyat və yenidənqurma”, “Tarixi zəferimz mediada”, “Müharibə və sülh proseslərində beynəlxalq hüququn tətbiqi” mövzularında panel müzakirələrlə davam edib.

***Səbuhi HƏSƏNOV***
***XQ***



# Bənövşə ətirli qəzəllər

**Xaçmazda Murad Qudyalçaylı adına “Ulduzlar” ədəbi məclisinin üzvü, şair Mövlan Şahidin 60 illik yubileyi qeyd edilib, “Bənövşə ətirli qəzəllərim” kitabının təqdimatı keçirilib.**

Heydər Əliyev Mərkəzində düzənlənən yubiley tədbirində “Ulduzlar”ın baş katibi Aqşin Dadaşoğlu Mövlan Şahidin sənətkar və şəxsiyyət kimi üstün cəhətlərindən, poetik üslubundan danışıb. 60 yaşının tamam olması və ədəbiyyata verdiyi töhfəyə görə Mövlan Şahidə Məclisin diplomunu təqdim edib.

Mərkəzin direktoru Könül Əskərova bölgədə və ölkədə qəzəlləri ilə tanınan M.Şahidin yubileyinin məhz Heydər Əliyev Mərkəzində keçirilməsinin dövlətin yaradıcı insanlara diqqət və qayğısının bariz nümunəsi olduğunu bildirib. Yubilyara xoş diləklərini çatdıran AYB Quba bölməsinin rəhbəri, tanınmış şair Ramiz Qusarçaylı M.Şahidin özünəməxsus yaradıcılığından, bənövşəyi ətirli şeir və qəzəllərindən danışıb, Heydər Əliyev Mərkəzinin belə tədbirlərə ev sahibliyi etməsini təqdirəlayiq hal adlandırıb. Xaçmaz Tarix Diyarşünaslıq Muzeyinin direktoru Pakizə Mehdiyeva M.Şahidin çoxçalarlı yaradıcılığından söz açıb, yubilyar barədə ürək sözlərini bölüşüb.

Daha sonra “Ulduzlar”ın üzvləri – Qərib Aşkari, Firudin Həvəskar, Məmməd Qədir, İbrahim Ağçaylı, Cümşüd Aydəmir, Mehparə Sadıqova, Səməd Asifoğlu, Kənan Rahi, Telman Təravət, Gözəl Azayeva, Gülçəmən Həbibova, Rübabə Mustafayeva, Nəzakət Xanım, Dilarə Rüstəmova yubilyarı təbrik edib, bəziləri ürək sözlərini şeirləri ilə çatdırıblar.

Əməkdar jurnalist Azər Həsrət Xaçmazda ədəbiyyat adamlarına münasibətin yüksək olduğunu, Heydər Əliyev Mərkəzi və Tarix Diyarşünaslıq Muzeyi kimi qurumların bu yöndə dövlət siyasətinə verdikləri töhfələri qeyd edib.

Sonda çıxış edən yubilyar Mövlan Şahid diqqətə görə Heydər Əliyev Mərkəzi və “Ulduzlar”a təşəkkürünü bildirib, bunu yaradıcılıq stimulu kimi dəyərləndirib.

***XQ***

# Soydaşımızın musiqiləri Çin festivalında səsləndirilib

**Azərbaycan ilə Çin Xalq Respublikası arasında əlaqələr son illərdə müxtəlif istiqamətlərdə dinamik şəkildə inkişaf edir. Bu əməkdaşlığın mühüm istiqamətlərindən biri də təhsil və mədəniyyət sahələridir.**

Hər iki ölkə arasında tələbə mübadiləsi proqramlarının genişlənməsi, ali təhsil müəssisələri arasında birgə layihələrin həyata keçirilməsi, eləcə də mədəniyyət tədbirlərində qarşılıqlı iştirak xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edir.




Qarabağ Universitetindən XQ-yə verilən məlumata görə, İncəsənət fakültəsinin dekanı, bəstəkar Türkər Qasımzadə Çin Xalq Respublikasında Zheijang Konservatoriyasında keçirilən VI Hangzhou Beynəlxalq Müasir Musiqi Festivalında iştirak edib.

Festival zamanı bəstəkarın əsərləri Hanqzhou Dövlət Filarmonik Orkestri (dirijor Kyle Pickett, ABŞ) və Moskva Müasir Musiqi Ansamblı tərəfindən səsləndirilib.

Türkər Qasımzadə, “Artinno Awards” kamera operası müsabiqəsinin final mərhələsində münsiflər heyətinin üzvü olub. Onun Zheijang Konservatoriyasının tələbələri üçün məruzəsi böyük maraqla qarşılanıb.

Festivalın açılış mərasimindəki nitqində T.Qasımzadə Qarabağ Universiteti haqqında ətraflı məlumat verib.

Qeyd edək ki, səfər çərçivəsində keçirilən məhsuldar görüşlər Azərbaycan və Çin musiqi mühitləri arasında yaradıcılıq əlaqələrinin genişlənməsinə, eləcə də Qarabağ Universitetinin beynəlxalq səviyyədə tanıdılmasına töhfə verib.

***Nurəngiz ADİLQIZI***
***XQ***

## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

*buzlaşmaya qarşı maddələrin satın alınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin **buzlaşmaya qarşı maddələrin** satın alınması üçün açıq tenderində iştirakçılar alexander.bykov@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 24 noyabr 2025-ci il saat 15.00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Aleksadr Bıkov, mütəxəssis, alexander.bykov@azal.az, iş – (+99412) 4972600 daxili 4264.

# Nyu-York sosial narazılığa səs verdi

## *34 yaşlı merin qələbəsi siyasi seçimdə yeni mərhələ açır*




**Nyu-Yorkda keçirilən mer seçkilərində Demokratlar Partiyasının namizədi, 34 yaşlı Zöhran Mamdaninin qələbəsi ABŞ-da və onun hüdudlarından kənarda böyük rezonans doğurdu.**

Seçkilərin nəticələrini şərh edən siyasi müşahidəçilərin sözlərinə görə, bu hadisə yalnız şəhər siyasətinin deyil, bütövlükdə Amerika siyasi sistemində baş verən gərginliklərin yeni mərhələsini göstərir. Beynəlxalq mətbuat da seçkilərin nəticələrini sosial narazılıq, ideoloji qütbləşmə və ölkədə güclənən siyasi qarşıdurma kontekstində şərh edir.

ABŞ mediası hesab edir ki, Zöhran Mamdaninin qələbəsi ideoloji dönüşün nəticəsi kimi deyil, sistemdən narazılığın toplanmış forması kimi ortaya çıxıb. Məsələn, “Fox news” yazır ki, Nyu-York sosial baxışlara görə deyil, mövcud nizamlama və iqtisadi ədalətsizlikdən yorulduğuna görə Mamdanini seçdi. Bu tendensiya müəyyən mənada prezident Donald Trampın yüksəliş dövrünü xatırladır: o zaman da bəzi amerikalılar özlərini unudulmuş sanır, sistemə qarşı etirazını seçki sandığında ifadə edirdilər. İndi isə oxşar emosiyalar başqa siyasi qütbə işləyir.

“The New York Times” qəzeti isə qeyd edir ki, Mamdani bütün sosial problemləri həll edə bilməsə də, real dəyişiklik üçün imkanlar mövcuddur. Şəhərdə münasib qiymətli yaşayış evlərinin çatışmazlığı, təhsil və uşaq bağçalarının əlçatan olmaması, nəqliyyat sisteminin yüklənməsi artıq uzun müddətdir siyasi gündəmin əsas hissəsinə çevrilib. Əgər Mamdani təhlükəsizlik səviyyəsini 2010-cu illərin əvvəlindəki kimi bərpa etməyə, sosial xidmətləri genişləndirməyə və yüksək maaşlı iş yerlərinin sayını artırmağa nail olsa, Nyu-Yorkun ən uğurlu merlərindən biri kimi yadda qala bilər.

Seçkilərin nəticəsi ABŞ siyasətində yeni qarşıdurma xəttini də kəskin şəkildə üzə çıxardı. Britaniyanın “The Times” qəzeti yazır ki, Mamdani ilə prezident Tramp arasında açıq siyasi müharibə artıq real faktdır. Cənab Tramp onu kommunist və “yəhudi düşməni” adlandırmaqla öz elektoratına mesaj verir, Mamdani isə çıxışlarında özünü prezidentin “ən pis kabusu” kimi təqdim edir. Demokrat Partiyasında rəsmi lider fiqurunun olmaması fonunda Mamdaninin tezliklə partiyanın əsas simalarından birinə çevrilə biləcəyi istisna edilmir.

Almaniyanın “Der Spiegel” nəşri Mamdaninin qələbə nitqini siyasi bəyanat kimi dəyərləndirir. O, seçicilər qarşısındakı çıxışında ABŞ prezidentinə birbaşa müraciət ünvanladı və “siyasi qaranlığın” qarşısında Nyu-Yorku “işıq” kimi təqdim etdi. Qəzet hesab edir ki, bu ritorika yerli seçkilərin məhdud çərçivədən çıxaraq milli siyasi səhnəyə daşındığını göstərir.

İsveçrənin “Le Temps” qəzeti də Mamdaninin qələbəsini prezident Tramp siyasətinə qarşı ilk ciddi mesaj adlandırır. Nəşr iddia edir ki, ölkədə sosial narazılıq artır: işsizlik təhlükəsi, səhiyyə və sosial xərclərin ixtisarı, gömrük tarifləri səbəbindən inflyasiya riski əhalinin böyük hissəsində narahatlıq yaradır. Mamdaninin qələbəsi bu narahatlığın siyasi ifadəsi kimi qiymətləndirilir və analitiklər bu prosesin digər iri şəhərlərdə də təkrarlana biləcəyini istisna etmirlər.

Bütün bu qiymətləndirmələr fonunda Nyu-York seçkiləri ABŞ cəmiyyətində artan sosial bərabərlik tələblərinin, siyasi qarşıdurmanın və ideoloji qütbləşmənin yeni mərhələyə keçdiyini nümayiş etdirir. Analitiklərin sözlərinə görə, Mamdaninin mer postundakı uğuru və ya uğursuzluğu yalnız şəhərin deyil, Demokrat Partiyasının, hətta Tramp administrasiyasının gələcək siyasi taleyinə təsir göstərə bilər. Nyu-Yorkun yaxın illərdə sosial və iqtisadi idarəçilik modelinin ABŞ siyasətində alternativ yol axtarışının nümunəsinə çevrilə biləcəyi də iddia olunur.

Beləliklə, Zöhran Mamdani Nyu-York tarixində ilk müsəlman mer olacaq. Uqandada doğulan Mamdani tanınmış alim Mahmud Mamdani və kinorejissor Mira Nairin oğludur. Ailəsi o, uşaq ikən ABŞ-a köçüb. Mamdani seçki kampaniyasında həyat yoldaşı, suriyalı Rama Duvajinin də rolu diqqət çəkib. Respublikaçılar və mərkəzçi dairələr Mamdanini “sol radikalizmi” təşviq etməkdə və şəhərin iqtisadi sabitliyini risk altına atmaqda ittiham edirlər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

## Azərbaycan Turizm və Menecment Universiteti

***Azərbaycan Turizm və Menecment Universitetinin elmi şurasının (bundan sonra - ATMU) 2025-ci il 11 sentyabr tarixli 01 nömrəli qərarı ilə təsdiq edilmiş “ATMU-nun “Turizm işinin təşkili” ixtisası bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrinin xarici ölkələrdə istehsalat təcrübəsinin təşkili üçün vasitəçi şirkət seçimi meyarları”na müvafiq olaraq (bundan sonra – “meyarlar”) vasitəçi şirkətlərin seçilməsi üçün***

## Müsabiqə Elan Edir

**Müsabiqədə iştirak etmək istəyən vasitəçi şirkətlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:**

- Şirkətin rəsmi qeydiyyat və lisenziya sənədləri.
- Maliyyə sabitliyi və ödəniş qabiliyyətinin təsdiqi.
- Əməkdaşlıq etdiyi müəssisələrin siyahısı və təsdiqedici sənədlər.
- Təklif olunan təcrübə proqramının təsvir.
- Təcrübəçilər üçün təminat və xidmətlərlə bağlı məlumat.
- Əvvəlki analoji layihələr üzrə təcrübəni təsdiq edən arayış və rəylər.

**Elektron müraciət formasını dolduran şirkətlərin ilkin tələblərə uyğunluğu yoxlanıldıqdan sonra müsabiqədə iştirak üçün yuxarıda qeyd edilən sənədlərin əsli tələb olunur.**

**Müsabiqədə iştirak etmək istəyən vasitəçi şirkətlər əsas şərtlər və meyarlar barədə aşağıdakı keçiddən ətraflı məlumat ala bilərlər:**

**https://atmu.edu.az/upload/files/2025/11/03//-f5f96025176216196935543862710257866.pdf**

**Müraciətlərin qəbulunun başlanma tarixi:** 4 noyabr 2025-ci il.
**Müraciətlərin qəbulunun bitmə tarixi:** 4 dekabr 2025-ci il.
**Ünvan:** Bakı şəhəri, Koroğlu Rəhimov küçəsi 822/23.
**Əlaqə telefonu:** +994 12 - 564-42-33.
**Email:** info@atmu.edu.az
**Poçt indeksi:** AZ1072

**https://www.facebook.com/photo/?fbid=1278908214275081&set=a.552001513632425**
**https://www.instagram.com/p/DQmFZNxDKX3/**
**https://atmu.edu.az/az/web/post/1428**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 237 (30931) 6 noyabr 2025-ci il, cümə axşamı

# Qələbəyə bərabər heç-heçə

## *“Qarabağ” daha bir sensasiyaya imza atdı*

**Bakıda UEFA Çempionlar Liqasının əsas mərhələsinin IV turu çərçivəsində keçirilən “Qarabağ” və “Çelsi” komandaları arasındakı oyun saat 21:45-də Tofiq Bəhramov adına Respublika Stadionunda start götürdü. Matçı Avstriyadan olan hakimlər briqadası idarə edirdi.**

Azarkeşlər oyunun ilk dəqiqələrin çox sürətli futbol izləməyə başladılar. “Qarabağ” İngiltərə primyer liqasının favoritlərindən olan “Çelsi” komandası ilə başabaş mübarizə aparırdı. Mareskonun yetirmələri bir çox hallarda “köhlən atlar”ın qarşısını kiçik texniki qayda pozuntuları ilə almaqdan belə çəkinmirdilər. Bu da onu göstərirdi ki, ingilis klubu “Qarabağ”ın sürprizlərindən, sözün əsl mənasında, ehtiyat edir.

Qarşılıqlı hücumlarla başlayan görüşün 16-cı dəqiqəsində rəqibin heyətində sürətli oyunu ilə fərqlənən Estevao topu ağdamlıların qapısından keçirməyə nail oldu. Lakin “Çelsi”-nin minimal üstünlüyü çox çəkmədi. Matçın 29-cu dəqiqəsində Qurban Qurbanovun yetirmələri ingilis komandasını cəzalandırmağı bacardı. “Köhlən atlar”ın hücumçusu Leandro



Andrade dirəyə dəyib qayıdan topu “Çelsi”nin qapısından keçirdi.

Oyundakı sürət və gərginlik bununla səngimədi. 39-cu dəqiqədə cinahda topu ələ keçirən Andrade rəqibin qapısına güclü zərbə endirdi. Top cərimə meydançasında müdafiəçi Hatonun əlinə dəyib istiqamətini dəyişdi. Hakim dərhal 11 metrlik nöqtəni göstərdi. “Çelsi”nin qapıçısı ilə üz-üzə qalan Marko Yankoviç həmişə olduğu kimi, bu dəfə də qalib çıxdı.

“Zadəganlar” ikinci hissəyə daha sürətlə başladılar və 9 dəqiqə keçmiş hesabı bərabərləşdirməyə nail oldular. Medinanın cərimə meydançasında topu uğursuz qəbul etməsindən sonra Qarnaço topu ələ keçirdi və azacıq fasilə verib qapının ən aşağı küncünə göndərdi. 2:2.

Oyun elə bu hesabla da başa çatdı. Bu, əslində Avropa futbolunda növbəti sensasiya idi. “Qarabağ”ın sensasiyası. Afərin, “Qarabağ”!

***R.İLQAR***
***XQ***



İDMAN

## Naxçıvanda “Zəfər qaçışı”



**8 Noyabr – Zəfər Günü münasibətilə Naxçıvan şəhərində “Zəfər qaçışı” adlı kütləvi idman tədbiri keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə reallaşan qaçış yarışına yaşı 14-dən yuxarı 300-dən çox iştirakçı qatılıb.**

İştirakçılar Naxçıvan Şəhər Mərkəzi Xəstəxanasının qarşısındakı start xəttindən müəyyən edilmiş marşrut üzrə Zəfər parkının ətrafındakı finiş xəttinədək olan 5500 metrlik məsafəni qət ediblər. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, mükafatçılar kişilər və qadınlar arasında peşəkar, həvəskar idmançı kateqoriyalarında müəyyənləşib. Finiş xəttinə ən tez çatan idmançı 44 nömrəli rəmzi sıra nömrəsi ilə Əmrah Nağıyev olub.

Kişilər və qadınlar arasında ilk üç yerin sahibi olan iştirakçılar diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar. Həmçinin nominasiya qalibləri və fəal iştirakçılar da təltif olunublar.

Nəticələrə əsasən, peşəkar kateqoriyası üzrə kişilər arasında Əmrah Nağıyev, qadınlar arasında isə Aysel Hüseynova birinci yerə sahib çıxıblar. Namiq Babayev və Aylin Bədəlli ikinci, Emin Abbasovla Fatimə Məmmədəliyeva isə üçüncü olublar.

## Cəbrayılda idman festivalı




**AFFA-nın təşkilatçılığı, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin dəstəyi ilə şanlı qələbəmizin 5 illik yubileyi münasibətilə işğaldan azad edilmiş Cəbrayıl şəhərində idman festivalı təşkil olunub.**

Cəbrayıl şəhər Mehdi Mehdizadə adına tam orta məktəbin futbol meydançasında baş tutan mərasimdə 20-dən çox uşaq iştirak edib. Bayram əhvali-ruhiyyəsində keçən yarış zamanı uşaqlar futbol oyunlarında iştirak edib, əyləncəli vaxt keçiriblər.

Şənliyin sonunda uşaqlara AFFA tərəfindən futbol topları hədiyyə olunub.

## Veteran cüdoçulardan 3 Dünya bürüncü



**Fransanın paytaxtı Paris şəhərində keçirilən cüdo üzrə veteranlar arasında dünya çempionatında millimizin medal sayı 3-ə çatıb.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, M3 yaş kateqoriyasında təmsilçilərimiz Vüqar Babayev (66 kq), M4 kateqoriyasında isə Zaur Bağırov (+100 kq) bürünc medal qazanıblar. Təmsilçilərimiz üçüncü yer uğrunda görüşlərdə müvafiq olaraq fransalı Erik Şillevaerti və Sedrik Deguzeni məğlub ediblər.

Xatırladaq ki, ilk yarış günündə Qurban Məmmədli də (M2, +100 kq) bürünc medala layiq görülmüşdü.

***Qabil YUSİFOĞLU***
***XQ***


# TENDER SORĞUSU

**Satınalan təşkilatın adı:** Əmanətlərin Sığortalanması Fondu

**Satınalan təşkilatın VÖEN-i:** 1700773271

**Satınalan təşkilatın hüquqi ünvanı:** Bakı şəhəri, Bülbül prospekti 40

**Satınalan təşkilatın faktiki ünvanı:** Bakı şəhəri, Babək prospekti 16

**Elektron poçt:** info@adif.gov.az

**Telefon:** (+994) 941

**Satınalma pedmetinin adı:** Privileged Access Management (PAM) – Cyberark sistemi

**İstifadəçi sayı:** 40 (qırx) nəfər

**İstifadə müddəti:** 1 (bir) il

**Ehtimal olunan qiymət:** 99.235,87 (doxsan doqquz min iki yüz otuz beş manat səksən yeddi qəpik) manat.

**Təklifin təminatının məbləği:** ehtimal olunan qiymətin 10 faizi həcmində bank qarantiyası

**Elanın dərcedilmə tarixi və vaxtı:** 15.10.2025-ci il

**Təkliflərin son təqdimolunma tarixi və vaxtı:** 14.11.2025-ci il, saat 12:00-dək

**Zərflərin açılış tarixi və vaxtı:** 14.11.2025-ci il, saat 16:00

**Satınalma predmetinin çatdırılacağı ünvan:** Bakı şəhəri, Babək prospekti 16

**Təchizatçılar tərəfindən tenderdə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:**

**1.** Tenderdə iştirak etmək üçün ərizə;

**2.** İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi:

**2.1.** İştirak haqqının məbləği: 100 (bir yüz) manat;

**3.** Tender təklifi;

**4.** Təchizatçı haqqında tələb olunan sənədlər:

**5.** Hüquqi statusu və dövlət qeydiyyatını təsdiq edən sənədlərin surətləri (nizamnamə və dövlət qeydiyyat şəhadətnaməsi),

**6.** ƏDV qeydiyyatının olub olmamasını müəyyən etməyə imkan verən sənədlərin surətləri, VÖEN, bank rekvizitləri.

**Tenderin şərtlər toplusu:**

**1.** Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı zəruri tələblərə cavab verməlidir:

**1.1.** Privileged Access Management (PAM) – Cyberark sisteminin satışı ilə bağlı xidmətlər sahəsində qanunvericiliyə uyğun qaydada fəaliyyət göstərilməsi və ya satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;

**1.2.** Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;

**1.3.** Öz əmlakından sərbəst istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;

**1.4.** Barəsində iflas proseduruna başlanılmaması və ya müflislik barədə iddia qaldırılmaması;

**1.5.** Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyəti dayandırılmış şəxs olmaması;

**1.6.** Büdcəyə icbari ödənişlərlə (vergilər, rüsumlar, sosial ödənişlər və s.) bağlı müddəti keçmiş borcları olmaması;

**1.7.** “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası qanununa əsasən etibarsız təchizatçılar reyestrində daxil edilməməsi.

**2.** Satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsi nəzərdə tutulmur.

**3.** Satınalma müqaviləsinə əsasən müqavilənin qiyməti satınalma predmeti satınalan təşkilata tam şəkildə təhvil verildikdən sonra hər iki tərəfin səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilən təhvil-təslim sənədinə əsasən 5 (beş) iş günü ərzində, bank köçürməsi yolu ilə ödənilir.

**4.** Satınalma predmetinin qiymətinə onun dəyərindən başqa, digər xərclər (nəqliyyat, quraşdırma, vergilər, rüsumlar və s.) daxil edilir.

**5.** Tender təklifinin qiyməti Azərbaycan manatı ilə hesablanır.

**6.** Tender təklifi Azərbaycan dilində hazırlanır.

**7.** Təchizatçılar tərəfindən tender təklifinin təminatı qismində ehtimal olunan qiymətin 10 faizi həcmində Bank qarantiyası təqdim olunur (9.923,59 manat).

**8.** Tender təklifləri qapalı zərfdə, imzalanıb və möhürlənərək (dörd tərəfdən), Əmanətlərin Sığortalanması Fondunun Bakı şəhəri, Babək prospekti 16 ünvanında yerləşən inzibati binasına 14 noyabr 2025-ci il, saat 12:00-a qədər təqdim olunmalıdır.

**9.** Təchizatçılar tərəfindən zəruri hesab edildiyi hallarda satınalan təşkilatla təchizatçılar arasında görüş keçirilir.

**10.** Tender təklifi 14.11.2025-ci il tarixinədək qüvvədədir.

**11.** Tender təklifi zərflərinin açılışı 14 noyabr 2025-ci il tarixində saat 16:00-da Əmanətlərin Sığortalanması Fondunun inzibati binasında həyata keçiriləcəkdir.

**12.** Tender təkliflərinin qiymətləndirilməsi və müqayisəsi üçün istifadə olunacaq valyuta Azərbaycan manatıdır.

**13.** Tender sorğusu “Əmanətlərin Sığortalanması Fondunun satınalmalara dair Qaydaları”na əsasən həyata keçirilir.

**14.** Komissiya tender prosedurunun keçirilməsi zamanı iddiaçılar arasında qiymətin qaldırılmasına yönələn sövdələşmə müəyyən edildikdə, tender təklifləri tenderin əsas şərtlər toplusuna uyğun olmadıqda, tender predmetinin maliyyələşdirilməsi dayandırıldıqda bütün tender təkliflərini rədd edə bilər.

**15.** Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı meyarlar əsas götürülür:

**15.1.** Satınalma predmetinin funksional (istehlak xüsusiyyətləri) və/və ya keyfiyyət xarakteristikaları;

**15.2.** Satınalma predmetinin qiyməti;

**15.3.** Satınalma predmetinin istismar xərcləri;

**15.4.** Satınalma predmetinə texniki xidmət xərcləri;

**15.5.** Satınalma predmetinin göndərilməsi (çatdırılması), işlərin görülməsi, xidmətin göstərilməsi müddəti;

**15.6.** Satınalma predmetinin keyfiyyətinə verilmiş təminat (qarantiya) müddəti.

**16.** Tender təkliflərinin akseptindən sonra satınalma predmeti ilə bağı tələbatı təmin edən və ən aşağı qiymət təklifi təqdim edən təchizatçı ilə 5 (beş) iş günü ərzində satınalma müqaviləsi bağlanılır.

**17.** Tenderin təşkili ilə bağlı məlumat almaq üçün əlaqələndiri şəxs Əmanətlərin Sığortalanması Fondunun Satınalma komissiyasının katibi Rüfanə Xanlarovadır.


*HAVA*

## Bakıda yağmursuz, bəzi rayonlarda qısamüddətli yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 5-dən 6-na keçən gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 9-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 6-11, gündüz 17-22 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***


## “Sabunçu Bazarı” ASC səhmdarlarının nəzərinə!

28 dekabr 2025-ci il saat 11.00-da “Sabunçu Bazarı” ASC səhmdarlarının Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Əhməd Cavad küçəsi 4 nömrəli ünvanda növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** “Sabunçu Bazarı” ASC-nin müşahidə şurasının üzvlərinin seçilməsi.

**2.** “Sabunçu Bazarı” ASC-nin baş direktorunun seçilməsi.

**3.** Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Əhməd Cavad küçəsi 4 nömrəli ünvanda tanış olmaq mümkündür.



**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**

Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az

+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3487
SİFARİŞ 2210
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00